www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 aprel 2015-ci il Cümə № 75 (6103) Qiyməti 40 qəpik

**Xəbər**

## Qadın məmur rüşvət alarkən tutuldu

yazısı səh.5-də

**Gündəm**

### MTN daha bir antiteror əməliyyatı keçirdi



Həbs edilənlər "Təhriki Taliban" və "Tayfatul Mansura" adlı silahlı dəstənin fəaliyyətində iştirak ediblər

yazısı səh.6-da

### İranın üzü çöndü, Qərblə münasibətlər yenidən pisləşdi

yazısı səh.11-də

### Müsavat niyə yürüş-mitinqə qərar verdiyinə aydınlıq gətirdi

yazısı səh.10-da

### Manatla kreditə qadağa-milli valyutanın taleyi müəmmalıdır...

yazısı səh.4-də

### Tanınmış həkimin evindən külli miqdarda pul və qızıl oğurlandı

yazısı səh.15-də

### YAP-dan və sabiq müşavirdən Abbas Abbasov haqda ağır sözlər

yazısı səh.12-də

### İntihar edən şəxsin MTN zabiti olduğu təsdiqləndi

yazısı səh.13-də

### Məktəb direktorunun oğluna zorlama ittiham

yazısı səh.15-də

### Neft Daşlarında ərzaq qadağası fəhlə etirazı doğurdu

yazısı səh.13-də

### "A.M.A.Y. Abdulla"dan 2 milyon manat istəyirlər

yazısı səh.13-də

### Qarabağda yeni müharibə xəbərdarlıqları

yazısı səh.4-də

## Nəqliyyat şefinin çevrəsində şok əməliyyat gözlənilir

# NAZİR ZİYA MƏMMƏDOVUN MÜAVİNİ HƏBS OLUNA BİLƏR

Cavid Qurbanovun dəmir yolundakı vəziyyət haqda ölkə rəhbərliyinə məruzəsindən sonra Arif Əsgərovla bağlı araşdırmalara başlandığı iddia edilir; Məmmədov-Əsgərov cütlüyü bir neçə milyardlıq investisiya pulunu, milyonlarla büdcə vəsaitini talan etməkdə suçlanır...




yazısı səh.5-də

## Türkiyəyə ASALA terror təhdidinin pərdəarxası - Azərbaycan da hədəfdə

Ermənі terror təşkilatının qardaş ölkəni məhz indi hədəfə alması təkcə Çanaqqala mərasimlərini pozmağa hesablanmayıb; 24 apreldə dünyaya iki mesaj veriləcək

yazısı səh.6-da



*Vahid Əhmədov:*

### "Məni çağırıb şərt qoydular ki, ya o zavoda gedəcəksən, ya da türməyə"

yazısı səh. 8 və 9-da



### Prokuror Rəsul Cəfərova 9 il cəza istədi

yazısı səh.3-də



### ABŞ-ın Bakıdakı səfirliyi Rusiyaya sərt cavab verdi

yazısı səh.11-də



# İlham Əliyev BƏƏ-nin Azərbaycandakı səfirini qəbul etdi

**Prezident İlham Əliyev aprelin 9-da Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Salem Xalifa Mohamed Əl-Ğaflini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.**

Aznews.az xəbər verir ki, dövlət başçısı İslam aləminin müqəddəs ocaqlarının ziyarətindən məmnunluğunu bildirib.

Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrin genişləndirilməsində ölkəmizin maraqlı olduğunu deyən prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd edib.

Səfir Salem Xalifa Mohamed Əl-Ğafli ölkəmizdəki diplomatik fəaliyyəti dövründə səfirliyin işinə yaradılan yüksək şəraitə görə Azərbaycan hökumətinə və şəxsən prezident İlham Əliyevə minnətdarlığını ifadə edib və ikitərəfli əlaqələrimizin bundan sonra da inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirib.

# ADU rəhbərliyindən tələbələrə güzəşt

## "Bakı 2015-də iştirak edirsizsə...."

**Bugünlərdə Azərbaycan Dillər Universitetinin sosial şəbəkədəki rəsmi səhifəsində ilginc bir elan-məlumat yerləşdirilib. Məlumatda deyilir:**

"Əziz ADU tələbələri,

Sizlərə yay imtahan sessiyası ilə əlaqədar bir neçə vacib məqamları qeyd edirik.

İlk olaraq ADU TGT olaraq hər bir tələbə dostlarımıza bol uğurlar arzulayırıq!

May ayının 12-dən etibarən universitetimizdə yay imtahan sessiyası başlayacaq. 4 may tarixindən etibarən isə tələbələr müvafiq kafedralara müraciət edərək imtahan suallarını əldə edə biləcəklər (imtahan biletlərini deyil, yalnız sualları). Digər bir məqam isə Baku 2015 İlk Avropa Oyunlarında könüllü olaraq rəsmi şəkildə iştirak edəcək tələbələrə aiddir. Əgər imtahanlar vaxtı oyunlarla bağlı hər hansı tədbir və yaxud treninqlər keçiriləcəkdirsə (yəni imtahan vaxtı ilə üst üstə düşmə halı) və həmin tələbələrin orada iştirakı mütləq vacib olacaqdırsa, həmin tələbələrə güzəşt olaraq dekanlıqlar tərəfindən onların uyğun vaxtlarına görə imtahanlar təşkil olunacaq.

Bir daha bütün ADU tələbələrinə Baku-2015 Avropa Oyunlarında ölkəmizi, universitetimizi ən yüksək səviyyədə təmsil etməyi və təhsillərində bol uğurlar arzulayırıq!"

Məlumat sosial şəbəkədə yayılandan sonra özünü ADU tələbələri adlandıran bəzi şəxslər məlumatı paylaşaraq müvafiq şərhlər yazdılar. Həmin şərhlərdə universitet rəhbərliyinin tələbələrə Bakı-2015 ilk Avropa Oyunlarında könüllü olaraq rəsmi şəkildə iştirak etmələri üçün psixoloji təzyiq göstərdiyini bildirib. Onlara oyunlarda iştirak etməyəcəkləri halda imtahanlarda problemlə qarşılaşacaqları bildirilib.

Elanın yayılmasından sonra ADU ilə əlaqə saxlasaq da, suallarımıza cavab verən adekvat heç kimi tapa bilmədik. Qarşı tərəfin mövqeyini alaraq mövzunu davam etdirəcəyik.

❑ Sevinc TELMANQIZI

# Qış təslim olmur

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycan ərazisində kəskin hava şəraiti ilə bağlı xəbərdarlıq yayıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən xəbərə görə, bir neçə gün davam edən mülayim hava şəraitindən sonra aprelin 10-dan 13-dək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, fasilələrlə yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir.**

Şimal-qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Temperatur ötən günlərlə müqayisədə tədricən 5-8 dərəcə aşağı enəcək.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Avropa Oyunları vaxtı Bakıda içki satışı məhdudlaşacaq

**Avropa Oyunları ərəfəsində Bakıda bir çox yerlərdə spirtli içki satışına qadağa qoyulacaq.**

"Qafqazinfo" xəbər verir ki, bu haqda ANS-in "Günə baxan" verilişində qonaq olan aparıcı və "Bakı-2015"in səfiri Hacı Nuran deyib: "Avropa Oyunları Ramazan ayı ərəfəsindədir. Əməliyyat komitəsi qərara gəlib ki, həmin ərəfədə spirtli içki satılmasın. Bu gözəl qərardır. Qonaqlar, idmançılar spirtli içkidən istifadə etməyəcək. Arenaların ətrafındakı bütün mağazalarda içki satışı tamamilə qadağan olunacaq".

Xatırladaq ki, ilk dəfə Bakıda keçiriləcək Avropa Oyunları iyunun 12-də başlayıb 28-də bitəcək.






# Bakı metrosunda iş saatları dəyişdiriləcək

**"Bakı Metropoliteni" QSC-də iş saatları dəyişdiriləcək. Bu, iyun ayında Bakıda keçiriləcək I Avropa Oyunları zamanı baş tutacaq.**

Bu barədə "Report"a "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev məlumat verib.

Onun sözlərinə görə, beynəlxalq yarışlar zamanı sərnişinlərin maneəsiz və rahat hərəkətinin təşkili edilməsi məqsədilə iyunun 12-28-də metronun iş saatları artırılacaq: "Belə ki, həmin tarixlərdə metronun iş saatı saat 06:00-dan saat 01: 00-a qədər uzadılacaq. Lakin keçiriləcək I Avropa Oyunlarının açılış və bağlanış günü metronun iş saatı gecə saat 02:00-a qədər artırıla bilər".

Qeyd edək ki, "Bakı Metropoliteni" QSC-nin adi günlərdə iş saatları 06:00-dan 24:00-a qədərdir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

# Göyçaylılar Taleh Xasməmmədovun azadlığı üçün prezidentə müraciət etdilər

**350 nəfər Göyçay sakini həbsdə olan hüquq müdafiəçisi, sabiq vicdan məhbusu Taleh Xasməmmədovun azadlığa buraxılması üçün prezident İlham Əliyevə müraciət ünvanlayıb. Bu barədə müsavat.coma hüquq müdafiəçisinin anası Gülbuta Xasməmmədova məlumat verdi. Onun sözlərinə görə, rayon sakinlərinin daim hörmətini qazandığı üçün 350 nəfər imza ataraq T.Xasməmmədovun həbsdən buraxılması üçün dövlət başçısına kollektiv müraciət yazıblar:**

"Taleh çox ağır xəstədir, həbsxana şəraitində astma xəstəliyindən - boğulmadan ölə bilər. O, hazırda Penitensiar Xidmətin Müalicə Müəssisəsində müalicə alır. 350 nəfərin imzaladığı məktubda da məhz onun səhhətini, ailə vəziyyətini nəzərə alaraq azadlığa buraxılması xahiş edilir. Cənab prezidentdən mətbuat vasitəsilə də xahiş edirik ki, Taleh Xasməmmədovun azadlığa buraxılması, heç olmasa barəsində həbslə bağlı olmayan qərar verilməsi üçün müvafiq strukturlara göstəriş versin. Talehi mənim gözümün önündə Zahir adlı bir şəxsin vasitəsilə şərləyib tutublar. Həmin adam indiyədək rayonda bir neçə adamın üzünə durub. Taleh ona barmağını da toxundurmayıb. Xuliqanlıq etməyib. Sadəcə, onun hüquq müdafiəçi kimi fəaliyyəti rayon rəhbərliyinin xoşuna gəlməyib. Taleh sabiq vicdan məhbusudur, cənab prezidentin sərəncamı ilə 2012-ci ildə əfv olunub. Prezidentin əfv sərəncamı ilə azadlığa buraxılan adamı yerli məmurlar yenidən həbs etdirib. Qarşıdan Avropa Oyunları gəlir. İstəməzdik ki, Taleh Xasməmmədov həmin vaxta qədər həbsdə olsun, beynəlxalq təşkilatlar bundan ölkəmizə qarşı istifadə etsinlər".

T.Xasməmmədov fevralın 24-də saxlanılıb. Onun barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçilib.

# Ukraynada "banderaçılar"a xüsusi status verildi

**Ukrayna Ali Radası "XX əsrdə Ukraynanın müstəqilliyi uğrunda mübarizənin iştirakçılarının hüquqi statusu və xatirəsi haqqında" qanun qəbul edib. APA-nın "Ukrainskaya pravda" saytına istinadən verdiyi məlumata görə, 271 səslə qəbul olunan qanuna əsasən, XX əsrin əvvəlləri və ortalarında, xüsusən İkinci Dünya müharibəsi illərində və ondan sonra Ukraynanın müstəqilliyi uğrunda mübarizə aparmış "Ukrayna Üsyançı Ordusu" (UPA), "Ukrayna Millətçiləri Təşkilatı" (OUN) "Karpatskaya Seç" və digər təşkilatlar dövlət tərəfindən rəsmən tanınıb.**

Silahlı, paramilitar, gizli siyasi təşkilatlarda, eləcə də fərdi şəkildə mübarizə aparmış bütün insanlar Ukraynanın müstəqilliyi uğurunda mübarizlər kimi şərəfləndirilib. "Dövlət qəbul edir ki, XX əsrdə Ukraynanın müstəqilliyi uğrunda mübarizə aparanlar Ukrayna dövlətçiliyinin 24 avqust 1991-ci ildə elan olunan Aktla bərpasında əsas rol oynayıblar. Bu isə onların hüquqi status verilərək şərəfləndirilməsinə əsas yaradır", - deyə qanunda bildirilir. Qanuna əsasən dövlət həmin şəxslərə dövlət mükafatları, sağ qalanlara sosial müavinətlər və imtiyazlar verə bilər.

Xatırladaq ki, Rusiya təbliğatı bu şəxsləri Ukrayna millətçiliyinin ideoloqlarından biri Stepan Banderanın adı ilə "banderaçılar" adlandırır.

# Siyasi məhbuslara məktub kampaniyası başladı

**NİDA Vətəndaş Hərəkatı bu həftədən siyasi məhbuslar üçün məktub kampaniyasına başlayıb. Bu barədə hərəkatın sosial şəbəkədəki statusunda məlumat verilib: "Hazırda ölkədə siyasi fəaliyyətinə, dini inanclarına görə həbs olunmuş 100 nəfərdən çox insan var. Onlara tanımadıqları şəxslər tərəfindən yazılan bir neçə cümləlik məktub böyük mənəvi dəstək olacaq. Bu dəstəyi onlar üçün göstərən hər kəsə öz adımızdan təşəkkür edirik. Hər həftə 5 nəfər üçün məktub yazılacaq".**

Bu həftəki məktublar araşdırmaçı- jurnalist Xədicə İsmayıla, Müsavat başqanının müavini Tofiq Yaqubluya, Azərbaycan Xalq Cəbhəsi Partiyasının Rəyasət Heyəti üzvü Seymur Həziyə, ilahiyyatçı Tale Bağırzadəyə və NİDA Vətəndaş Hərəkatının üzvü Rəşadət Axundova yazılacaq.

❑ SEVİNC

# Razi Nurullayev yeni siyasi hərəkat yaradır

**Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) sədrinin sabiq müavini Razi Nurullayev yeni siyasi hərəkat yaradır.**

AzNews.az xəbər verir ki, bu barədə "Report"a Razi Nurullayev məlumat verib.

O bildirib ki, hərəkatla bağlı məsləhətləşmələr yekunlaşmaq üzrədir: "Bu barədə siyasi partiya mənsubiyyəti olanlarla da müzakirələr aparmışam. Amma daha çox sıravi insanlarla danışıqlar aparmağı üstün tuturam. Çünki elə siyasətçilər var ki, onlarla yola getmək mümkün deyil, sadə insanlarla isə bu, bir qədər asandır".

R.Nurullayev yaxın günlərdə hərəkatın həm adının açıqlanacağını, həm də elan olunacağını qeyd edib.

# Rusiya polisi antiinqilab hazırlıqlarına başlayıb

**Rusiya daxili qoşunları 2014-cü ildə Kiyev Maydanındakı şəraitə uyğun vəziyyətdə təlim keçirib. Təlimdə yanan təkərlər, daş və butulkalardan istifadə olunub.**

"Növbəti mərhələdə əsas kimi yaxın keçmişdə qonşu ölkələrin birində baş verən hadisələr götürülüb. Reallığı təsvir etmək üçün Maydanda istifadə edilən atributlardan da istifadə edilib", - bunu daxili qoşunların mətbuat xidmətinin rəhbəri Valisi Pançenkov bildirib.

Təlimlər aprelin 2-dən 10-na qədər keçirilir.

# Mingəçevirdə məcburi köçkünlərin binası uçdu

**Aprelin 8-də "Mingəçevir Regional Elektrik Şəbəkəsi" MMC-nin keçmiş inzibati binasının divarının və çardağın bir hissəsi uçub.**

Binada məskunlaşan 14 məcburi köçkün ailəsinin bildirdiyinə görə, hadisə gecə saat 2-dən sonra baş verib. Uçqun zamanı xəsarət alan olmayıb. Qaçqın və Məcburi Köçkünlərin İş Dövlət Komitəsinin Mingəçevir şəhəri üzrə aparıcı məsləhətçisi Hüseyn Yusifovun bildirdiyinə görə, məsələ ilə bağlı müvafiq qurumlara məlumat verilib.

El TV (Region TV) xəbər verir ki, 1941-ci ildə çiy kərpicdən tikilən və qəzalı vəziyyətdə olan bina istismar müddətini 1994-cü ildə başa vurub.

YENİ MÜSAVAT
N 75 (6103) 10 aprel 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Prokuror Rəsul Cəfərova 9 il iş istədi

## Hüquq müdafiəçisi sön sözündə özünü təqsirli saymadığını söylədi: "Fəaliyyətimdə qanunsuz sahibkarlıq, mənimsəmə olmayıb..."

**Aprelin 9-da Bakı Ağır Cinayətlər Məhkəməsində "İnsan Haqları Klubu"nun sədri Rəsul Cəfərovun növbəti prosesi keçirildi. Məhkəmə sənədlərin tədqiqi mərhələsi ilə başladı. İlk olaraq ittiham tərəfinin məhkəməyə təqdim etdiyi sənədlər elan olundu. Hakim Eldar İsmayılov rayon məhkəmələrinin təqsirləndirilən şəxs barəsində çıxardığı qərarları oxudu.**

Daha sonra Təranə Abdullayevanın rəhbəri olduğu ekspertiza rəyi açıqlandı. Şahid və zərərçəkmiş şəxslərin imzalarının onlara məxsus olduğu qeyd olundu. Hakim bəzi məlumatların üstündən uzun müddət keçdiyinə görə ekspertizanın rəy verə bilmədiyini etiraf etdi.

**Yoxlama komissiyası və məhkəmə mühasibatlıq ekspertizası da elan olundu. Müdafiə tərəfinin vəkili Əlibaba Rzayev ekspertin məhkəməyə dəvət olunması ilə bağlı vəsatətində maliyyə hesablamalarının düzgün aparılmadığını da bildirdi:** "İş materiallarında məlumatlar düzgün yazılmayıb. Bir faktı qeyd edim ki, 3300 manat olan məbləğ ümumi hesablamada 4300 kimi hesablanıb. Vurulan 150 min manat məbləğə görə Rəsul Cəfərovun məsuliyyət daşıdığı qeyd olunur. Bunlar tamam qanunsuzdur. Bundan əlavə, eyni məbləğ üzərində iki bankın adı keçir. Bunlar dəqiqləşdirilməyib. Hesab edirəm ki, ekspert məhkəməyə dəvət olunmalıdır".

Dövlət ittihamçısı vəsatətin əleyhinə çıxış etdi: "İndiyə qədər bu vəsatət iki dəfə verilib və rədd olunub. Bu barədə mənim də fikrim olub. Bütün məsələlər aydınlaşıb. Vəsatətin təmin edilməsinə heç bir əsas görmürəm. Eyni məbləğ üzrə iki bankın adının keçdiyi qeyd olundu. Bunlar çaşdırıcı fikirlərdir".

Hakimlərin yerində təyin etdikləri müşavirədən sonra vəsatət təmin olunmadı.

**Təqsirləndirilən şəxs elan olunan məlumatlara etirazını bildirdi:** "Məlumatlarla bağlı narazılığım var. Qrant olmayan müqavilələri layihə kimi yazıblar. Bəzi məbləğlər var ki, səfər xərclərimdir. Bunları layihə adı altında qələmə verirlər".

R.Cəfərovun çıxışının ardından müdafiə tərəfinin məhkəməyə təqdim etdiyi sənədlərin tədqiqinə başlanıldı. Rəsul Cəfərov və Könüllülərin Beynəlxalq Əməkdaşlığı Birliyinin sədri Elnur Məmmədovun əməkhaqları açıqlandı. Məlum oldu ki, hər iki şəxsin aylıq əməkhaqları 796 manat həcmində olub. Daha sonra vergi və təşkilatın yerləşdiyi ofisin icarə haqqının ödənilməsi ilə bağlı məlumatlar oxundu. Vicdan məhbusu İlkin Rüstəmzadənin anası Atlas Hüseynovanın məhkəməyə yazdığı məktub oxundu. O, məktubda layihə çərçivəsində R.Cəfərovun onların ailəsinə 2510 manat məbləğində pul verdiyini təsdiq edirdi.




Müdafiə tərəfinin təqdim etdiyi məlumatlar içərisində ianə və qrant müqavilələrinə də aydınlıq gətirilirdi. Qeyd olunurdu ki, ibtidai istintaq zamanı ianə və qrantlar tamam qarışdırılıb. Sübut olaraq İngiltərə səfirliyinin 6410 manat məbləğində verdiyi ianə göstərilmişdi. İş materiallarında bu məbləğ qrant kimi qələmə verilmişdi.

Bundan əlavə, müdafiə tərəfi deputat Azay Quliyevin çıxışını və Ədliyyə Nazirliyinin QHT-lərlə bağlı məlumatını məhkəməyə təqdim etdi. Məlum oldu ki, Azay Quliyev 2012-ci il tarixindəki çıxışı zamanı qeydiyyatdan keçməyən QHT-lərin fəaliyyətinin qanunsuz olmadığını bildirib. Müdafiə tərəfi bununla R.Cəfərovun rəhbəri olduğu "İnsan Haqları Klubu"nun qanunsuz fəaliyyətlə məşğul olmadığını sübut etdi. Ədliyyə Nazirliyinin məlumatında da qeydiyyatı olmayan QHT-lərin fəaliyyət göstərmələrinin qanunsuz olmadığı əks edilmişdi.

Hakim təqsirləndirilən şəxsə bəzi məlumatların istintaqa yox, məhkəməyə təqdim edilməsinin səbəblərini soruşdu. R.Cəfərov bunu vəkilinin dəyişdirilməsi ilə əlaqələndirdi. Bununla da məhkəmə istintaqı başa çatdı.

**Proses təqsirləndirilən şəxsin ifadəsi ilə davam etdi. R.Cəfərov ifadəsində ittihamların ona aid olmadığını bir daha bəyan etdi:** "Bəzi məlumatlara aydınlıq gətirəcəyəm. 2007-ci ildən fəaliyyətdə olan təşkilatda çalışmışam. 2008-ci ildən vergi ödəyicisi kimi qeydiyyata düşmüşəm. İstintaqda bununla bağlı sual verilmədi. Vergi ödəyicisi kimi qeydiyyatdan keçməyimə səbəb olaraq, qeyd edim ki, tez-tez RATİ və digər təşkilatların keçirdikləri layihələrdə ekspert qismində iştirak edirdim. 2010-cu ildə "İnsan Haqları Klubu"nu yaratdım. 3 dəfə qeydiyyatla bağlı Ədliyyə Nazirliyinə müraciət etmişəm. Səbəb də təşkilatın möhürünün və başqa sənədlərinin olması istəyimizlə bağlı idi. Heç bir qanunsuz fəaliyyətlə məşğul olmamışam. Azay Quliyev də çıxışında qeydiyyatdan keçməyən QHT-lərin fəaliyyətində qanunsuzluq olmadığını bildirib. Təşkilat qeydiyyatdan keçməyəndə ardıcıllıqla Azərbaycan məhkəmələrinə müraciət etmişik. Lakin ədalət yerini tapmayıb. Hazırda Avropa Məhkəməsində bu iş icraata götürülüb. Növbəti məhkəmə sənədi təqdim edəcəyəm. Yəni fikrimiz olmasa idi, bu qədər qeydiyyatla bağlı israr etməzdik. Qanunla qadağan olunan heç bir layihə həyata keçirməmişik. İki bankdan istifadə etmişik. "Kapital" və "Standart bank"da təyinatsız heç bir vəsait qəbul olunmur. İstəsəm başqa yollarla vəsaiti gizlədə bilərdim. Başqa adamın adına hesab açardım. Qanunlarda ciddi boşluqlar var. Layihələrin icrasına hüququ əsasımız olduğundan başlamışıq. Həmin vaxt qrant müqavilələrini qeydiyyata almırdılar. Qanunları pozsaydıq, digər təşkilatların adından layihələr həyata keçirməzdik. Hesab etmirəm ki, maliyyə hesabatlarını ideal aparmışıq. Amma ümumiyyətlə, aparmamışıq yanaşması ədalətsizdir. Bizim hesabat cədvəlləri, nəzarət kitabçası olmalı idi. Səhlənkarlıq ucbatından olmayıb. Bir neçə yox, bir nəfər mühasiblə işləməli idik. Bunları etiraf edirəm. Fəaliyyətimdə qanunsuz sahibkarlıq, mənimsəmə olmayıb. Hələ də ittihamın mahiyyəti mənə aydın deyil. Bütün vergiləri vaxtında ödəmişəm... Bizimlə müqaviləsi olan donor təşkilatları sui-istifadə hallarının şahidi olmadıqlarını bildiriblər. Məhkəməyə çoxlu sayda təsdiqedici sənədlər təqdim etmişik".




**Təqsirləndirilən şəxsin ifadəsindən sonra sual-cavab mərhələsi oldu. Bundan sonra prosesdə nahar vaxtı olduğundan fasilə yarandı. Saat 14:00-da məhkəmə dövlət ittihamçısının R.Cəfərova iş istəməsi ilə başladı:** "Məhkəmə istintaqı göründüyü kimi, obyektiv şəkildə aparıldı. Maraqlı məsələlər ortaya çıxdı. İrəli sürülmüş cinayət öz təsdiqini tapdı. Rəsul Cəfərov 4 maddə üzrə ittiham olunaraq, məsuliyyətə cəlb edilib. Düzgün qiymətləndirilmə olub. Özü sərbəst ifadə verdi. Özünü təqsirli bilməsə də, bu, onu məsuliyyətdən azad etmir. Yaxşı olardı ki, indiyə qədər cinayətini etiraf edərdi. Məhkəmə də bunu yüngülləşdirici hal kimi qəbul edərdi. Şahidlər və zərərçəkmiş şəxslər dindirildi. Anar Cəbiyev və İmranlı Nicat məhkəmədə tamam fərqli ifadələr verdilər. İlk ifadələrindən imtina etdilər. Hesab edirəm ki, onların ilk ifadələri nəzərə alınmalıdır. Çünki onlar Rəsul Cəfərova yaxındırlar. Cinayət işinə başqa maddələr əlavə olundu. Bunlar da tamam doğru idi. Müdafiə tərəfinin təqdim etdiyi sənədlər doğru deyil. İş ictimai qaydada aparılıb. Rəsul Cəfərovun işində olan yüngülləşdirici amillər nəzərə alınmalıdır. Ekspertizanın 350 manat xərci təqsirləndirilən şəxs tərəfindən ödənməlidir. 3 il müddətinə vəzifə tutma səlahiyyətindən məhrum edilməlidir. Ona qarşı ittihamlar tam sübuta yetirildiyindən 9 il müddətinə azadlıqdan məhrum edilsin. Hökmdən 20 gün müddətinə şikayət vermək hüququ tanınsın".

**Prokurorun çıxışından sonra hakim prosesin 14 aprel saat 10:30-da Rəsul Cəfərovun son sözü ilə davam edəcəyini elan etdi.**

❑ **Cavanşir ABBASLI**

# "Turalın Xədicəyə ürəyi yanmır, sadəcə, ölkədən çıxmaq istəyir"

## Fariz Namazlı: "İstintaq ilk gündən Tural Mustafayevə etibar etmirdi"

**Aprelin 7-də AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılın həbsinə səbəb olan jurnalist Tural Mustafayev "Yeni Müsavat"ın əməkdaşı ilə əlaqə saxlamışdı. Sosial şəbəkədə T.Mustafayevə məxsus olduğu bilinən profil vasitəsilə əməkdaşımızla yazışan T.Mustafayev 7.04.2015 tarixdə respublikanın baş prokuroru Zakir Qaralova məktub yazdığını xəbər vermişdi. Məktubun, konvertin surətini sübut üçün əməkdaşımıza yollayan T.Mustafayev bildirib ki, onun yeganə məqsədi X.İsmayılla bağlı şikayətini geri götürməkdir.**

Məktubun göndərilməsindən keçən iki gündə onun taleyi ilə maraqlandıq. Respublika Prokurorluğu mətbuat xidmətinin rəhbəri Eldar Sultanov dedi ki, bu barədə onda hər hansı məlumat yoxdur.

**X.İsmayılın vəkili Fariz Namazlı** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, xanım jurnalistlə T.Mustafayevin bu müraciətindən öncə görüşdüyü üçün ona bu barədə məlumat verə və onun reaksiyasını öyrənə bilməyib. Amma müsahibimiz X.İsmayılın sağlamlığının qaydasında olduğunu, xüsusi problemlərinin olmadığını bildirdi: "Görüş məsələsi bir dəfə təmin olundu. Əvvəllər görüş verilmirdi, o məsələ həll olunub. Qəzetlərin, yeməklərin çatdırılmasında problem var. Çiy ərzaqlar verilmir. Bunun səbəbini izah etmirlər. Bu arada isə Xədicə İsmayıl bol-bol mütaliə edir, kitab tərcümə edir".

**F.Namazlı hesab edir ki, T.Mustafayevin iddiasından əl çəkməsinin arxasında xeyli məqam var. Onun sözlərinə görə, ümumiyyətlə X.İsmayıla Cinayət Məcəlləsinin 125-ci maddəsi üzrə ittiham verilməsi başdan yanlış addım idi:** "O işin birləşdirilməsi və Xədicə xanıma qarşı yeni ittihamların verilməsi ona xidmət edir ki, istintaq ilk gündən Tural Mustafayevə etibar etməyib. İşi ancaq bununla aparsaydılar, Turalın axıra qədər onların istəyinə uyğun hərəkət edəcəyinə əmin deyildilər. Çünki bu adam sağlamlıq dərəcəsi qaydasında olmayan biridir, hər an fərqli, gözlənilməz addımlar ata bilər. Bu işin məhkəməyə getməsi daha böyük biabırçılıq olacaqdı. Ona görə də Xədicə İsmayıla daha ağır ittihamlar verdi. Doğrudur, bu da böyük biabırçılıq olacaq. Çünki onun ünvanına elə ittihamlar var ki, heç birinin aidiyyəti yoxdur".







**F.Namazlı hesab edir ki, T.Mustafayevin istintaq orqanları ilə əməkdaşlıq etməsi, bu məktubu da onların diqtəsi ilə yazması ehtimalı inandırıcı deyil. Onun fikrincə, T.Mustafayevin məqsədi ölkədən çıxmaqdır:** "O, bu məktubu yazmağa müstəqil şəkildə qərar verib. Tural düşünmürdü ki, onun ittihamı ciddi ajiotaj yarada bilər. Düşünürdü ki, istintaq onu əlinin üstündə, çox yuxarıda saxlayacaq. Amma bu baş vermədi. İndiki halda isə onun Xədicəyə ürəyinin yanmağına inanmıram. Sadəcə, ölkəni tərk etmək istəyir, bunun üçün də yazdığı şikayətdən imtina edir".

**Vəkil dedi ki, istintaqın nə zaman yekunlaşacağı barədə təxmini yoxdur. İndiki mərhələdə onlar ekspertiza rəyini gözləyirlər. Gələn ay X.İsmayılın həbs müddəti yekunlaşır:** "O vaxta qədər istintaqın yekunlaşıb-yekunlaşmayacağını bilmirəm. Amma Xədicə xanım ifadə verməkdən imtina edir. Çünki dəfələrlə bildirib ki, ona qarşı yönələn ittihamların əsassız olduğunu düşünür. Dediyinə görə, AzadlıqRadiosunda rəhbər vəzifədə olmayıb. Heç kimi işə götürməyib, sadəcə, əlaqələndirici, koordinator olub".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 75 (6103) 10 aprel 2015




# Manatla kreditə qadağa-milli valyutanın taleyi müəmmalıdır...

## Mərkəzi Bankın tövsiyəsi ortaya çıxıb, banklar riskə gedib uduzmaq istəmir, ekspertlər isə qərarı qanunvericiliyə zidd hesab edir…

**Ölkədə manatla kreditin qadağan edildiyi bildirilir. "Bizim Yol" qəzetinin xəbərinə görə, aprelin 8-dən Mərkəzi Bank bütün kommersiya banklarına təlimat göndərərək Azərbaycan manatı ilə kredit verməyi qadağan edib. Bu barədə qəzetə bank sektorundakı mənbə məlumat verib.**

Mənbə bildirib ki, təlimat aldıqdan sonra müştəri xidmətləri hazırladıqları kredit müqavilələrini təxirə salmağa məcbur olublar: "Bizdə olan məlumata görə, Mərkəzi Bankın bu addımının əsas səbəbi yaxın günlərdə manatın yenidən ucuzlaşacağı ilə bağlıdır. Artıq bir neçə gündür ki, valyutadəyişmə məntəqələrində dollar qıtlığı hiss olunur. Əhali əlindəki manatı dəyişməyə cəhd edir, amma məntəqələr vətəndaşların dollar tələbatını qarşılaya bilmir. Dünən əksər valyutadəyişmə məntəqələrində 100 dollar 107 manata dəyişdirilib. Bugünlərdə manatın yenidən 20 faizə qədər dəyər itirəcəyi ehtimal olunur". Xəbərlə bağlı Mərkəzi Bank iki gündür ki, açıqlama vermir.

Ekspertlər isə bu addımı qanunsuz hesab edirlər. Xatırladaq ki, deputat Vahid Əhmədov da bankların milli valyuta ilə kredit verməməsini qanunsuzluq, konstitusiyaya hörmətsizlik adlandırıb.

**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a bildirib ki hələ ki, rəsmi açıqlama yoxdur.** "Əslində belə bir məsələnin gündəmdə olması son dövrlərdə aktual idi. Çünki bankların özlərinin heç bir marağı yox idi ki, manatla kredit versinlər. Son dövrlərdə manatla kreditlərin həcmi xeyli dərəcədə azalmışdı. Banklar çalışırdılar ki, müştərilərinə ya dollarla, ya avro ilə kredit versinlər. Bu da manatın sabit olmadığı və uzun müddət sabit qala bilməyəcəyi ehtimalına görədir. Baş verənlər devalvasiya risklərinin yüksək olduğuna bir işarədir. Əslində düşünürəm ki, bəlkə də banklar Mərkəzi Bankı bəhanə edərək müştərilərinə belə bir məlumat verirlər. Çünki Mərkəzi Bankın bu cür qərar verməsi qanunsuzdur, qanunvericiliyə də ziddir. Ola bilsin ki, banklar öz qərarlarını Mərkəzi Bankın adına çıxmaqla öz məsuliyyətlərini kənara çəkməyə çalışırlar. Burada söhbət ondan gedir ki, bankların özlərinin də manatla kredit verməyə marağı yoxdur. Bunu açıq-aşkar deyə bilmirlər".

**Ekspert Samir Əliyev isə qeyd edib ki, Mərkəzi Bank tərəfindən belə bir göstəriş inandırıcı deyil:** "Çünki bu, qanunsuz addımdır, qanunvericiliyə ziddir. Ölkədə bir ödəniş sistemidir və bütün ödənişlər manatla aparılır. Manatla kreditin qadağan edilməsi baxımından qanunsuzdur. Ola bilər, hansısa bankın manatla kredit vermək imkanı müvəqqəti olaraq yoxdur. Bir müddət ola bilər ki, manatla kredit verilməsini dayandırsın. Amma bu, qısamüddətli xarakter daşımalıdır. Uzunmüddətli xarakter daşıyarsa, burada artıq həmin çox böyük problemin olduğu qənaətinə gəlmək olar. Mərkəzi Bank bu gün bankları manatla təmin etməlidir. Ölkədə manat qıtlığı var. Banklar kredit vermək üçün manat tapa bilmir. Digər tərəfdən də devalvasiya gözləntilərinin olması bankları manatla kredit verməyə çəkindirir. Banklar dollarla kredit vermək istəyir. Dollarla da vətəndaşlar götürmür. Çünki onlar da devalvasiya gözləntisindən çəkinirlər".

**Bəzi ekspertlər bildirirlər ki, dollarla kredit verilməsi qanunsuzdur və Mərkəzi Bank bankların qanunsuz addımına göz yumur.** "Xarici valyutada kreditin verilməsinin özü qanunsuzdur. Belə ki, Konstitusiyanın 19-cu maddəsinin III hissəsində deyilir: "Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır". Mülki Məcəllənin 439.1-ci maddəsi daha liberal olsa da, yenə də bu fikri təsdiqləyir, özü də daha konkret: "Pul öhdəliyi manatla ifadə edilməlidir. Əgər tərəflərdən biri xarici fiziki və ya hüquqi şəxsdirsə, tərəflər pul öhdəliyini, əgər bu, qanunla qadağan edilməyibsə, xarici valyutada da müəyyənləşdirə bilərlər"",- deyə ekspert Əkrəm Həsənov bildirir.

❑ RÖYA

# Qarabağda yeni müharibə xəbərdarlıqları

## Qərb mediası yeni müharibə ehtimalından yazır, Lavrov isə müharibə etməməyə çağırır; Elxan Şahinoğlu: "Ermənistan məcburi sülhə hazırlanır…"



**Qərb mediasında Qarabağda yeni müharibənin başlayacağı ilə bağlı məlumatların sayı artıb. AzadlıqRadiosunun xəbər verdiyinə görə, ABŞ-ın "The National Interest" jurnalında jurnalist və hərbi ekspert Jack Mulcaire Dağlıq Qarabağda yeni müharibənin başlama riskinin böyük olduğunu yazıb. Azərbaycan və Ermənistanın hərbi imkanlarına toxunan ekspert hər iki ölkənin son illərdə sürətlə silahlandığını yazıb.**

Onun fikrincə, Azərbaycanın öz ərazisinin beşdə birindən keçməsi üçün sanballı bir səbəb yoxdur, digər tərəfdən isə Ermənistan onun ərazisinin üçdə biri boyda olan torpağı qaytarmaq istəməz. Məqalədə deyilir ki, Azərbaycan təkcə 2013-2014-cü illərdə özünün quru qoşunları üçün Rusiyadan 1 milyard dollar dəyərində zirehli hərbi texnika alıb. Ekspert yazır ki, Azərbaycanın aldığı silah növləri heç şübhəsiz Qarabağın qurudan hücumla geri alınmasına hesablanıb. Müasir səyyar artilleriya və raket sistemləri Ermənistan qüvvələrini sıldırımlı və yaxşı möhkəmləndirilmiş istehkamlardan çıxarmaq üçün nəzərdə tutulub. Müəllif belə nəticəyə gəlir ki, tammiqyaslı müharibə hətta tərəflər onu etmək istəməsələr də baş verə bilər.

Maraqlıdır ki, ötən gün Rusiya xarici İşlər naziri Sergey Lavrov münaqişənin yenidən alovlanmasının mümkünsüz olduğunu deyib. Lavrovun "antimüharibə" bəyanatı da göstərir ki, savaşın başlama ehtimalı yüksəkdir və Rusiyanın baş diplomatı bu məqsədlə tərəfləri sakitləşdirən açıqlama verir.

**Politoloq Elxan Şahinoğluna görə, Qarabağ münaqişəsinin həlli ilə bağlı yeganə yol hərbi güc olaraq qalır:** "Məşhur rus yazıçısının sözləri ilə desək, səhnədə divarda asılan tüfəng nə zamansa atəş açacaq. İndi Azərbaycanın bu qədər müasir silah və hərbi texnika almasının, özünün hərbi istehsalının genişləndirməsinin əsas hədəfi işğal faktını ortadan qaldırmaqdır. Hərbi mexanizm hərəkətə gəlməlidir. İki yol var: ya Azərbaycanın silahlanmasından və hərbi qüdrətinin güclənməsindən ehtiyat edən işğalçı geri addım atır və sülh prosesi işə düşür, ya da qarşı tərəf vaxtı əvvəlki tək uzatmağa çalışır ki, bu da bölgədə müharibə riskini hər keçən gün artırır. Mən hesab edirəm ki, Ermənistan reallıqdan çıxış edərək öz xoşu ilə torpaqlarımızı boşaldacaq. Deməli, işğalçını buna məcbur etmək lazımdır. Ermənistan özü də məcburi sülhə hazırlanır".

**Münaqişənin həllinə təsir edən kənar amillərin də olduğunu qeyd edən E.Şahinoğlunun fikrincə, hazırda rəsmi Bakı yeni taktika tətbiq etməyə başlayıb:** "Yeni "biz torpaqlarımızı işğaldan azad etməyə başlasaq, Rusiya hansı addımları atacaq" sualı illərdir bizi məşğul edir. Ancaq bizi geri salan da məhz bu sual ətrafında müzakirələrdir. Çünki Rusiyanın reaksiyasından çəkindikcə, məsələ uzanacaq. Azərbaycan prezidenti İlham Əliyev son zamanlar bir fikrini tez-tez təkrarlayır: "Ermənistanın hərbçiləri ölmək istəmirlərsə, Ağdam, Füzuli və digər işğal altındakı rayonlarda xidmət etməsinlər". Bu, Ermənistana və Rusiyaya mesajdır. Ancaq hələ ki, mən nə İrəvandan, nə də Moskvadan İlham Əliyevin bu mesajına tutarlı cavab eşitməmişəm. Çünki haqsız olduqlarını bilirlər".

E.Şahinoğlunun fikrincə, Azərbaycan prezidentinin, müdafiə naziri Zakir Həsənovun Ermənistan və beynəlxalq aləmə ünvanlandığı mesajlar yeni müharibə çağırışı da hesab oluna bilər: "Birinci mesaj bu idi ki, düşmən işğal altında olan torpaqlarımızda rahat oturmamalı, daim qorxu içərisində yaşamalıdır. Müdafiə naziri ikinci mesajında isə dedi ki, Azərbaycan elə ilk zərbədə işğalçıların 70 faizini məhv edəcək. Nazir misal kimi də Azərbaycanın əldə etdiyi çoxlu silah, sursat və müasir texnikanı göstərdi. Bu o deməkdir ki, Azərbaycan hakimiyyəti bu qədər hərbi texnikaya boşuna milyardlarla dollar xərcləməyib, onlardan istifadə etmənin yollarını arayır".

**Ekspert Avropa Oyunlarından sonra cəbhədə hərbi əməliyyatların başlaya biləcəyini düşünür. Onun fikrincə, ilkin mərhələdə Ağdam və Füzuli azad edilə bilər:** "Azərbaycan hakimiyyəti və cəmiyyəti cəbhə bölgəsində itkilərə hazırdır. Çünki Azərbaycanda aparılan təbliğat torpaqları azad olunması vacibliyi üzərində qurulub. Əhalisi azalan və sosial problemləri dərinləşən Ermənistan üçün isə cəbhə bölgəsində daima baş verən itkilər problemlər yaradır. Ermənistan vətəndaşları Dağlıq Qarabağda hərbi xidmət keçmək istəmirlər".

**Rəsmi Bakının ancaq Dağlıq Qarabağa aidiyyəti olmayan rayonları azad etmək istədiyini deyən E.Şahinoğlunun fikrincə, ordunun Xankəndinə hücum etmək kimi planı yoxdur:** "Azərbaycan ordusu Ağdam rayonunu qəfil hücumla ələ keçirərsə, bu, sülh danışıqlarında Azərbaycanın mövqeyini gücləndirəcək. Çünki Ağdamın alınması ilə mənəvi və hərbi üstünlük qazanan Azərbaycan ordusu digər işğal altındakı rayonların boşaldılması prosesinə davam etdirəcək. Bu isə müharibənin genişlənməsi demək olacaq. Belə olan halda Minsk Qrupu erməni tərəfini güzəştə getməyə məcbur edəcək. Separatçılar Ağdam kimi bufer zonasını itirməklə ya digər işğal altındakı rayonların boşaldılması əvəzinə Bakı ilə mərhələli həll planına razılaşacaq, ya da genişmiqyaslı müharibə olacaq.

Belə olan halda Rusiya cəbhə bölgəsində vəziyyətin gərginləşməsindən narahatlığını bildirəcək, ancaq Moskva hansı məntiqlə Dağlıq Qarabağa aidiyyəti olmayan Ağdamın boşaldılmasına mane olacaq? Rusiya Cənubi Qafqazda müharibə istəmirsə, zəhmət çəkib Ermənistana təzyiq etsin ki, birinci mərhələdə Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılsın. Əks halda, müharibənin başlaması ehtimali hər zaman yüksək olacaq. Bunu həm Rusiya, həm ABŞ, həm də Avropa Birliyi bilməlidir".

❑ KƏNAN

## Nəqliyyat nazirinin çevrəsində şok əməliyyat gözlənilir

**Bu il fevral ayının 9-da prezident İlham Əliyev sərəncamla Cavid Qurbanovu “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinə sədr təyin etdi. Buna qədər həmin vəzifəni Arif Əsgərov tuturdu.**



Arif Əsgərov

# Ziya Məmmədovun müavini həbs oluna bilər

### Cavid Qurbanovun dəmir yolundakı vəziyyət haqda ölkə rəhbərliyinə məruzəsindən sonra Arif Əsgərovla bağlı araşdırmalara başlandığı deyilir; Məmmədov-Əsgərov cütlüyü bir neçə milyardlıq investisiya pulunu, milyonlarla büdcə vəsaitini talan etməkdə suçlanır

Prezidentin digər sərəncamı ilə A.Əsgərov nəqliyyat nazirinin müavini təyin olundu. Həmin vaxt əksər ekspertlər bildirirdi ki, onu Ziya Məmmədova müavin qoymaqla həm könlünü alıblar, həm də həbsdən qurtarıblar.

Düz 2 ay öncə baş tutan bu yerdəyişmə zamanı A.Əsgərovun həbsini şərtləndirən səbəblər barədə media yazdı. Amma çox dərinə gedilmədi. İndi isə üstündən 2 ay keçib və dəmir yolu təsərrüfatında ciddi problemlərin ortaya çıxdığı məlum olub.

**Haşiyə**

**“Yeni Müsavat” qəzeti son illər “Azərbaycan Dəmir Yolları” QSC-dəki korrupsiya faktları haqda ardıcıl araşdırma yazıları dərc edib. Həmin yazılarda bu sahədəki tükürpədən korrupsiya, yeyinti faktları detalları ilə göstərilib. Məsələn, 2012-ci ilin mart ayında *(3 il bundan öncə)* “Yeni Müsavat”ın iqtisadiyyat şöbəsinin hazırladığı yazıda belə bir fakt öz əksini tapmışdı. Sitat:** “...2005-2011-ci illərdə Dövlət İnvestisiya Proqramı çərçivəsində ”Azərbaycan Dəmir Yolları" QSC-yə 642 milyon 159 min manat sərmayə yatırılıb". Həmin tarixə olan məlumata görə, xarici kredit təşkilatlarından QSC-yə ayrılan vəsait isə 2 milyard dollara yaxın olub. Son 3 ildə dəmir yoluna büdcədən milyonlarla manat vəsait yatırılıb. Xarici sərmayəni də bunun üstünə gəldikdə olduqca ciddi vəsait alınır. Bütün bunlara rəğmən, bu gün dəmir yolunda vaqon parkını ötən əsrin 60-70, ən yaxşı halda 80-ci illərində istehsalı olunmuş vaqonlar təşkil edir. Elektrovoz parkında vəziyyət daha acınacaqlıdır. “Azərbaycan Dəmir Yolları” QSC-nin parkındakı elektrovozların mütləq əksəriyyəti 1950-ci illərdə istehsal olunub və istismar müddətini artıq çoxdan başa vurub. Amma hələ də yüzlərlə sərnişinin əyləşdiyi qatarları 60-65 ilin elektrovozları çəkib aparır...

Dəmir yolu xətlərinin də vəziyyəti ürəkaçan deyil. Hər il dəmir yolunda xeyli qəzalar olur. Mediada vaxtaşırı yük qatarlarının qəzaya düşməsi haqda xəbərlər oxuyuruq. Günün birində sərnişin qatarlarının da dəhşətli qəza keçirəcəyinə kim qarantiya verə bilər? Sıradan çıxmış dəmir yolu xətləri ilə yarım əsrdən çox yaşı olan elektrovozlara qoşulmuş köhnə, istismar müddəti bitmiş vaqonların sağ-salamat mənzil başına gedib çıxması əslində möcüzə sayılmalıdır".

***

Dəmir yolu təsərrüfatı Nəqliyyat Nazirliyinin tabeliyindədir. Bu təşkilata uzun illər Ziya Məmmədov rəhbərlik edib. 2002-ci ildə Nəqliyyat Nazirliyi təsis olunduqdan sonra Z.Məmmədov nazir təyin olundu. Arif Əsgərov isə onun boşalan köhnə vəzifəsinə gətirildi. A.Əsgərovun bu posta təyinat almasında Z.Məmmədovun müstəsna xidmətinin olduğu şübhəsizdir. Çünki onlar uzun illərin dostudurlar. Z.Məmmədov uzun illər dəmir yolu kimi yağlı tikəni, korrupsiya ocağını öz nəzarətində A.Əsgərovun vasitəsilə saxlaya bildi.

Amma iddialara görə, indi vəziyyət dəyişib. Son 2 aydır ki, nəqliyyat naziri bu yağlı tikədən məhrum edilib. Nəinki məhrum edilib, bu sahə ona ciddi problemlər yaratmaqdadır.

Bu haqda “Yeni Müsavat”ı bilgiləndirən mənbə iddia edir ki, prezident İ.Əliyev Cavid Qurbanova dəmir yolu təsərrüfatında ciddi dönüş yaratmaq haqda tapşırıq verib. C.Qurbanov isə QSC-yə sədr təyin olunduqdan sonra yoxlamalar aparıb, invertarlaşma işlərinə başlayıb. Və məlum olub ki, müstəqillik qazanandan üzü bəri Azərbaycan nə yeni elektrovoz alıb, nə vaqon parkı yenilənib. Bu azmış kimi, əsaslı təmiri üçün hər il büdcədən milyonlarla manat ayrılan dəmir yolu xətləri də bərbad gündədir.

Mənbənin dediyinə görə, C.Qurbanov üzləşdiyi mənzərə haqda ölkə başçısına məruzə edib. O, prezidentə yazılı və şifahi hesabat verib. Korrupsiya faktları barədə detalları dövlət başçısının nəzərinə çatdırıb. Qaynağımız onu da bildirib ki, bundan sonra İ.Əliyev C.Qurbanova tapşırıq verib ki, Nəqliyyat Nazirliyinin rəhbər şəxslərindən, xüsusilə də Ziya Məmmədovdan heç bir tapşırıq almasın. Cavid Qurbanova “birbaşa prezidentlə işləmək” imkanı tanınıb.

Redaksiyamıza çatan məlumatda deyilir ki, ölkə rəhbərliyi C.Qurbanovun hesabatından sonra Arif Əsgərovla bağlı araşdırmaların aparılması barədə qəti göstəriş verib. Onun “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri olduğu dövrdəki fəaliyyətinin yoxlanması haqda aidiyyəti dövlət qurumlarına tapşırıq verildiyi də gələn məlumatlar sırasındadır.

***

Bu fakt son illər kifayət qədər şişmiş, güclənmiş Ziya Məmmədovun da “vurulmasına”, sözün siyasi və iqtisadi mənasında, budanmasına kömək edə bilər. Çünki A.Əsgərov doğrudan da əgər korrupsiyaya yol veribsə, yeyinti edibsə, dövlət vəsaitini talayıbsa, nazirin bilgisi və razılığı olmadan bunu edə bilməzdi.

Son aylar Z.Məmmədovla bağlı gedən proseslər deməyə əsas verir ki, onun perspektivi heç də yaxşı görünmür. Belə çıxır ki, dostu və müavini A.Əsgərovla birlikdə yaxın vaxtlarda korrupsiya qatarının altına düşüb xurd-xəşil ola bilərlər.

❑ **İqtisadiyyat şöbəsi**

## Qadın məmur rüşvət alarkən tutuldu

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 30 saylı Tibbi Sosial Ekspert Komissiyasının (TSEK) sədri Xoşbəxt Ağayevanın qanunsuz əməlləri barədə Biləsuvar və Cəlilabad rayon sakinlərindən daxil olmuş müraciətlər Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən APA-ya verilən məlumata görə, məhkəmənin müvafiq qərarı əsasında həyata keçirilmiş əməliyyat tədbirləri nəticəsində X.Ağayevanın Masallı rayon sakinindən bacısına əlillik dərəcəsinin təyin edilməsi üçün 600 manat tələb etməsi və həmin pulun 500 manatını 2015-ci il martın 13-də 30 saylı TSEK-in Cəlilabad rayonunda yerləşən inzibati binasında iş otağında rüşvət kimi almasında, həmçinin xidməti vəzifəsinin icrası ilə əlaqədar ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə pul istəməsi və ya almasında şübhələr üçün əsaslar olduğundan ona Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsi ilə ittiham elan edilib və məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

X.Ağayevanın iş otağında axtarış zamanı istintaq üçün əhəmiyyət kəsb edən müxtəlif sənədlər, o cümlədən digər vətəndaşlardan əlillik dərəcəsinin təyin edilməsi ilə bağlı onların adları və soyadlarının qarşısında rüşvət kimi aldığı ehtimal edilən məbləğlərə dair qeydlər aparılmış sənədlər aşkar edilərək maddi sübut kimi götürülüb.

Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

Göstərilənlərlə yanaşı, X.Ağayevanın korrupsiya hüquqpozmaları ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə Biləsuvar və Cəlilabad rayon sakinlərindən daxil olmuş 52 müraciət üzrə zəruri araşdırmalar aparılmaqla qanuna müvafiq qərarların qəbul edilməsi təmin ediləcək.

# Xankəndi ilə birbaşa danışıqlar



Azər RƏŞİDOĞLU

**Rusiya Qarabağın azad olunmasında Azərbaycana yardım edəcək. Azərbaycan ictimai rəyində müzakirəyə çıxarılan əsas tezislərdən biri bu idi. Rusiyanın xarici işlər naziri Sergey Lavrov ermənistanlı həmkarı Edvard Nalbəndyanla görüşün yekunları üzrə keçirilən brifinqdə bu tezisi alt-üst etdi.**

Lavrov bəyan etdi ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinin qaynar fazaya keçməsini düşünmür.

S.Lavrov bildirib ki, ritorikaya baxmayaraq o, tərəflərin də bunda maraqlı olmadığına əmindir: “Bizim Qarabağla bağlı bütün addımlarımız, - mən Rusiyanı nəzərdə tuturam, - yalnız qarşılıqlı məqbul həll yolunun mümkün qədər tez tapılmasına yönəlib.

Bunu gözləmək olardı. Unutmaq lazım deyil ki, Kreml Qarabağ münaqişəsinin həlinə yalnız bir şərtlə razılıq verə bilər - Azərbaycanın işğaldan azad edilən rayonlarına sülhməramlı qüvvə statusu ilə Rusiya qoşunları yeridilsin.

Hazırda Rusiya işğal altında olan Dağlıq Qarabağa və Ermənistana nəzarəti tam həyata keçirir və belə status-kvo Moskvaya sərf edir. İstənilən anda Ermənistan və Dağlıq Qarabağ separatçıları Kremlin diktəsi ilə hərəkətə gətirilə bilər. Qarabağ münaqişəsinin mövcudluğu Rusiyanın Cənubi Qafqazda mövcudluğu deməkdir. Göründüyü kimi, yeni Qarabağ savaşında Moskva maraqlı deyil, deməli, nə Bakı, nə də İrəvan “cızığından” kənara çıxa bilməz.

Bu gün Rusiyaya münaqişənin dondurulması sərf edir. Buna nə Bakı, nə də İrəvan etiraz edə bilməz.

İlk baxışdan, Bakının silaha əl ataraq, işğal olunmuş ərazilərdən bir qismini azad etməsi mümkün görünür. Lakin bu məsələ göründüyü qədər də sadə deyil. Son proseslər fonunda yaranan təəssürat ondan ibarətdir ki, məhz ruslar Bakını belə addım atmağa sövq edə bilərdi. S. Lavrov bu tezisi də vurdu.

Dünyadakı reallıq Birləşmiş Ştatların da Azərbaycana sərf etməyəcək mövqedən çıxış edəcəyini ehtimal etməyə əsas verir.

Dağlıq Qarabağ münaqişənə Cənubi Qafqazda və Şərqi Avropada mövcud olan digər münaqişələrlə eyniləşdirmək olmaz. Ən azı ona görə ki, Dağlıq Qarabağ əhalisinin hamısı etnik ermənilərdən ibarət deyil, bu ərazidə yaşayan Azərbaycan türklərinin hüquqları da nəzərdən qaçırıla bilməz.

Digər tərəfdən, işğal altında olan ərazilərin əhalisinin əksəriyyəti türklərdir və məsələyə milli təyin etmə prizmasından heç cürə baxıla bilməz.

Digər variant Bakı və Xankəndi arasında mümkün dialoq perspektividir. Qarabağın erməni icması ilə danışıqlar iki istiqamətdə aparıla bilər - xalq diplomatiyası və Azərbaycan hakimiyyəti nümayəndələrinin öz vətəndaşları olan erməni sakinlərlə danışıqlara başlaması yolu ilə. Yaranmış vəziyyətdə məqbul çıxış yolu Dağlıq Qarabağda yaşayan ermənilər iqtisadi əlaqələrə başlamaq, Azərbaycan vətəndaşı olan erməniləri böhrandan xilas etməyin yollarını düşünmək lazım gəlir.

Ermənistandan Azərbaycana keçənlərin artdığını nəzərə alsaq, bu ən optimal yol kimi görünür.

Rəsmi Bakı Xankəndi ilə və yaxud vasitəçilər olmadan İrəvanla danışıqlar prosesinə qoşula bilərmi və bu nə dərəcədə effektli ola bilər?

İlk növbədə vasitəçilər olmadan aparıla biləcək Bakı və İrəvan danışıqlarına diqqət yetirək. Bəllidir ki, uğursuzluğu başqalarının çiyninə yükləmək cavabdehlikdən daha asandır.

İndi diplomatiyanın üzləşdiyi hər bir uğursuzluğu Minsk Qrupunun üzərinə yıxmaq mümkündür.

Tərəflər birbaşa danışıqlara üstünlük versələr, o zaman yeni “qurbanlıq keçi” tapmaq lazım olacaq və yenidən ermənilər azərbaycanlıları, azərbaycanlılar isə erməniləri ittiham edəcək; hər kəs savaşdan danışacaq, amma kimsə bu barədə fikirləşə belə bilməyəcək. Odur ki, rəsmi Bakı öz vətəndaşları ilə - Qarabağ erməniləri ilə birbaşa danışıqlara başlaya bilər...

YENİ MÜSAVAT
N 75 (6103) 10 aprel 2015



## MTN daha bir antiteror əməliyyatı keçirdi

### Həbs edilənlər "Təhriki Taliban" və "Tayfatul Mansura" adlı silahlı dəstənin fəaliyyətində iştirak ediblər

**Milli Təhlükəsizlik Nazirliyi (MTN) tərəfindən həyata keçirilmiş antiterror əməliyyatları nəticəsində Azərbaycan qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmək və digər hüquqazidd əməllərinin törədilməsinə görə Azərbaycan vətəndaşları - Qaragözov Aydın Nadir oğlu, Ramizzadə Hafiz Ruslan oğlu, Bəkirov Telman Əvəz oğlu, Tahirov Mübariz Əmən oğlu, Qasımov Cavid Rabil oğlu, Vəlizadə Fəzail Etibar oğlu və Məmmədov Tural Fazil oğlu şübhəli şəxs qismində tutulub.**

MTN İctimai Əlaqələr İdarəsindən APA-ya verilən məlumata görə, faktlarla bağlı nazirliyin İstintaq Baş İdarəsi tərəfindən AR Cinayət Məcəlləsinin 12.1, 279.1-ci və 283-1.3-cü maddələri ilə cinayət işləri başlanıb. Qaragözov Aydın Nadir oğlu, Ramizzadə Hafiz Ruslan oğlu, Bəkirov Telman Əvəz oğlu, Tahirov Mübariz Əmən oğlu, Qasımov Cavid Rabil oğlu, Vəlizadə Fəzail Etibar oğlu və Məmmədov Tural Fazil oğlu təqsirləndirilən şəxs qismində cəlb olunaraq məhkəmənin qərarları ilə barələrində həbs-qətimkan tədbiri seçilib.

Müəyyən edilib ki, Ramizzadə Hafiz Ruslan oğlu və Qaragözov Aydın Nadir oğlu Pakistan İslam Respublikasının ərazisində həmin dövlətin və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak ediblər. Belə ki, Hafiz Ramizzadə 2007-2012-ci illərdə, Aydın Qaragözov isə 2011-2013-cü illərdə Pakistanın Vəziristan vilayətində «Təhriki Taliban» adlı qanunsuz silahlı birləşmənin tabeliyindəki «Tayfatul Mansura» adlı silahlı dəstənin fəaliyyətində iştirak ediblər.

Təqsirləndirilən digər şəxslər - Bəkirov Telman Əvəz oğlu, Tahirov Mübariz Əmən oğlu, Qasımov Cavid Rabil oğlu, Vəlizadə Fəzail Etibar oğlu və Məmmədov Tural Fəzail oğlu 2014-2015-ci illər ərzində müxtəlif vaxtlarda Suriya Ərəb Respublikasının və İraq Respublikasının ərazisində həmin dövlətlərin, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan ayrı-ayrı silahlı birləşmələrin, o cümlədən "İŞİD" terrorçu təşkilatının fəaliyyətində iştirak ediblər.

Cinayət işləri üzrə bütün halların araşdırılması, bu hüquqazidd əməllərin digər iştirakçılarının müəyyənləşdirilməsi istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Məlumat üçün bir daha bildirilir ki, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə əməllərinin törədilməsinə görə qanunvericiliklə müəyyən edilmiş cəza müddətləri artırılaraq 20 il və ya ömürlük azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

## Putin İrəvana "soyqırım"ı anmağa getməyə bilər



**Rusiya prezidenti Vladimir Putinin aprelin 24-də "erməni soyqırımı"nın 100 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün İrəvana gedib-getməməsi məsələsi hazırda müzakirə olunur.**

Həmin gün Türkiyədə Çanaqqala döyüşünün 100 illiyi təntənəli şəkildə qeyd ediləcək. Rusiya bu tədbirlərdə ən yüksək səviyyədə təmsil olunacaq.

"Rusiya Çanaqqala zəfərinin 100 illiyi tədbirlərində yüksək səviyyədə təmsil olunacaq. Bu, bizim türkiyəli həmkarlarımızla əvvəlcədən planlaşdırılıb" - deyə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.

Virtualaz.org saytı xəbər verir ki, D.Peskov V.Putinin İrəvana gedib-getməyəcəyi barədəki sualları da cavablandırıb. Peskov deyib ki, bu məsələ hələ də müzakirə olunur.

"Biz bu barədə əlavə məlumat verəcəyik" - deyə mətbuat katibi əlavə edib.

Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan aprelin 8-də bəyan etmişdi ki, İrəvanda Putinin səfərini gözləyirlər.

# Türkiyəyə ASALA terror təhdidinin pərdəarxası - Azərbaycan da hədəfdə

### ASALA erməni terror təşkilatının qardaş ölkəni məhz indi hədəfə alması təkcə Çanaqqala mərasimlərini pozmağa hesablanmayıb; 24 apreldə dünyaya iki mesaj veriləcək...

**Erməni terror təşkilatlarından olan ASALA-nın ("Ermənistanın azadlığı üçün gizli erməni ordusu") bir neçə gün öncə Türkiyənin ünvanına hədələyici bəyanatla çıxış etdiyi barədə məlumat vermişdik. Bəyanatda qardaş ölkədə aprelin 24-nə təyin edilmiş Çanaqqala törənləri ilə bağlı təhdidlər və xəbərdarlıqlar yer almışdı.**




**Bəyanatda deyilirdi:** "Aprelin 24-nə Türkiyə tərəfindən, o cümlədən Türkiyə prezidenti Ərdoğan tərəfindən bayram mərasimlərinin təşkilini həm sivil bəşəriyyətə, həm də həlak olan 1.5 milyon erməninin ruhuna təhqir hesab edirik. Biz bütün azad düşüncəli xalqları Ərdoğanın bu təxribatına qarşı çıxmağa çağırırıq. Əgər Ərdoğanın bayramı baş tutsa, ASALA Türkiyəyə qarşı hərbi əməliyyatları bərpa edəcək".

ASALA Türkiyəyə gedəcək qonaqların da hədəf alına biləcəyinə işarə vurmuşdu. Söz yox ki, bu hədələr artıq ünvanına çatıb. Hər halda, kim bilməsə də, qardaş ölkədə, Azərbaycanın özündə yaxşı bilirlər ki, dünyada çoxdan terror təşkilatı kimi tanınan ASALA ötən əsrin 70-80-ci illərində xaricdəki Türkiyə səfirliklərinə və diplomatlarına xain silahlı hücumlar təşkil eləməklə yüzlərlə günahsız insanı, əsasən də diplomatları, onların ailə üzvlərini qətlə yetirib.

Ancaq Türkiyənin özündə ASALA analoji aktları demək olar, törədə bilməyib, gücü çatmayıb. Son vaxtlar qardaş ölkəyə edilən terror hücumları fonunda ASALA-nın təzədən "zühur etməsi" bu xüsusda qətiyyən təsadüf sayıla bilməz. Böyük ehtimalla, ASALA öz əlindən bir şey gəlməsə də, qardaş ölkəyə qarşı özünü göstərməkdə olan ümumi "terror xoru"na qoşulub onun haqqında dünyada güvənli olmayan ölkə imici yaratmaq, bununla da Çanaqqala zəfərinin 100 illiyi tədbirinə qatılmaq istəyən yüksək səviyyəli qonaqları səfərdən çəkindirməyi hədəfi seçib.

Sözsüz ki, Türkiyə rəhbərliyi bunu bizdən də yaxşı anlayır. Dünən prezident Rəcəb Tayyib Ərdoğanın ASALA təhdidləri bağlı açıqlaması qənaətimizi təsdiqləyir. Ona da şübhə yox ki, ASALA terror hədəsi ilə çıxış etməsəydi belə, qardaş ölkə təntənəli Çanaqqala mərasimlərinin təhlükəsizliyini təmin eləmək üçün bütün tədbirləri görəcəkdi. Çünki bu, həm də Türkiyənin beynəlxalq imici məsələsidir.

Qarşıdan isə həm də bu ilin noyabrında, Antalyada keçiriləcək "Böyük iyirmilik" (G-20) dövlətləri başçılarının Türkiyə sammiti gəlir. Ankara ilk dəfə belə mötəbər toplantıya ev sahibliyi edəcək. Aydındır ki, çoxsaylı ali qonaqların təhlükəsizliyinə qarant verməyən bir dövlətdə belə mühüm tədbirin reallaşması sual altına düşə bilər. ASALA və onun arxasına dayanan beynəlxalq məkrli güclərin əsas məqsədlərindən biri də budur.

Odur ki, kimsədə quşqu qalmasın ki, rəsmi Ankara heç vəchlə Türkiyə haqda terror hörgütlərinin yuva saldığı ölkə imici yaranmasına imkan verməyəcək. Bu təhlükəni önləmək üçün qardaş dövlətin bütün zəruri resursları və təcrübəsi var. Prezident Rəcəb Tayyib Ərdoğanın ASALA ilə bağlı söylədiyi "Belə hədələrin arxasındakı qüvvələr tezliklə bilinəcək" xəbərdarlığı da təhlükələrin ciddiyə alındığının, "qarşıya atılan əlcəyin" götürüldüyünün, terror planlarını beləyindəcə boğacaqlarının anonsudur.

Prezidentin işarə elədiyi qüvvələrin arealını təxmin eləmək isə çətin deyil. Xəritəyə və yaxın tarixə nəzər salsaq, hər şey aydın olar...

Bu yerdə haşiyə çıxıb xatırladaq ki, indiyədək 22-yə yaxın ölkə, o cümlədən Vatikan, Avropa Parlamenti və ABŞ-ın bir sıra ştatları erməni təbliğat maşınının felinə uyaraq və erməni lobbisinin paraları hesabına saxta soyqırımı tanıyıb. Ancaq bu, heç də o demək deyil ki, onların hamısı 24 apreldə İrəvan törəninə yüksək səviyyədə qatılacaq.

Daha çox yəqin ki, Türkiyə dövlətinə, onun regiondakı, dünyadakı artan roluna və statusuna qısqanclıqla yanaşan, bu rolu həzm edə bilməyən və ya tarixən onunla ədavətdə olmuş ölkələrin *(Fransa, Rusiya, Yunanıstan, Cənubi Kipr)* başçıları ən yüksək səviyyədə təmsil olunacaqlar. Necə ki, mötərizədə sadalanan ölkələrin rəhbərləri *(Putin, Olland və başqaları)* artıq razılıqlarını veriblər.

İstisna deyil ki, erməni lobbisinin güclü odluğu Cənubi Amerika dövlətlərindən də *(Uruqvay, Venesuela)* hansısa prezident İrəvandakı mərasimə qatılsın. Ancaq məsələn, saxta genosidi səhvən tanımış dövlətlərdən Kanadanın, Almaniyanın, İtaliyanın, Vatikanın (Roma papası), Litvanın, habelə Avropa Parlamentinin rəhbərlərinin 24 apreldə İrəvanda olmayacaqları dəqiqdir.

Həmçinin "soyqırımı" rəsmən tanımayan ABŞ dövlətinin başçısı Barak Obama, Böyük Britaniyanın baş naziri Devid Kemeron, hətta Türkiyə ilə hazırda münasibətləri isti olmayan İsrailin prezidenti Reuven Rivlin və baş naziri Binyamin Netanyahu İrəvana getməyəcəklər. Bununla da əslində tarixdə "erməni soyqırımı" adlı hadisənin baş vermədiyini bir daha nümayiş etdirmiş olacaqlar.

Bu, İrəvandakı 24 aprel törəni ilə bağlı dünyaya veriləcək ən güclü mesaj olacaq. Həmin gün bəşəriyyətə ikinci bir mesaj Türkiyədən, Çanaqqaladan veriləcək. O da Ərdoğanın söylədiyi kimi, sülh mesajı olacaq.

Beləcə, 24 apreldə xeyirlə şər növbəti dəfə üz-üzə gələcək. Bu dəfə virtual məkanda. Məğlubun hansı tərəf olduğu indidən də görünür.

❑ Siyasət şöbəsi




## "Sərfəli təklif olsa, TANAP-dakı hissələrimizi sata bilərik"

**Türkiyənin energetika naziri Taner Yıldız dünən jurnalistlərlə söhbətində İranın TANAP qaz kəmərində paya malik olmağa maraq göstərməsinə münasibət bildirib.**

Virtualaz.org saytı "Habertürk"ə istinadən xəbər verir ki, nazir SOCAR prezidenti Rövnəq Abdullayevin İranın TANAP-dan pay almaq istədiyinə dair açıqlamasını şərh edərkən deyib: "Sərfəli kommersiya şərtlərinin yaranması halında TANAP-da həm bizim hissələrimizin, həm də SOCAR-ın hissələrinin strateji iş birliyi də nəzərə alınmaqla satılması mümkün ola bilər".

Taner Yıldız bildirib ki, hazırda TANAP-a müxtəlif ölkələrdən təkliflər var. Bu təkliflər həm kommersiya, həm strateji baxımdan araşdırılandan sonra ən doğru nəticəyə gələnəcək.

Belə görünür ki, Taner Yıldız Türkiyənin və Azərbaycanın TANAP-dakı səhmlərinin bir hissəsinin satışının mümkünlüyü haqda danışıb. Lakin "bir hissəsini" sözünü ya jurnalistlər qarşısında danışanda tez-tez səhvlər buraxan Taner Yıldız işlətməyib, ya da "Habertürk" ixtisar edib. Çünki nə Türkiyənin, nə də Azərbaycanın TANAP-dakı hissələrinin hamısının kimsəə satışından söhbət gedə bilməz.

YENİ MÜSAVAT
N 75 (6103) 10 aprel 2015

# İqtidar-müxalifət dialoqu ilə bağlı dəyirmi masa

**Uzun illər qadın azadlığı və hüquqları uğrunda mübarizə aparılıb. Hansı ki o dövrlərdə qadınlar ən ali insan hüquqlarından istifadə edə bilməyiblər. Seçib-seçilmək *(burada təkcə dövlətin seçkili orqanlarından söhbət getmir, öz həyat yoldaşını, yaşayışını və s.)* hüququndan məhrum olublar. İndi isə qadın problemlərinə münasibət dəyişib. XX əsrin ikinci yarısından-1970-1980-ci illərdə qadın hərəkatı qadın azadlığını, “inkişafa inteqrasiyanı” hədəf götürmüşdüsə, 1990-cı illərdən artıq qadınların dövlət idarəçiliyinə, siyasətə inteqrasiyasından bəhs edilir.**



**Səidə Hüseynova**
**Ümid Partiyası qadınlar təşkilatının sədri**

# “Hüquq bərabərliyi təkcə baletdədir...”

“Qadın hüquqları” termini daha çox “ gender bərabərliyi” adlandırılır. Dövlət rəhbərinin qadın olması nadir hal deyil. “Qadınların işi təkcə uşaqlara baxmaq, mətbəxdə olmaqdır” fikri tamamilə iflasa uğrasa da, bu stereotip hələ kökündən sınmayıb. Bu üzdən **“SİYASƏTDƏ QADINLAR LAZIMDIRMI”** sualına insanlar fərqli münasibət bildirir. Lakin cavablar müxtəlif olsa da, həqiqət birdir: qadın və kişilərin iqtisadi statusunda dərin fərqlər, gender uçurumu mövcuddur. Qadınların iqtisadiyyata inteqrasiyası prosesi kişilərə nisbətən daha əlverişsiz şərtlərlə mümkün olur. Sosial həyatda qadınların iştirakını məhdudlaşdıran, idarəetmə və dövlət əhəmiyyətli qərarların qəbul edilməsi prosesində onların məhdud təmsilçiliyi və professional karyera statusunun son dərəcə aşağı olması faktı inkaredilməzdir.

Azərbaycanda dünyanın hər yerində olduğu kimi gender bərabərliyi təbliğ və təşviq olunur. Dövlət qadın hüquqlarının qorunması üzrə demək olar ki, bütün mühüm beynəlxalq sənədlərə-1992-ci ildə BMT-nin “Qadınların siyasi hüquqları” üzrə Konvensiyasına, 1995-ci ildə “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması” üzrə Konvensiyasına, 2000-ci ildə isə onun Əlavə Protokoluna qoşulub. Mövcud qanunlara əsasən, Azərbaycan qadınları seçkili orqanlara seçmək, seçilmək, hökumətin siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək, dövlət vəzifələri tutmaq, habelə dövlət idarəçiliyinin bütün səviyyələrində bütün dövlət funksiyalarını həyata keçirmək, ölkənin ictimai və siyasi problemləri ilə məşğul olmaq, qeyri-hökumət təşkilatlarının və assosiasiyaların fəaliyyətində iştirak etmək hüququna malikdirlər.

Qadınların verilmiş hüquqlardan nə dərəcədə yararlanması ictimaiyyətə açıqlanan rəsmi statistik rəqəmlərdən bəlli olur. Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 27,7, sahibkarlar arasında 19 faizdir. 1990-cı ildə bütün deputatların 4,3 faizini, 2000-ci ildə 10,7 faizini qadınlar təşkil edirdisə, bu gün ölkə parlamentində qadınların xüsusi çəkisi 15,6 % çatıb *( 20 nəfərdir)*. Halbuki dünyanın 20 aparıcı ölkələrində qadınların təmsilçiliyi 25% həddi aşıb, bəzilərində, məsələn, İsveçdə tən yarıya çatıb. Biz isə 15,6 %-lə öyünürük!

Bələdiyyə üzvü seçilmiş qadınların sayı əvvəlki seçkilərlə müqayisədə artaraq 35 faiz olub. Azərbaycanın diplomatik korpusunda 11 faiz, rayon başçıları arasında 2 faiz, nazirliklərdə 6,2 faiz, elmi tədqiqatlarla məşğul olan aspirantlar arasında 35 faiz, elmlər namizədlərinin 44, elmlər doktorlarının isə yalnız 7 faizi qadınlardır. Sürücülük vəsiqəsi alan qadınların sayı 2005-ci ildə 2285 nəfər idisə 2015-ci ilin əvvəlinə 10278 nəfər olub.

Bu rəqəmlər ildən ilə, günbəgün artsa belə, kim iddia edə bilər ki, gender problemləri həll edilib?!

Hakimiyyətdə vəzifə bölgüsünə baxdıqda demək olmaz ki, “qadınların hakimiyyəti” və ya “qadınlar hakimiyyətdədir”. Faktiki bu problem kişilərin xeyrinə formal olaraq həll edilmiş görünür. Hər bir ayrıca götürülmüş hakimiyyət orqanında və ya hakimiyyət qolu daxilində gender paylanması sanki “piramidadır”: harada çox hakimiyyət varsa, orada qadınlar azdır. Bu, təkcə hakimiyyətin ali eşelonuna deyil, həm də aşağı səviyyələrinə yayılıb təsir edir. Şəhər və rayon İcra hakimiyyətlərində icra başçısı müavini, məktəb və bağça müdirləri qadındır. Siyasətçi qadınlar arasında belə bir zarafat var: **“Qadının başlıca vəzifəsi- kişinin müavini olmaqdır”**. Ya da siyasətçilərdən birinin dediyi kimi: **“Hüquq bərabərliyi təkcə baletdədir. Orada kişi və qadın partiyaları var...”**

Məncə, bərabərliyin təzahürü Almaniyada tətbiq edildiyi kimi kvota sistemi olmalıdır. Alman seçkili orqanlarında kişi və qadınlar üçün konkret kvota müəyyənləşdirilib. Məsələn, Xristian Demokrat İttifaqı Partiyasından 30% yer qadınlar tutmalıdır, Yaşıllar Partiyasından isə 50%. Hətta kvota bütün yerli özünüidarəetmə orqanlarında mövcuddur.

Qadınlar hansı keyfiyyətə malik olmalıdırlar ki, mübaliğəsiz siyasətdə yer tuta bilsinlər?

Siyasətdə bərabər imkanların tərəfdarları qadına siyasətdə gərək olan zəruri keyfiyyətləri sadalayırlar: ağıl, dərrakə, məsuliyyət, ehtiyatlılıq, reallıq, xeyirxahlıq, intuisiya və humanistlik, sülhsevərlik, çeviklik və diplomatlıq xas olmalıdır. Lakin bunu da vurğulayırlar ki, real hakimiyyətdə olan qadınlar siyasəti müəyyənləşdirmirlər.

Qanunlar və beynəlxalq tələblər fonunda qadınların ictimai-siyasi, iqtisadi həyatda dövlət əhəmiyyətli qərarların qəbul edilməsində iştirak səviyyəsinin aşağı olması təkzibolunmaz faktdır.

Beynəlxalq Əmək Təşkilatının məlumatına görə, ümumilikdə bütün dünya üzrə qadınların 14 %-i inzibati, 6%-dən azı isə ali rəhbər vəzifələri tuturlar.

Qadınların siyasətdə təmsil olunmasını əks etdirən beynəlxalq statistikaya görə, Azərbaycan dünyanın 187 ölkəsi arasında 87-ci yerdə durur. Bu, regionda nisbətən yüksək göstəricidir. Məsələn, Rusiya 100-cü, Ermənistan isə 123-cü yerdədir. Parlamentdə, regionların rəhbərliyində, hökumət üzvləri, bələdiyyə orqanları rəhbərləri arasında qadınların siyasi təmsil olunması səviyyəsinə görə Azərbaycan dünyanın ən geridə qalmış ölkələri ilə bir sırada durur. Azərbaycanda bunu qadınların siyasətdə iştirak arzusunun aşağı və rəhbərlik təcrübəsinin az olması ilə əlaqələndirirlər.

Hətta Milli Məclisdə bu fikir səslənib ki, **“hakim partiya istisna olmaqla, digər partiyalarda qadınların rolu və yeri, onların parlamentdə təmsilçiliyi nəzərə çarpmır. Bu da onlara qarşı olan həmin diskriminasiyanın bir növüdür”**.

Deməli, qadın deputatların sayının ilbəil artması ümumilikdə problemin aradan qaldırılması demək deyil.

Dünyanın əksər ölkələrində parlamentlərdə qadınların təmsilçiliyi cüzi olsa da Skandinaviya ölkələri qadın parlament üzvlərinin sayına görə *(deputatların 33%-dən 40%-dək)* dünyada liderdir. Bu ölkələrdə qadınlar təxmini həmin səviyyədə bələdiyyə və icra orqanlarında təmsil olunurlar. Avropa Parlamentinə Avropa İttifaqının 12 ölkəsindən 28 % qadın deputat seçilib.

Qadınların parlament fəaliyyətində iştirakçılığını müəyyənləşdirən Parlamentlərarası İttifaqın təsnifatında Filippin, Barbados, Zambiya irəlidədir.

Əslində qadının özü üçün deyil, bütövlükdə cəmiyyət üçün qadınların dövlət idarəçiliyində iştirak etməsi son dərəcədə olduqca vacibdir. Təcrübə göstərir ki, ekologiya, uşaqların müdafiəsi, sağlamlıq, səhiyyə, əhalinin sosial müdafiəsi və s. kişilərin əhatə maraqlarından kənarda qalan məsələləri qadınlar ön planda saxlayırlar.

Qadının siyasətdə fəal olması- kifayət qədər müsbət, pozitiv hal olsa da, son dərəcə mürəkkəb və ziddiyyətlidir. Politoloqlar və sosioloqlar demək olar ki, onlarla maraqlanmır. Siyasətdə qadınlara ekspert yardımı və məqsədyönlü kömək yoxdur. Cəmiyyətdə konkret istinad ediləcək bir üsul, üstünlük veriləcək qaydalar yoxdur. Kişilərdə olduğu qədər qadınlara kütləvi dəstək də yox dərəcəsindədir.

Avropa təcrübəsi göstərir ki, dövlətin və cəmiyyətin tərəqqisində siyasi partiyaların rolu çox böyükdür. Siyasi partiya davamlı struktura malik olan, daimi siyasi fəaliyyət göstərən, üzvlərinin siyasi iradəsini təmsil edən, dövlətin siyasi kursunun müəyyənləşməsini və onu həyata keçirən orqanların işində iştirak edilməsini əsas vəzifə hesab edən müstəqil ictimai birlikdir. Siyasi partiyalar siyasi Akademiya sistemi əsasında kadr hazırlığını həyata keçirə bilər. Bu mənada Ümid Partiyasının həyata keçirdiyi təcrübədən digər partiyalar yararlana bilər.

Xatırladım ki, Azərbaycanda 54 qeydiyyatdan keçən siyasi partiya var. Say çoxluğuna baxmayaraq, bu gün Azərbaycanda strukturlaşan və ictimai-siyasi proseslərə təsir imkanları ilə seçilə bilən 3-4 partiya var. Bunlardan biri də Ümid Partiyasıdır. Partiyamız həm də ailə, qadın, uşaq problemləri üzrə mükəmməl proqrama malikdir. Eyni zamanda sıralarımızda dövlət idarəçiliyində, yüksək vəzifələrdə çalışmağa qadir və qabil qadınların sayı da kifayət qədərdir. Məsələ bundadır ki, qadınların ölkənin siyasi həyatında aktiv iştirak etməməsi onların problemi deyil. Qadınların siyasətə gəlməsi üçün real şərait yaradılmalıdır. Bunun üçün ölkənin demokratikləşməsi uğrunda mübarizə aparan siyasi o partiyalar da çalışmalıdır. Bu istiqamətdə Ümid Partiyasının layihələri həyata keçirir. Son bir ildə partiya sıralarında və rəhbərliyində qadınların sayının artması, müsbət nəticələrin göstəricisidir.



**Ümid Partiyasının mərkəzi qərargahında partiyanın ictimaiyyətlə əlaqələr və xaricdə yaşayan soydaşlarla iş şöbəsinin təşkilatçılığı ilə iqtidar-müxalifət dialoquna həsr olunmuş dəyirmi masa keçirilib. Mövzu ilə bağlı şöbənin müdiri Mübariz Maqsudov məruzə edib. Sonra mövzu ətrafında çıxışlar olub və təkliflər verilib.**



Tədbir iştirakçıları qeyd edib ki, dünyada və regionda baş verən siyasi proseslər fonunda iqtidar-müxalifət dialoqu arzu olunan və əhəmiyyətlidir. Aprel ayında üçüncü iqtidar-müxalifət dialoqunun olacağı və tərəflərin təklif etdiyi konkret məsələlər ətrafında müzakirələr aparılacağı gözlənilir. Milli mənafe və dövlətçilik baxımından bundan əvvəlki dialoqlarda iştirak etməyən partiyaların iştirakı da əhəmiyyətli olardı.



YENİ MÜSAVAT
N 75 (6103) 10 aprel 2015



# Sinxron üzgüçülüyü mən yaza bilərəm

Zamin HACI
zaminhaci@mail.ru

**Avropa Oyunları münasibətilə Atıcılıq Mərkəzi qayırılmışdır, o mərkəzin ətrafında hasar çəkib gizlətmək mümkün olmayan yetimlərin evləri isə buldozerlə uçurulmuşdur. "Yeni Müsavat"ın reportyoru Emil Salamoğlu təzəlikcə o ərazidən maraqlı çəkilişlər eləmişdi, mən saytda baxdım, zəhmətkeşlərimizin siyasi baxımdan nə qədər savadsız olmasını görüb dəhşətə gəldim.**

Təsəvvür eləyin, bu adamlar evlərinin uçurulmasına etiraz edirlər! Halbuki Avropa Oyunlarına gələcək qonaqlarımız üçün ev tikib verməli idilər. Eyni zamanda Atıcılıq Mərkəzinin tikintisi zamanı ətrafdakı sakinləri düzgün nişan alıb vurubsa, buna görə hökumətə minnətdar olmalıyıq. Meşqdə nə qədər ev yıxılsa, turnir zamanı o qədər az stadion çökər - bunu vaxtilə Suvorov Zakir müəllimdən plagiat edibdir.

Ümumiyyətlə, dünyada təsir əks-təsirə bərabərdir. Sən seçkilər zamanı məntəqəyə getməyə ərinirsənsə, həmin gün saxta təyin edilən adamlar da sabah gəlib sənin evini buldozerlə qayırır. AzTV həmişə Almaniyanın dağılması haqda reportajlar verirdi, son günlər telekanalizasiyanın özündə çoxlu ixtisarlar aparılması xəbəri gəlir. Mən almanların yerinə olsam indi "AzTV dağılır!" reportajı qayıraram. Hərçənd, almanlar tarixən zarafat qanan olmayıbdır. Çox ciddi camaatdır, bəzən bu ciddilik başqa xalqlar üçün təhlükəli həddə çatmışdır.

AzTV-nin dağılmasında başqa ağır işlərə girişməsinin də təsiri var. Misal üçün, orda bir İbrahim Məmmədov adlı diktor var, həmişə yapistlərə qulluq edən söhbətlərində Yaponiyadan da danışardı. Onun "Uzağa getməyək, götürək elə Yaponiyanı" söhbəti el arasında lətifə kimi dolaşır. Böyük ehtimalla AzTV Yaponiyani götürərkən "qrıja" olmuşdur. Düzü, çoxdan baxmıram, bəlkə də indi diktor ayrı dövlətlərin altına girir.

Avropa Oyunlarına hazırlıq tədbirləri zamanı Mətbuat Şurasının əbədi, daimi, dönməz müdiri Əflatun Amaşov yoldaş da bəzi tarixi sözlər deyibdir, gəlin onları birgə oxuyaq: "Azərbaycanın idman jurnalistləri I Avropa Olimpiya Oyunlarında 20 idman növünün hamısından yaza biləcək qədər ixtisaslı deyillər. Jurnalistlərimiz ancaq öz ölkəmizdə olan idman növlərindən yaza bilirlər. Ona görə də, biz bəzi təşkilatlardan kömək istəməliyik".

Bah-bah... Jurnalistləri tutub dama salıblar, bu şəraitdə mətbuat idarəsinin şefinin dərdi gör nədir. Əgər reinkarnasiya doğrudan da varsa tam əsasla deyə bilərik ki, Həsən bəy Zərdabinin ruhu hal-hazırda Əflatun müəllimin cismində çırpınmaqdadır, xalq yolunda fəda olmaqdadır.

Eyni zamanda, adam fikirləşir ki, görəsən AO-da *(qabaqlar bu qısaltma Azərbaycan Ordusunu bildirirdi, indən belə Avropa Oyunları deməkdir, ordu zəhmət çəksin özünə təzə abbreviatura tapsın)* ölkəmizdə olmayan hansı idman növləri üzrə yarış olacaqdır? Məsələn, fil yarışları, meymun oynatmaq, yağlı güləş, qara kürüdə sürüşmə, mətbuatın anasını ağlatma və sairə idman növləri olsa bunlardan yazmağımız çətinləşərdi. Mən siyahıya baxdım, elə bir çətin növ-zad yoxdur, hamısı arvad voleybolu, güləşmək, şillə-təpik atmaq, qaçqınçılıq və sairə kimi asan bildiyimiz oyunlardır. Bunlardan yazmaq çətin olmaz. Yalnız sinxron üzgüçülükdən yazan adam çətin olsun. Suyun içində qəşəng qızlar təpəsi üstdə dayanıb ayaqlarını oynadan idmanı deyirəm. Ona baxıb şərh eləmək insafən çox çətindir. Məncə bu sahə üzrə ixtisaslı jurnalist kadrlar hazırlamaq lazımdır. Mətbuat Şurası sinxron üzgüçülük jurnalistikası üzrə təlim kursları açsa mən özüm də dərs almağa hazıram.

Belə baxanda ən yaxşısı budur: zənənlər suda oynaşırlar, sən də baxıb yazırsan. Yoxsa kimsə türmədə doğdu, əlli minlik "Prado" sürən polis serjantı qomu on qəpiyə göy satan arvadı təpiklədi, ay nə bilim, evi uçurdular... Bu da iş-peşədir? Belə jurnalistikanı Allah kəssin.

Elə o atıcılıqda vurulan yetimlərdən yazan jurnalist yoldaşı da Əflatun müəllimin adından sinxron jurnalistika kurslarına dəvət edirəm. Gəl, qardaş, sən də bir gün gör...



# "Məni çağırıb şərt qoydular ki, ya o zavoda gedəcəksən, ya da türməyə"

## Vahid Əhmədov: "Heydər Əliyev qayıtdı Kamran Bağırova dedi ki, Vahiddən muğayat olun, o, bizə lazım olacaq

**Qlobal iqtisadi böhran, neftin dəyərdən düşməsinin məntiqi nəticəsi olaraq əksər ölkələrin milli valyutalarının devalvasiyası bu dəfə Azərbaycanı da öz ağuşuna aldı. Bu gün ölkə insanının rahatlığını pozan manatın getdikcə dəyərsizləşməsi, güzəranın ağırlaşması, bazarda qiymətlərin sürətlə artması nəticəsində perspektivin daha qaranlıq görünməsidir.**

*Azərbaycanda iqtisadi-siyasi şərhlərinə, təhlillərinə ciddi etimad bəslənilən deputat, Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədovla vəziyyəti geniş şəkildə dəyərləndirmək üçün istiqlalçı millət vəkilini "Yeni Müsavat"a dəvət etdik. Baş redaktor Rauf Arifoğlu, baş direktor Ələsgər Süleymanov, redaktorlardan Zahid Səfəroğlu, Nazim Sabiroğlu və bu sətirlərin müəllifinin iştirakı ilə keçən söhbətimizi sizə təqdim edirik. Bu bölümdə V.Əhmədov zavod direktoru olarkən başına gələn hadisələri və mərhum prezident Heydər Əliyevlə ilginc görüş-söhbətlərini də xatırladı.*

***(əvvəli ötən sayımızda)***

*Bank sisteminə yeni gələn təcrübəli gənclərin korrupsiya və rüşvətə daha az meylli olduğunu deyən müsahibimizə növbəti sual:*

***- Vahid bəy, siz bunları indiki bank sistemi ilə müqayisədə deyirsiniz?***

- Yox, Elman Rüstəmov barədə mənim fikrim yüksəkdir. Nə mənada? Elman Rüstəmov mütəxəssis kimi çox ixtisaslıdır, öz sahəsini həddən artıq gözəl bilir. O, bizim vaxtımızda işləyirdi. Mən baş nazirin 1-ci müavini olanda Elman Rüstəmov Milli Bankın İdarə Heyəti sədrinin müavini idi, Cavanşir Abdullayev sədr idi, o da müavin. Ondan qabaq da Prezident Aparatında işləyirdi. Makroiqtisadi stabilliyi, makroiqtisadi göstəriciləri bilən bəlkə də bir nömrəli şəxsdir. Biz onun bütün çıxışlarına, hərəkətlərinə diqqət veririk. 2008-ci ildə dünyada böhran gedəndə Azərbaycanda böhranın qarşısını alanlardan biri Mərkəzi Bank, onun atdığı addımlar oldu. Müdaxilə etmədilər, bankları müəyyən səviyyədə saxladılar ki, banklarda böhran yaranmasın. Yəni o, ixtisaslı kadr kimi buna qadirdi... Amma burda bir şeyi nəzərə almaq lazımdır. Hər bir pulun arxasında əmlak, əmtəə olmalıdır. Əmtəə olmasa, o, kağızdır. Bizdə də pulun arxasındakı əmtəə neftdir. Neftlə bağlı belə bir vəziyyət yarandığı üçün Azərbaycan indiki situasiya ilə üzləşib. Bayaq dediyim kimi, faktiki manat devalvasiyaya uğramır, neft uğrayır. Neftin qiyməti dəyişdikcə manatın da qiyməti dəyişir.

***- Avropa Oyunlarından bir cümlə dediniz. Bu tədbirin indiki anda iqtisadiyyata faydası olacaq, yoxsa iqtisadiyyatı daha da ayağından aşağı dartacaq?***

- Yox, iqtisadiyyata faydasından söhbət gedə bilmir. Hamı bilir ki, Avropa Oyunları müəyyən qədər xərc tələb edən bir sahədir.

***- Doğrudanmı bu oyunlar üçün 8 milyard ayrılıb?***

- Kimsə 8 rəqəmini eşidib, onu milyard olaraq təqdim edib. Dövlət büdcəsində 8 milyardlıq investisiya xərci yoxdur. Büdcədə investisiya xərci cəmi 6 milyarddır. Bu, hardan 8 milyarda çıxdı? İnvestisiya xərclərində əsas iki layihədir: biri Avropa Oyunlarıdır, ikincisi də TANAP, TAP layihəsi. Biz artıq vəsait ayırmamışıq, hardan xərcləyirlər, kim xərcləyir, mən onu deyə bilmərəm. Amma 8 milyard söhbəti həqiqət deyil. Ümumiyyətlə, dövlət büdcəsindən bu sahəyə 1,2 milyard vəsait ayrılıb.

***- Adətən bu cür böyük yarışlar keçirilən ölkələrdə, şəhərlərdə canlanma yaranır. O baxımdan, turistlərin ölkəyə cəlb olunması, onların burda para xərcləməsi ilə bağlı perspektiv hesablanıbmı, gözlənti varmı?***

- Açığını danışaq, bu, daha çox siyasi məsələdir. Azərbaycanı dünyaya tanıtmaq, Qarabağ məsələsində müəyyən dönüş yaratmaq üçün buna gedilib. 60-a yaxın dövlət burda iştirak edəcək, dövlət başçıları, müəyyən səviyyəli insanlar gələcək, Azərbaycanla tanış olacaqlar, ölkə həyatına bələd olacaqlar. Bu gün danışıqlar gedir, tanıtımla bağlı müəyyən videoçarxlar çəkilir, dünyaya yayılır. Sizə açığını deyim, əgər bilinsəydi ki, neftin qiymətində, ümumiyyətlə, dünya iqtisadiyyatında belə bir problem yaranacaq, bəlkə də heç buna gedilməzdi. Mən şəxsən neftin qiymətində belə bir ciddi problemin olacağını gözləmirdim.

***- Kimsə gözləmirdi. Böyük ehtimalla bu, Rusiya amilinə görədir...***

- Bəli. Neftin qiymətinin kəskin düşməsi birbaşa Rusiya ilə bağlıdır. Nə qədər ki, Rusiya-Ukrayna məsələləri həll olunmayacaq, bu proses davam edəcək. Mən bu il bu prosesin aşağı enməsini gözləmirəm, ilin axırına kimi davam edəcək. Gedən proseslər onu göstərir ki, Rusiya da öz əməlindən əl çəkmək istəmir, imperiya ambisiyaları hələ yeni-yeni əmələ gəlir. Bir az da fərəhləniblər, həvəsə gəliblər ki, Krımı ilhaq etdilər, indi də Donetski, Luqanskı ala bilərlər və s. Amma mən inanmıram. Bu proses hardasa qurtarmalıdır.

***- Vahid bəy, bizimlə müqayisədə Rusiyanın neftdən asılılığı nə dərəcədə güclü və ya zəifdir?***

- Eyni səviyyədədir. Amma Rusiyada digər sahələr də var, onu yaddan çıxartmaq olmaz. Maşınqayırması, gözəl metallurgiyası, yaxşı kənd təsərrüfatı var. Rusiya ildə elə taxıl ixracından böyük miqdarda vəsait əldə edir. 1 milyard tona yaxın taxıl istehsal edir. Düzdür, neftdən çox asılıdır, onun da vəziyyəti yaxşı deyil.

***- Amma vəziyyəti daxildə stabilləşdirə bilirlər...***

- Müəyyən qədər stabilləşdirə biliblər, amma bu proses davam etsə, yenə də rubl devalvasiyaya uğrayacaq.

***- Fenomen rusların psixologiyası ilə bağlıdır, onlar blokada görmüş adamlardır, bəlkə buna görədir?***

- Blokada görmüş adamdırlar, bunlarda imperiya həvəsi də çox güclüdür. Dövlət Dumasının bir deputatını mandatdan məhrum etdilər. Nə var-nə var, Ukraynanı müdafiə edib.

***- Vahid bəy, bəziləri hesab edir ki, başlayan proseslər ölkədə sosial partlayışlara, etirazlara, kütləvi aksiyalara səbəb ola bilər. Amma biz də gördük ki, keçirilən mitinqlərə qatılan adamların sayı o qədər də çox deyildi. Bəlkə də narazıların sayından qat-qat aşağıydı. Siz bütün Azərbaycan səhnəsini müşahidə etmək imkanına maliksiniz. Eyni zamanda siyasətlə məşğulsunuz, millət vəkilisiniz. Azərbaycanda manatla bağlı hansısa kütləvi etirazlar, aksiyalar gözlənilirmi?***

- Mən devalvasiya ilə əlaqədar ölkədə elə bir ciddi proses görmürəm və gözləmirəm də. İkincisi də Azərbaycan müxalifətinin verdiyi proqnozları və sairi çox vaxt qəbul etmirəm. Nəyə görə? Mən ictimai-siyasi həyatı izləyən adamam, beynəlxalq aləmdə gedən iqtisadi-siyasi prosesləri izləyirəm. Azərbaycanda gedən prosesləri də onlarla müqayisə edirəm. İkincisi, bir müddət əvvəl dövlət Əli Həsənovun rəhbərliyi altında siyasi partiyalarla dialoq təşkil etdi. Əli Həsənov vəzifəli şəxsdir, prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisidir. Yadınıza gəlirsə, mən sizin qəzetdə də dəfələrlə demişəm ki, dialoq Azərbaycana çoxdan lazım idi. Çətin vəziyyət ola bilər, bunu heç kim inkar etmir. Manat devalvasiyaya da uğraya bilər, Azərbaycanda iqtisadi cəhətdən müəyyən gərginliklər yarana bilər. Amma bu, əsas vermir ki, Azərbaycanda belə hərəkətlər edəsən. Biz hamımız Azərbaycan vətəndaşıyıq. Digər tərəfdən, müxalifətdəkilərin əksəriyyəti də Azərbaycanın müstəqilliyini istəyən, buna səs verən insanlardır. İndiki dövrdə, indiki ictimai-siyasi vəziyyətdə müstəqilliyi qorumaq həddən artıq çətindir. Ona görə də bu məsələdə bir yerdə olmaq üçün dialoqa gedilməsinin çox böyük əhəmiyyəti var. Əgər dialoq öz nəticəsini verəcəksə, Azərbaycanda parlament seçkiləri şəffaf keçiriləcəksə, istər müxalifətdən, istər iqtidardan normal insanlar parlamentə düşəcəksə, Azərbaycanda heç bir qeyri-adi hadisələr gözləmirəm. Buna imkan vermək olmaz.

*Rauf bəy növbəti sualla söhbətin axarını deputatın seçki dairəsinə yönəldir:*

***- Qubada vəziyyət necədir?***

- *(Gülərək)* Qubada yaxşıdır.

***- Orda iğtişaşlar oldu, o iğtişaşların səngiməsində sizin böyük rolunuz oldu. Hazırda vəziyyət necədir, hansısa təsirlər varmı?***

- Qubada vəziyyət həmişə yaxşı olub. Əgər orda rayonun icra başçısı öz yerindədirsə, insanlarla normal rəftar edirsə, əhalini təhqir etmirsə, heç bir problem yoxdur. Quba camaatı, ümumiyyətlə, bizim şimal bölgəsi çox qonaqpərvər insanlardır, onlar axırıncı qəpiyinə qədər verər, amma dünya dağıla, təhqirə dözən deyillər.

***- O vaxt iddialar var idi ki, Ziya Məmmədovun ora təsirləri var. Elə bir şey varmı?***

- Sizi inandırım, Ziya Məmmədovun heç bir təsiri yoxdur. O vaxt bəlkə də ola bilərdi, amma indi Ziya Məmmədov ayda-ildə bir dəfə ora gəlmir. Açığını deyim, Ziya Məmmədov orda olanda da yolların çəkilməsinə, müəyyən işlərin görülməsinə çox böyük köməkliklər edirdi. Amma indi mən onun təsirini hiss etmirəm. Artıq ikinci icra başçısıdır dəyişilib.

***- Parlament seçkilərində namizədliyinizi verəcəksinizmi?***

- Bəli. Qubadan, həmin dairədən.

***- Biz bir neçə deputatın öz dairəsində reytinqinin yüksək olduğunu bilirik. O cümlədən sizin. Seçicilərinizlə təmas olurmu?***

- Hər ay mənim iki dəfə qəbul günüm olur. Qubada qəşəng ofisim var, o vaxtdan düzəltdirmişəm, seçicilərimi ayda iki dəfə qəbul edirəm. Bundan başqa, bütün tədbirlərdə iştirak edirəm. Mənim dairəmdə Quba şəhəri və 97 kənd var. Elə bir kənd yoxdur ki, mən orda bir iş görməyəm. Ya su çəkdirmişəm, ya məktəb, ya uşaq bağçası, ya tibb məntəqəsi tikdirmişəm. İndi də orda Dünya Bankının xətti ilə bir briqada işləyir, kəndlərə su çəkirlər.

***- Rusiyanın təsirləri varmı, hiss olunurmu?***

- Əlbəttə. Ümumiyyətlə, şimal bölgəsinə müəyyən təsirləri var. Çünki bizim əhalimizin əksəriyyəti Rusiyadadır. Orda ticarətlə məşğul olurlar, müəyyən vəsait gəlir. Qayıdanlar da çoxdur. Son vaxtlar səngiyib, amma Rusiyada birinci devalvasiya olanda xeyli əhali qayıtdı. Mən ciddi problem görmürəm.

***- O bölgə daim radikal cərəyanların basqısı altındadır. Bununla bağlı nə deyə bilərsiniz?***

- Şimal bölgəsi dinə çox ehtiram edir, inanclı insanlar həddən artıq çoxdur. Qubanın özündə 5 məscid var, hamısında insanlar ibadət edir. Dindarların da hörməti var. Dövləti müdafiə edən insanlardır, hansısa təriqətə meylli olsunlar və sair, elə ciddi hallar yoxdur. Açığı, Azərbaycan hökuməti nəzarətdə saxlayır, bizim mütəmadi məlumatlarımız var. Elə ciddi problem yoxdur.

***- Biz mətbəxi bilmirik, ona görə soruşuruq, məsələn, Quba hadisələrindən sonra, ümumiyyətlə, proseslərin gedişində, regiona səfərində prezident bölgənin deputatı ilə təmasa girirmi, vəziyyətlə bağlı soruşurmu, bilgi alırmı, ona tapşırıqlar verirmi? Qanunla tapşırıq verilməməlidir, deputatdır, amma hər halda, dövlətin başında duran şəxsdən söhbət gedir...***

- Təbii ki. Axırıncı dəfə cənab prezident orda olanda əsasən bizimlə gəzirdi obyektləri, bir də icra başçısı idi. Səhərdən-axşama kimi bir yerdə olduq.

***- Haraları gəzdiniz?***

- Açılışı olan bütün obyektləri.

***- Amma məlum məsələdir ki, prezidentə yaxşı yerlər göstərirlər...***

- Aydın məsələdir ki, o obyektlər hazırlanır, prezidentin mühafizəsi təşkil olunur.

***- Özü keyfiyyətsiz yerləri görürmü, deyirmi, irad tuturmu?***

- Çox yaxşı görür, göstərir, təkliflərini də verir. Məsələn, orda olanda mən prezidentdən 5-6 xahiş elədim, o cümlədən Qubada tutulan insanların buraxılması ilə əlaqədar. Göstəriş verdi, insanlar hamısı buraxıldı. Sonra xəstəxana tikintisi ilə əlaqədar xahiş etdim, yerinə yetirdi, Quba-Qonaqkənd yolu ilə əlaqədar sərəncam verildi. Yəni elə bir məsələ olmayıb ki, mən qaldırım, prezident ona "yox" desin.

***- Təmas var yəni?***

- Çox yaxşı təmas var. Özü də mən sizə açığını deyim, bəzən baxırsan, deyirsən zəhmlidir... Mən 1991-ci ildən bəri çox prezidentlərlə işləmişəm. Rəhmətlik Heydər Əliyevlə də...Heydər Əliyev 1983-cü ildə məni Bakı fəhləsi adına Maşınqayırma Zavoduna direktoru təyin edib. Danışım, istəsəniz yazarsınız.

***- Buyurun...***

- Deməli, məni zavod direktoru təyin etdi, oranın əvvəlki direktorunu tutmuşdular. Mən işlədim, sonra elə həmin ərazidən büro üzvü seçildin.

***- Zavodda nə qədər işçi var idi?***

- 3 minə yaxın. Heydər Əliyev 1985-ci ildə Moskvaya gedəndə SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini, SSRİ Ali Sovetinin deputatı, Siyasi Büronun üzvlüyünə namizəd idi onda. O zaman biz onu SSRİ Ali Sovetinin deputatlığına namizəd verdik. Onda bizim zavoda gəldi. O idi, Kamran Bağırov, Həsən Seyidov, Bakı şəhərinin 1-ci katibi Fuad Musayev idilər. 4 saat zavodda oldu, mənimlə bir yerdə gəzdi, məlumatlar aldı. Maşına oturanda elə bir ayağı maşında görüşüb-öpüşdük, qayıtdı Kamran Bağırova ki, "Vahiddən muğayat olun, bu, bizə lazım olacaq". Və çıxıb getdi. Qorbaçov hakimiyyətə gələndən sonra vəziyyət bir az gərginləşdi. O zaman Heydər Əliyevlə əlaqədar Qorbaçov durub Tüməne getdi. Bütün Tümeni də biz neft-mədən avadanlığı ilə təchiz edirdik. Avadanlıqlar da Keşlə Maşınqayırma və Bakı fəhləsi zavodları hazırlayırdı. Mancanaq dəzgahları var e, biz mühəndislər ona "salamməleykim" deyirdik. Bunun zay hissəsini qoymuşdular Qorbaçovun qabağına, o da əsəbləşmişdi, Heydər Əliyevin ardınca sərt danışmışdı, gəlib Siyasi Büroya tapşırıq vermişdi. Burda aləm bir-birinə qarışdı, Keşlə Maşınqayırma Zavodunun direktorunu tutdular. Məni çağırdılar, şərt qoydular ki, ya o zavoda gedəcəksən, ya da türməyə. Mən də getmək istəmirdim, çünki burda əziyyət çəkib vəziyyəti düzəltmişdim. O zavod da pis vəziyyətdə idi. Nəsə, axır məcbur həmin zavoda getdim. Onda məhsulları hərbçilər qəbul edirdi. Onda bizi Moskvaya, Siyasi Büroya çağırdılar. Mərkəzi Komitənin katibi Konovalov var idi, onun rəhbərliyi ilə getdik. Əsas şikayət də mənim təzə təyin olunduğum zavoddan idi. Orda Dolqix və Maşerov aparırdı iclası. Mən də cavan oğlan idim, heç 40 yaşım yox idi. Məni ayağa qaldırdılar ki, bəs sən gecə zay məhsulu göndərirsən, kimə, Heydər Əliyevə güvənirsən? Başqası olsaydı bəlkə də orda infarkt olmuşdu. Mən normal qaydada cavab verdim. Sonra qayıtdıq, gəldik. Mən o zavodda 1992-ci ilə qədər işlədim. Mən Heydər Əliyevlə 1991-ci ildə Naxçıvanda görüşmüşəm, o, Ali Sovetin sədri idi. Burda müstəqilliklə əlaqədar mübahisələr gedirdi ki, Azərbaycan müstəqilliyə səs versin, ya yox. Onda mən dəhlizdə onunla söhbət etdim, fikrini soruşdum. Dedi, heç nədən qorxmaq lazım deyil, SSRİ qurtardı...

***(davamı növbəti sayımızda)***

❑ Söhbəti qələmə aldı:
Elşad PAŞASOY
Foto: Məhəmməd TÜRKMƏN



**"Mən indi Ziya Məmmədovun Qubaya təsirini hiss etmirəm"**

**"Açığını danışaq, Avropa Oyunlarının keçirilməsi daha çox siyasi məsələdir; əgər bilinsəydi ki, neftin qiymətində, ümumiyyətlə, dünya iqtisadiyyatında belə bir problem yaranacaq, bəlkə də heç buna gedilməzdi"**





**"Dialoq öz nəticəsini verəcəksə, Azərbaycanda parlament seçkiləri şəffaf keçiriləcəksə, istər müxalifətdən, istər iqtidardan normal insanlar parlamentə düşəcəksə, Azərbaycanda heç bir qeyri-adi hadisələr gözləmirəm"**



# Lavrov niyə belə arxayın danışır?

Hüseynbala SƏLİMOV

**Rusiya yenə də canfəşanlıq edir. Aprelin 24-də, qondarma "soyqırım" günündə hansı ölkələrin Yerevana baş çəkəcəyindən xəbərsizik. Bildiyimiz budur ki, Fransanın prezidenti F.Olland belə istəkdə bulunur, bir də ki, Rusiya dinc dayanmır...**

Bu günlərdə xarici işlər naziri S.Lavrov Yerevana səfər etmişdi. Guya ki, V.Putinin Ermənistana səfərinə hazırlıq gedir. Doğrusu, bu, adama bir qədər qeyri-adi görünür. Nə hazırlıq-filan, canım? Putin bircə zəng etsə bütün Ermənistan ertəsi günü Moskvada olar... Ona görə də Rusiya prezidenti niyə özünü əziyyətə salır, səbəbini bilmirik...

Nə isə. Məsələ bunda deyil. S.Lavrov Ermənistanda belə bir bəyanat verdi ki, heç kim Qarabağ münaqişəsinin qızğın fazaya keçəcəyinə inanmır... Həm də bu sözlərə bir ifadə də əlavə etdi: "ritorikalara baxmayaraq..."...

Yəni, Rusiyanın xarici işlər naziri ən azı Azərbaycanda deyilənləri mənasız bir ritorika adlandırır. Demirik ki, bu, bizim üçün fövqəladə yenilikdir. Elə biz də bilirdik ki, Bakıda deyilənlər azərbaycanlılar üçündür...

İndi mən nə deyim? Təbii ki, heç kim istəmir ki, indiki şəraitdə qlobal şəkildə atəşkəs rejimi pozulsun- ona görə "qlobal şəkildə" deyirik ki, lokal pozuntular hər gün, hər saat var...

İndi çox həssas durumdur. Bəlkə də S.Lavrov ürəyinin dərinliklərində arzu edir ki, kaş, atəşkəs pozulaydı. Bilmirəm, necə deyərlər, imanımı yandıra bilmərəm... Əslində təxribat etmək onların əlində heç nədir. İstəsələr edərlər və bu, onlar üçün bir problem yaratmaz...

Belə qəbul edək ki, indiki durum onları qane edir- kələfin bir ucu Azərbaycanın, bir ucu da Ermənistanın boynundadır. Ona görə də bizi daha çox Lavrovun sözlərindəki arxayınlıq notları düşündürür- yəni, narahat olmayın, Bakıda danışılan boş-boş sözlərə fikir verməyin...

Desəm ki, Qarabağ problemini həll etməyə qoymayan məhz elə bu arxayınlıq notlarıdır, elə bir kəşf etmərəm- Qarabağ problemi bizdən başqa heç kim üçün problem deyil, heç kimi azacıq da olsa, narahat etmir, hətta neft-qaz şirkətlərini də. Onlar da düşünürlər ki, azərbaycanlılarla ermənilər arabir güllə atır, vuruşurlar, qoy, özləri üçün vuruşsunlar...

Amma, necə deyərlər, yanıb-tökülən bizik. Lavrova nə var ki? Deyirlər ki, rusların az qala 90 faizi Krımın Rusiyaya birləşdirilməsini dəstəkləyir! Onlara bu, lazımdır- "velikaya Rossiya!"...

Böyürlərində ermənilər da yatıb-yuxularında "velikaya Armeniya" görürlər. Rusiya siyasətçiləri də könüllərinin xoş vaxtında ermənilərin nağıllarına diqqət edir, naxoş vaxtlarında isə "poşel k çertu!" deyirlər...

Amma ermənilər sarıdan da arxayındırlar, bizim sarıdan da. Ermənilər sarıdan ona görə arxayındırlar ki, bu ermənilər Rusiya geopolitikasının məqsəd və məramlarına, prinsip və düsturlarına heç vaxt xəyanət etməzlər, ruslar onlara nə desə, bir cavabları var: "yest!", yəni ki, baş üstə...

Bizdən də ona görə arxayındırlar ki, əlimizdən bir şey gəlmir. Bizimki asıb-kəsmək, böyük-böyük danışmaqdır. Danışanda da heç olmasa bir dünya dilində danışmırıq ki, bunu qeyriləri də eşitsin... Azərbaycan türkcəsində və özü də hərbə-zorba ilə danışırıq ki, camaat elə bilməsin ki, hökumətimiz bu ermənilərdən qorxur...

Lavrov bütün bunlara "ritorika" deyir, çünki o bilir ki, Qarabağ haqqında Bakıda və Yerevanda deyilənlər boş şeydir, əsas söz Moskvada deyilir, məhz Moskva musiqini sifariş edir, ermənilərlə azərbaycanlılara isə oynamaq qalır...

Lavrov daha nəyi bilir? O bizim silahların az qala "marka"sını da bilir, çünki silah onun silahıdır, bizə satır, ermənilərə isə bağışlayır...

Lavrov daha nəyi bilir? O, bizim arabir güvəndiyimiz Türkiyəni və bir də Minsk Qrupunun həmsədrlərini tanıyır. Bilir ki, onların əlindən bir şey gəlməz və buna görə də narahat olmağa dəyməz...

Lavrov daha nəyi bilir? Bizi də, erməniləri də tanıyır. Bizi iki yüz ildir ki, tanıyır... Ermənilər isə öz uşaqlarıdır - Suriyanın düzlərində dəvə peyini yeyirdilər, gətirib burada adam elədilər. İndi erməni nə edəcək? Durub onun üzünə ağ olacaq? Olmaz. Heç vaxt...

Ermənistanda rus əsgərilə bağlı insident yaşanarkən iki rus politoloqunun mətbuat konfransında dediklərinə diqqət etdim. Əşi, biz yalan imişik ki! Bu ruslar, bəli, məhz onlar ermənilər haqqında əsl həqiqətləri bilirlərmiş...

Ona görə də Lavrov arxayındır, həm o sarıdan, həm də bu sarıdan... Burada adamın yadına bir mahnı düşür: "sən o tayda, mən bu tayda..."...

YENİ MÜSAVAT
N 75 (6103) 10 aprel 2015

# Pənah Hüseynin hakimiyyətlə razılaşmaq təklifinə dəstək

**Sərdar Cəlaloğlu:** "Bizə 2005-ci il parlament seçkiləri öncəsi bir sıra beynəlxalq təşkilatlar da təklif etmişdi ki, dairələrlə bağlı hakimiyyətlə razılaşmalara getmək lazımdır"

**"Azadlıq 2015" seçki blokunun təşkilatçılığı ilə aprelin 8-də keçirilən "Dəyişən dünya və Azərbaycan: mövcud durum və perspektivlər" adlı dəyirmi masada Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn yaranmış vəziyyətdə müxalifətin hakimiyyətlə danışıqlara getməsi, müəyyən razılaşmalar əldə etməsinin çıxış yolu olduğunu bəyan edib.**


Sərdar Cəlaloğlu

**Pənah Hüseyn** çıxışı zamanı bildirib ki, hakimiyyətlə müxalifət arasında dialoqun olması vacibdir: "İki ay əvvəl iqtidar nümayəndəsi ilə görüşümüz oldu. Düşünürəm, bu, davamlı olacaq. Hazırkı durumdan çıxış yolu kimi müxalifətin strategiyası yoxdur, sanki hamı nəyisə gözləyir. Hesab edirəm ki, ciddi şəkildə proseslərlə bağlı düşünmək lazımdır. Bir araya gəlmək, milli birlik halında toparlanmalıyıq. Bu il keçiriləcək parlament seçkiləri ilə bağlı hakimiyyətlə müxalifət konsensusa gəlməlidir. Danışmalıyıq və razılaşmalıyıq. Təbii ki, bu, açıq və şəffaf olmalıdır. Seçki dairələri üzrə təkcə müxalifətlə deyil, hakimiyyətlə də razılaşmalıyıq.

Milli koalisiya yaratmalıyıq, müəyyən mərhələlərdə iqtidarla əməkdaşlıq da edə bilərik".

P.Hüseyn deyib ki, Azərbaycanın son 25 illik tarixində-1990-cı ildə belə bir təcrübə olub.

Tədbirin digər iştirakçıları da çıxışlarında hakimiyyətlə müxalifət arasında dialoqun əhəmiyyətindən danışıblar.

**Pənah Hüseynin bu mövqeyinə ADP sədri Sərdar Cəlaloğlu tərəfindən dəstək ifadə olunub. "Yeni Müsavat"a açıqlamasında S.Cəlaloğlu bildirdi ki, Pənah Hüseynin fikirləri Russonun "Cəmiyyətin təşkil olunmasında razılaşma" fəlsəfəsinə uyğundur. Hakimiyyət bölgüsünü həyata keçirən bir cəmiyyətdə yalnız razılaşma prinsipi ilə hər şey normal axarında gedə bilir. Əks halda, həm dövlət, həm iqtidar, həm müxalifət, həm də bütövlükdə cəmiyyət böyük sarsıntılar yaşayır:** "Ümumiyyətlə, cəmiyyət özü də insanların bir-biri ilə razılaşması nəticəsində formalaşır. Razılaşma, konsensus olmayan yerdə təbii ki, heç bir normal cəmiyyətdən söhbət gedə bilməz. Demokratiyanın ən mühüm prinsiplərindən biri də razılaşmadır, bir araya, konsensusa gəlməkdir. Faktiki olaraq, razılaşma insan cəmiyyətinin mövcudluğunun mühüm şərtidir. O ki qaldı siyasi qüvvələrin razılaşmağına, təbii ki, burada da yeni bir şey yoxdur. Bizə 2005-ci il parlament seçkiləri öncəsi bir sıra beynəlxalq təşkilatlar da təklif etmişdi ki, seçkilərdə dairələrlə bağlı hakimiyyətlə razılaşmalara getmək lazımdır. Hətta açıq şəkildə bildirilmişdi ki, müxalifətin parlamentdə fraksiya yaratmağa yetəcək həddə deputat mandatı əldə etməsi mümkündür və hakimiyyət bu təklifi müsbət qəbul edib. Lakin o zaman müxalifət, konkret olaraq Müsavat Partiyası və AXCP tərəfindən qəbul edilməmişdi. Hər iki partiyanın rəhbəri bu təklifi qəbul etməkdən imtina etmişdilər. Nəticə isə məlumdur".

**ADP sədrinin sözlərinə görə, indiki halda əgər Əbülfəz Elçibəy iqtidarının ən nüfuzlu simalarından biri, Müsavata və AXCP-yə yaxınlığı ilə tanınan Pənah Hüseyn razılaşma, danışıqlara getmək təklifi verirsə, o deməkdir ki, Elçibəy hakimiyyətinin davamçılarının fikirlərində çox fundamental dəyişikliklər əmələ gəlir:** "Nəhayət ki, 10 il bundan öncə beynəlxalq təşkilatların bizə təklif elədiyi yolun düzgün, ən optimal yol olduğunu indi başa düşüblər. Gec də olsa, hər halda, müsbətdir və mən bunu dəstəkləyirəm".

S.Cəlaloğlu sonda vurğuladı ki, hakimiyyətin bu cür təkliflərə necə yanaşması ölkənin yaxın gələcəyi baxımından əhəmiyyətlidir.

❑ **Etibar SEYİDAĞA**

# Tural Abbaslı ilə başqan müavini arasında Vurğun Əyyub davası


**Tural Abbaslı:** "Vurğun Əyyubun sosial şəbəkələrdə və mətbuatda verdiyi bəyanatlar rəsmi bəyanat, istefa ərizəsi kimi qəbul oluna bilməz"


**Səxavət Soltanlı:** "Haqsız və doğru olmayan adamı müdafiə etmək istəyi insanın özünə zərər vurması ilə yekunlaşır"

**Müsavat Partiyasının sabiq Divan üzvü Tural Abbaslı Vurğun Əyyubun adının Müsavat Məclisinin üzvləri siyahısından çıxarılmasının həmin şəxsin Məclis üzvlüyündən məhrum edilməsi anlamı daşımadığını bəyan edib. T.Abbaslı fikrini belə əsaslandırıb ki, V.Əyyubun Məclis üzvlüyündən çıxarılması məsələsi səsə qoyulmayıb, sadəcə, onun bəyanatları, çıxışları əsas götürilib: "Vurğun Əyyubun sosial şəbəkələrdə və mətbuatda verdiyi bəyanatlar rəsmi bəyanat, istefa ərizəsi kimi qəbul oluna bilməz, çünki nizamnamədə belə bir bənd yoxdur. Vurğun Əyyubun Məclis üzvlüyündən xaric olunması istənilirdisə, bülletenlər hazırlanmalı və gizli səsvermə keçirilməli, Məclis üzvlərinin 50%+1-i Vurğun Əyyubun Məclis üzvü səlahiyyətlərinə son verməli idi. Bu prosedurlar baş verməndiyi üçün nizamnaməyə əsasən Vurğun Əyyub Məclis üzvüdür. Bunu partiyada nizamnamədən anlayışı olan istənilən şəxs təsdiq edə bilər".**

Müsavat başqanının müavini Səxavət Soltanlı isə Tural Abbaslının məsələləri qarışdırdığını bildirdi: "Kimin nə deməsi ilə iş olmur. Biz faktı sadəcə qeydə almışıq. Adam özünü Məclis üzvü hesab etmir, biz də bunu nəzərə almışıq. Tural Abbaslının dediyi məsələ isə kiminsə seçkili orqandan xaric edilməsi ilə bağlıdır. Yalnız nizamnamənin bir bəndini oxuyub rəy bildirmək doğru deyil. Tural Abbaslının dediklərini bilməməzlikdən irəli gələn səhv kimi qiymətləndirirəm.

Vurğun Əyyubun müdafiəçisi olmağın çətinliyindən birini bu dəfə Tural yaşayır. Yəni haqsız və doğru olmayan adamı müdafiə etmək istəyi insanın özünə zərər vurması ilə yekunlaşır.

Turalın dediyi məsələ ilə bu məsələ arasında fərq o qədərdir ki, bunu qarışdırmaq kobud səhvdir.

Mətbuatda səslənən fikirlər şəxsin iradəsinin ifadəsidir, Vurğun Əyyub tərəfindən təkzib edilməyib, Məclisin katibinin və təşkilat komitəsinin iclaslara dəvətinə verdiyi cavablara istinad etməklə Vurğun Əyyubun adı Məclis üzvləri siyahısından çıxarılıb. Vurğun Əyyub özü israrla bəyan edir ki, Məclis üzvü deyil, Tural Abbaslı isə "Vurğun Əyyub Məclis üzvüdür" deyir. Sanki adamı məcbur Məclis üzvü etmək istəyir".

Qeyd edək ki, Müsavat Partiyası Məclisinin 4 apreldə keçirilən sessiyasında sabiq başqan İsa Qəmbərin təklifi ilə Vurğun Əyyubun adı Məclis üzvləri siyahısından çıxarılıb.

❑ **E.SEYİDAĞA**

# Müsavat niyə yürüş-mitingə qərar verdiyinə aydınlıq gətirdi

**Gülağa Aslanlı:** "Kimin nə deməsindən asılı olmayaraq, Müsavat yenə də doğru bildiyini həyata keçirir"

**Aprelin 9-da Müsavat Partiyasının başqanı Arif Hacılının yanında başqan müavinlərinin növbəti toplantısı olub. Toplantıda 19 aprel saat 16.00-da "20 Yanvar" metro stansiyasının yanından başlayaraq Həsən bəy Zərdabi küçəsindən keçməklə, "İnşaatçılar" metro stansiyasının yanındakı "Məhsul" stadionunda qətnamənin oxunması ilə yekunlaşan yürüş-mitinq üçün Bakı Şəhər İcra Hakimiyyətinə rəsmi məktubun ünvanlanması qərara alınıb. Məktub dünən göndərilib.**


Gülağa Aslanlı

Qeyd edək ki, sözügedən marşrut üzrə sonuncu dəfə yürüş 2005-ci il parlament seçkilərindən az sonra-noyabrın 27-də olub. O zamana qədər müxalifət həmin ünvanda tez-tez yürüş-mitinq keçirirdi. 2005-ci ilin 27 noyabrında "Azadlıq" seçki bloku və daha bir neçə partiya yürüş-mitinq keçirmişdi. Keçmiş "Qələbə" kinoteatrının qarşısında mitinqin sonunda AXCP sədri Əli Kərimli və ALP sədri Lalə Şövkət Hacıyeva mitinq iştirakçılarını meydandan çıxmamağı və oturaq mitinqə başlamağı çağırmışdılar. İştirakçıların müəyyən hissəsi bu çağırışa qoşulmağa cəhd edən anda isə ərazini əhatəyə almış polis və xüsusi təyinatlı qüvvələr güc tətbiq edib meydanı boşaltmağa nail olmuşdular. Həmin hadisədən sonra hakimiyyət "20 Yanvar"-"Qələbə" marşrutunu müxalifətin üzünə bağlayıb.

Təxminən 10 il sonra Müsavat Partiyasına yürüş üçün bu ünvanın verilməsini bir sıra siyasi ekspertlər inandırıcı hesab etmirlər. Müsavat Partiyasında da bu cür düşünənlərin olması istisna deyil. Bəs Müsavat rəhbərliyi hakimiyyətin yürüşə razılıq verməməsi ehtimalının yüksək olduğunu nəzərə alıbmı, nədən mitinq yox, yürüş keçirilməsi məqsədəuyğun hesab edilib?

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı bildirdi ki, Müsavat, sadəcə olaraq, "Sərbəst toplaşmaq azadlığa haqqında" Qanunun tam şəkildə işlənməsi istəyindədir:** "Biz bu qanuna əsaslanıb qanunun verdiyi hüquqdan istifadə etmək istəyirik. Bakı Şəhər İcra Hakimiyyəti də qanunun tələbinə uyğun münasibət sergiləməlidir.

O ki qaldı Müsavatın niyə mitinq yox, yürüş keçirməsi qərarı verməsi barədə deyilənlərə və bundan kimlərinsə özü üçün hansısa nəticələr çıxarmasına, kimin nə deməsindən asılı olmayaraq Müsavat yenə də doğru bildiyini həyata keçirir. Ona görə də bizim xüsusi bir narahatçılığımız yoxdur. Yürüşə razılıq veriləcəyi halda yürüşü keçirəcəyik. Razılıq verilməyəcəyi halda yaranmış situasiyanı müzakirə edib qərarımızı verəcəyik".

Digər siyasi, ictimai təşkilatların aksiyaya qatılması məsələsinə gəlincə, G.Aslanlı dedi ki, siyasi, ictimai qurumların da aksiyaya qatılması üçün mümkün olan variantlar həyata keçiriləcək. Siyasi partiyalara, ictimai təşkilatlara bu yürüş-mitinqə qatılmaları üçün müraciət edilməsi nəzərdə tutulur.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 75 (6103) 10 aprel 2015

# İranın üzü çöndü, Qərblə münasibətlər yenidən pisləşdi

## Ruhani: "Heç vaxt öz əleyhimizə olan bir anlaşmaya imza atmayacağıq"; ABŞ dövlət katibi sərt danışdı

**ABŞ İranın Yəməndə hərbi münaqişəyə müdaxiləsinə icazə verməyəcək. "Reuters"in məlumatına görə, bu sözləri ABŞ dövlət katibi Con Kerri deyib.**



Ruhani



Con Kerri

Onun sözlərinə görə, prezident Mansur Hadini ölkədən qovan husi silahlılarına İrandan gələn dəstək ABŞ-a yaxşı məlumdur. "Biz münaqişə axtarmırıq. Lakin müttəfiqlərimizi də tək buraxmayacağıq. Biz İranın mümkün fəaliyyətindən özünə təhlükə hiss edənlərə dəstəyimizi davam edəcəyik" deyə, Kerri telemüsahibəsində bildirib.

Dövlət katibi bildirib ki, ABŞ İran tərəfdən özünə təhlükə hiss edən Yaxın Şərq ölkələrinə dəstək verəcək.

Qeyd edək ki, İran Səudiyyə Ərəbistanı və müttəfiq dövlətlərin husilərə qarşı hərbi əməliyyatların keçirildiyi Yəməndə hərbi varlığını qorumaq üçün hərbi gəmilərini bölgəyə göndərib. İran Hərbi Dəniz Qüvvələrinin komandiri, kontr-admiral Həbibullah Səyyari bildirib ki, Alborz dağıdıcı gəmisi və Buşehr köməkçi gəmisi Ədən körfəzinə göndərilib. Həbibullah Səyyari gəmilərin hansı məqsədlə göndərildiyini də açıqlayıb: "Hərbi gəmilər İran gəmiçiliyinin təhlükəsizliyini təmin etmək və açıq dənizdə İranın maraqlarının qorunması missiyası üçün göndərilib".

Səudiyyə Ərəbistanının Yəməni bombalamasından sonra İranla bu ölkənin münasibətləri daha da gərginləşib. İş o yerə çatıb ki, Səudiyyə Ərəbistanı İsfahandan Ciddə şəhərinə uçan İran Hava Yollarına aid təyyarənin enişinə icazə verməyib.

Bu barədə İran mətbuatı məlumat verib. "İLNA" xəbər agentliyinin yazdığına görə, təyyarədə ümrə ziyarətinə gedən 290 zəvvar olub. Səudiyyə Ərəbistanı təyyarənin enməsinə icazə verməməyinə səbəb kimi təyyarənin eniş icazəsi olmadığını göstərib. İran Hava Yollarının rəsmiləri isə eniş icazəsinin olduğunu bildirib.

İran da nüvə proqramı ilə bağlı Lozanna razılaşmasından sonra dünyanın sevinməsinin tez olduğuna işarə edib . "Sanksiyalar aradan qaldırılmasa, İran "altılıq" ölkələri ilə nüvə proqramına dair sazişi imzalamayacaq. İran heç vaxt öz əleyhinə olacaq bir anlaşmaya imza atmaz".

**Newsru.com-un məlumatına görə, Milli Atom Texnologiyası günü münasibətilə keçirilən tədbirdə İran prezidenti Həsən Ruhani belə bir açıqlama ilə çıxış edib. Həsən Ruhani deyib ki, nüvə proqramından tam imtina edilməyib. O, həmçinin danışıqlara qatılan bütün iranlıların böyük səy sərf etdiyini bildirərək onlara minnətdar olduqlarını vurğulayıb. Ruhani nüvə müqaviləsini dünya ilə ortaq işlər həyata keçirmək üçün ilk addım olaraq gördüklərini vurğulayıb:** "Bu razılaşma həm Qərb, həm də bölgə ölkələri baxımından faydalıdır. Region ölkələrinə səslənirik, gəlin qardaşlığımızı yenidən təsis edək". Ruhani deyib ki, danışıqlarda qalib tərəf İrandır: "Barak Obama etiraf etdi ki, iranlıları sanksiya və hədələrlə qorxutmaq olmaz".

Qeyd edək ki, ötən həftə Lozannada İranla "altılıq" ölkələri arasında İranın nüvə sənayesinin dinc məqsədlərlə istifadəsinə dair razılaşma əldə olunub. Bu sazişə əsasən, İran nüvə silahı əldə etmək fikrindən daşınır, ancaq nüvə enerjisindən dinc məqsədlərlə istifadə etməsinə yol verilir. Bunun əvəzində İrana qarşı tətbiq edilən sanksiyalar aradan qaldırılmalıdır. ABŞ həmin sanksiyaların tədricən aradan qaldırılacağını bildirir. İran isə bütün sanksiyalara tezliklə son qoyulmasını tələb edir.

❑ Xəbər xidməti



# Mərkəzi Bank "Taliban" və "əl-Qaidə"ni antiterror siyahısına saldı

**Azərbaycan Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti BMT-nin Təhlükəsizlik Şurasının "Taliban" Sanksiya Komitəsinin 27 mart 2015-ci il və "əl-Qaidə" Sanksiya Komitəsinin 31 mart 2015-ci il tarixlərində qəbul edilmiş qərarlarına uyğun olaraq aprelin 6-da Ümumi Siyahını yeniləyib.**

Virtualaz.org Maliyyə Monitorinqi Xidmətinə istinadən bildirir ki, Ümumi Siyahı milli qanunvericiliyə və beynəlxalq müqavilələrə uyğun olaraq müəyyən edilmiş fiziki və hüquqi şəxslərin Ölkədaxili Siyahısından və Beynəlxalq Siyahısından ibarətdir.

Ümumi Siyahının son versiyası Maliyyə Monitorinqi Xidmətinin rəsmi internet səhifəsində yerləşdirilib, habelə aidiyyəti nəzarət orqanlarına, monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslərə göndərilib.

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanuna uyğun olaraq, monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər Ümumi Siyahıda göstərilmiş fiziki və ya hüquqi şəxslərin pul vəsaitlərini və ya digər əmlakını aşkar etdikdə, qanunla müəyyən edilmiş qaydada belə pul vəsaitləri və ya digər əmlakla hər hansı əməliyyatı icra etməməli və bu barədə məlumatı Maliyyə Monitorinqi Xidmətinə təqdim etməlidirlər.

# ABŞ-ın Bakıdakı səfirliyi Rusiyaya sərt cavab verdi

## "Rusiya Duması üzvünün verdiyi bəyanatlar əsassız və dəyərsizdi"

**Rusiya Dövlət Dumasının Beynəlxalq məsələlər üzrə Komitəsinin sədri Aleksey Puşkovun Bakıdakı ABŞ səfirliyini ittiham etməsi barədə ötən sayımızda xəbər vermişdik. Qeyd edək ki, A.Puşkov ABŞ-ın Azərbaycandakı səfirliyinin fəaliyyətinin suallar doğurduğunu demişdi.**



"Mənə elə gəlir ki, Amerikanın Bakıdakı səfirliyinin fəaliyyəti, o cümlədən onların fəaliyyətinin siyasi aspektləri bir sıra suallar doğurur. Axı Amerikanın xarici siyasətində "narıncı inqilab" tematikasını heç kim ləğv etməyib. Və mən hesab edirəm ki, ABŞ-ın bir sıra ölkələrdə "narıncı inqilabları" israrla dəstəkləməsi Azərbaycan rəhbərliyi tərəfindən ABŞ-la münasibətlərdə nəzərə alınır" deyə, komitə sədri bildirmişdi.

ABŞ-ın Bakıdakı səfirliyi ittihamlarla bağlı sorğuya cavab verib.

"Amerika Birləşmiş Ştatlarının Azərbaycanın suverenliyinə və müstəqilliyinə göstərdiyi uzunmüddətli dəstək yalnız sözlərdən ibarət deyil. Bizim həyata keçirdiyimiz fəaliyyətlər onu göstərir ki, biz Azərbaycanla tərəfdaşlıq edərək Azərbaycanın ən sabit və təhlükəsiz gələcəyini təmin etmək istəyirik" deyə, ABŞ-ın Azərbaycandakı səfirliyindən bildiriblər.(virtualaz.org).

**ABŞ səfirliyi bildirir ki, Rusiya Duması üzvünün verdiyi bu bəyanatlar əsassız və dəyəri olmayan bəyanatlardır:** "Yeri gəlmişkən, dövlət katibinin müavini Entoni Blinken martın 31-də Vaşinqtonda qeyd etmişdi ki, Rusiyanın öz ətrafında həyata keçirdiyi fəaliyyətlər beynəlxalq qurulușun əsasına təhlükə yaradır".

Qeyd edək ki, bu ilin fevralında Bakıya səfər edən ABŞ dövlət katibinin Avropa və Avrasiya üzrə köməkçisi Viktoriya Nuland "Azərbaycanda "rəngli inqilab"ların hazırlanması ilə bağlı Vaşinqtona ünvanlanan ittihamlara cavab vermişdi. Nuland açıq demişdi: ""Rəngli inqilablar" o zaman baş verir ki, hökumətlə vətəndaş cəmiyyəti arasında soyuqluq, gərginlik və bağlı qapılar olsun. Yəni onların bir-birilərinin ehtiyaclarını həll etmək üçün zəruri və lazımi şərait olmasın". Bununla da o, Amerika adından Azərbaycanda bu cür dəyişikliyə səbəb olacaq vəziyyəti görmədiyini ifadə etmişdi.

❑ Xəbər xidməti

# Çeynənmiş ittihamlar yeni ifalarda



Xalid KAZIMLI

**Siyasətdə buraxılan səhvlər çox məşum olur, mənfi nəticəsi illərlə, qərinələrlə, əsrlərlə özünü hiss etdirə, milyonlarla insanın taleyinə təsir göstərə bilər. 1993-cü ilin iyununda buraxılmış səhv o qəbildəndir. Hakimiyyətin müqavimətsiz təhvil verilməsi, yun polkovniki Surət Hüseynovun hərbi qiyamının yatırılmaması çox ciddi yanlış idi.**

Hələ də bunu çox adam deyir, çox adam yazır, 22 ildir bu söhbət qurtarmır. Bu xüsusda yüzlərlə məqalələr yazılıb, o dönəmdə üzdə olan hər kəsdən bol-bol müsahibələr alınıb, araşdırmalar aparılıb, verilişlər hazırlanıb, tok-şoular təşkil olunub, o məşum qiyamın bütün detalları açıqlanıb, ortada demək olar ki, heç bir mühüm sirr-filan qalmayıb. Hər şey apaçıq ortadadır. Fəqət hələ də 2 iyun qiyamından söz düşəndə deyirlər: "Elçibəy qoydu, qaçdı".

Sanki o boyda qanlı hadisələr, ölkənin ərazisinin xeyli hissəsinin işğalıyla nəticələnən tarixi olayı yalnız bu üç quru sözlə ifadə etmək mümkündür.

İctimaiyyət arasında çoxdan triviallaşaraq milyon dəfə təkrarlanan, artıq klişeyə çevrilən bu ifadəni başqaları - sıradan adamlar işlədəndə ona təhəmmül etmək olar, ancaq yazı-pozu adamları, siyasi xadimlər bu qədər bəsit rezümelərlə çıxış edəndə tablaşmaq olmur. Çünki "qoydu qaçdı" ittihamı həqiqəti ifadə etmir, həqiqətin əslində nədən ibarət olduğunu ortaya qoymaq üçün bir kitablıq söz yazılmalı və ya danışılmalıdır.

"İsa Qəmbər 2003-ün oktyabrında meydana çıxmadı" fikri də elə o vaxtdan klişe xarakteri alıb. Bu ifadəni ilk dəfə kim səsləndiribsə, İsa Qəmbərə bəslədiyi antipatiyasından dilə gətirib. Sonradan isə digər opponentlər bu ifadəni min dəfələrlə təkrar edərək indiki halına gətiriblər. Hazırda elə çıxır ki, 2003-cü ildə hakimiyyət dəyişikliyinin əsas həlledici şərti İsa Qəmbərin Azadlıq meydanına getməsi imiş. Getsə, hakimiyyət dəyişəcəkmiş, getməyib, ona görə də dəyişməyib.

İsa Qəmbər də, başqaları da bu cür ifadələrə dəfələrlə cavab veriblər, fəqət hər dəfə başqa biri bunu dilə gətirir və mütləq həqiqətmiş kimi ictimaiyyətə sırıyır.

Bu xüsusda da çox araşdırmalar aparılıb, müsahibələr alınıb, məhkəmə protokolları incələnib. Həqiqət bundan ibarətdir ki, 2003-cü ilin oktyabrında meydana bir İsa Qəmbər yox, 100 İsa Qəmbər çıxsa da, hakimiyyəti dəyişmək ehtimalı sıfırla başlayan əmsalda idi. Birincisi, hakimiyyət sərəncamındakı bütün qoşun növlərini səfərbər etmiş, hələ seçkidən öncə dövlət çevrilişi həyata keçirmişdi. İkincisi, Rusiya, Türkiyə, ABŞ birləşərək hakimiyyətin dəyişməməsinə qərar vermişdilər və bu planın istədikləri kimi alınması üçün Əliyev rejiminə hər cür dəstək verirdilər. Üçüncüsü, meydana cəmi 4-5 min adam yığılmışdı və yerdə qalan 95 min adam yalnız ertəsi gün toplaşa bilərdi - o da hakimiyyətin silahlı qüvvələri meydanı amansızlıqla boşaltmasaydılar.

Ona görə də hər dəfə bu cür taleyüklü mövzularda qulağa xoş gələn və klişe ifadələrlə ("Elçibəy qaçmasaydı", "İsa Qəmbər meydana çıxsaydı" və s.) mülahizə yürütmək yanlışdır. Bir tarixi olayı bu qədər bəsit şəkildə ümumiləşdirərək hökm çıxarmaq olmaz.

Söz yox, adları çəkilən və çəkilməyən siyasi xadimlərin fəaliyyətlərində qüsurlara, yanlışlıqlara yol verdikləri də olub və bu barədə vaxtaşırı yazılır, danışılır, amma söhbət ölkənin qarşısında tarixi xidmətləri olan şəxslərdən gedirsə, qərəzli və bəsit mülahizələrdən istifadə edilməməlidir. Onların şəxsiyyətinə və fəaliyyətinə hərtərəfli və ədalətli yanaşmaq lazımdır.

Bütün şüurlu həyatını ölkəsinin, xalqının azadlığı uğrunda mübarizəyə həsr edən, hər cür məhrumiyyətlərə dözən, qanlarını qaşığa qoyaraq, əvvəlcə qırmızı imperiyanın, sonra da avtokratik rejimin qarşısından bir addım geri çəkilməyən, türmələrdə yatan, hər gün sui-qəsdə məruz qalmaq ehtimalı altında yaşayan insanları bir saniyənin içində qorxaqlıqda ittiham etmək isə ciddi ədalətsizlikdir.

Bir də ölkənin bugünkü durumda olmasının əsas baiskarı 27-30 ildən bəri haqq-ədalət uğrunda özündən qat-qat güclü dairələrlə mübarizə aparanlar deyil, hakimiyyət başında olanlardır. Nə yazıq ki, onlara qarşı belə cəsarətlə cəbhə açan yoxdur.

YENİ MÜSAVAT
N 75 (6103) 10 aprel 2015

# YAP-dan və sabiq dövlət müşavirindən Abbas Abbasov haqda sərt sözlər


Abbas Abbasov

**Azərbaycanlıların Federal Milli-Mədəni Muxtariyyəti - "AzerRos" ətrafında vəziyyət gərgin olaraq qalır. Rusiyanın siyasi dairələrində, hüquq-mühafizə orqanlarında mühüm dəstəyə və himayəyə malik olan Abbas Abbasov fevralın 20-də alternativ qurultay keçirərək "AzerRos"u parçalayıb. Ötən həftə isə Azərbaycan diasporunun üzdə olan tanınmışları və fəalları Abbas Abbasovun əməlləri ilə bağlı Vladimir Putinə və Azərbaycan prezidenti İlham Əliyevə şikayət ünvanlayaraq kömək istəyib.**

Yeni Azərbaycan Partiyası icra katibliyinin siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, deputat **Aydın Mirzəzadə** "AzerRos"da baş verənlərlə bağlı danışıb. SİA-ya açıqlama verən deputatın sözlərinə görə, təşkilat müxtəlif dövrlərdə müxtəlif mövqe olub: "Abbas Abbasov Azərbaycanda baş nazirin birinci müavini vəzifəsindən azad ediləndən sonra daimi yaşayış yeri kimi Moskvaya getdi və qısa zamanda həmin təşkilatın Ağsaqqallar Şurasının sədri oldu. Onun həmin təşkilata rəhbərlik etdiyi dövrdə "AzerRos"da ziddiyyətlər daha da gərginləşdi. Sonda isə təşkilat bir neçə qrupa parçalandı. Təşkilatda gedən son proseslər göstərir ki, artıq təşkilat ümumiyyətlə sərbəst fəaliyyət göstərməyə və Abbas Abbasovun təsirindən azad olmağa çalışır. Görünür, təşkilatda onu yaxşı tanıyırlar və özlərini bu adla bağlamaq istəmirlər. Arzu olunandır ki, Azərbaycandan kənarda fəaliyyət göstərən diaspor təşkilatları kiminsə təsirində deyil, əskinə, özləri müstəqil fəaliyyət göstərsinlər. Həm diaspor nümayəndələrini birləşdirərək Azərbaycanın milli-mənəvi dəyərlərdən qorunmasına, Vətənlə əlaqələrin möhkəmlənməsinə çalışsınlar və eyni zamanda öz ölkələrinin layiqli vətəndaşları olsunlar".

**"AzerRos" üzvlərinin prezident İlham Əliyevə ünvanladığı müraciətə münasibət bildirən (azvizion.az) Qabil Hüseynli hesab edir ki, şikayətlər heç də təsadüf deyil. Keçmiş dövlət müşavirinin fikrincə, Abbas Abbasov Rusiyadakı bəzi dairələrin əlində siyasi alətə çevrilib:** "Abbas Abbasov Azərbaycanda prezident seçkiləri ərəfəsində "Milyarderlər İttifaqı"nı yaratmağa cəhd etdi. Bu isə Azərbaycanda hakimiyyət dəyişikliyi üçün edilən cəhdlərdən biri idi. Bu cəhd Rusiyanın xeyir-duası ilə edilirdi. Abbas Abbasov 70-ə yaxın yaşının olmasına baxmayaraq, siyasi ambisiyalarından əl çəkmir. O, hələ də söz sahibi olmaq və mövqe tutmaq niyyətindədir.

Abbas Abbasov öz niyyətinə çatmaq üçün Rusiyadakı müəyyən dairələrin dəstəyindən də istifadə etməyə çalışır. Bu məsələdə xüsusilə Dağıstanın Dövlət Şurasının sədri Ramazan Abdulatipov ona köməklik göstərir. Bu işdə rəsmi Kremldə müəyyən dairələrin əlinin olması da mümkündür".

**Politoloq hesab edir ki, Abbas Abbasov Azərbaycanla bağlı məkrli niyyətlərini gizlətmir və onun siyasi hakimiyyətə qarşı münasibəti loyal olmayıb:**

"Abbas Abbasov Azərbaycanda bir daşı bir daşın üstünə qoymuş adam deyil. O, həyatının çox hissəsini Özbəkistanda keçirib. Mən onunla bir yerdə işləmişəm. Bütün hərəkətlərini də izləmək imkanına malik olmuşam. Belə hesab edirəm ki, Abbas Abbasov heç vaxt Azərbaycan siyasi hakimiyyətinə və Heydər Əliyevə qarşı loyal münasibətdə olmayıb. Onun münasibətlərinin hamısı üzdə olub. Arxada isə tamam başqa adam olub. Abbas Abbasov bildirir ki, o, Heydər Əliyev yolunu davam etdirir. Əslində o, bu addımı


**Aydın Mirzəzadə:**
""AzerRos" Abbas Abbasovun təsirindən azad olmağa çalışır"


**Qabil Hüseynli:**
"O, üzdə bir, arxada isə tamam başqa adam olub"

ilə Heydər Əliyevə, Azərbaycan hakimiyyətinə xəyanət edib. Onun ağlı-kamalı başında olsaydı və Azərbaycana hörmət bəsləyirdisə, vaxtında bura gələrdi. Azərbaycan dövləti onun üçün pensiya ayırıb. Pensiyasını alıb yaşayardı. O, Azərbaycandan lazımından da artıq yararlanmış bir adamdır. Onun bu dövlətin əlehinə çıxmağa heç bir mənəvi haqqı yoxdur".

**Abbas Abbasovun oğlu, deputat Aydın Abbasov da aznew.az-a açıqlamasında baş verənlərlə bağlı çox narahat olduqlarını deyib:** "Bu kimi mövzular həm Abbas müəllimə olan münasibəti, həm də ki, illərdir ki, onun göstərdiyi səyləri və fəaliyyəti dəyişmir".

❑ **"Yeni Müsavat"**

# Deputatlar və məmurlar şou-aparıcılara necə uduzur...

**"Adamlar məndən xahiş edirlər ki, onlara kömək edim, Zaurun, Elgizin və ya Xoşqədəm xanımın verilişinə çıxsınlar". Bu sözləri millət vəkili Fazil Mustafa vətəndaşları qəbul edərkən rastlaşdığı qəribə xahişləri dilə gətirib: "Sayını itirmişəm, hər halda, əllini ötər. Adamlar məndən xahiş edirlər ki, onlara kömək edim, Zaurun, Elgizin və ya Xoşqədəm xanımın verilişinə çıxsınlar. Deyirəm, müraciət edin, yəqin ki, verilişə alarlar. Mənim bu verilişlərə çıxarmağa nə səlahiyyətim, nə də aparıcılarla xüsusi münasibətim yoxdur. Deyirlər ki, orada elə bir növbə var ki, bizim vaxtımız bir ildən sonra gələcək. Deməli ki, əhlinin bir qismi də televiziyaların qabağında növbəyə durubmuş".**

Millət vəkili bu yerdə Sultan Əbdüləzizin 1868-ci ildə dövlət idarəçiləri ilə müşavirəsində çıxışının mətnini xatırladır: "O deyirdi: "İnsanlarla ədalətli davranmaq lazımdır, onların haqlarını bütün qurumlar yüksək səviyyədə qorumalıdır. İnsanlar hüquqlarını qorumaq üçün dövlətin qapısına deyil, ədalətin qapısına üz tutmalıdırlar". Nə yazıq ki, bizdə insanlar hüquqlarını arayarkən, problemlərini həll etmək istəyərkən dövlətin və ədalətin qapısına az gedirlər. Daha çox televiziyaların qapısında növbə tutmağa üstünlük verirlər. Düşündürücüdür".

F.Mustafanın dedikləri bir neçə dəfə sadə vətəndaşlarımız tərəfindən də müşahidə olunub. Belə ki, telekanalların qapıları ağzındakı izdiham, qələbəlik bura axının güclü olmasını göstərir. İnsanlar hesab edir ki, dövlət idarələrinin, məmurların, deputatların... həll edə bilmədiyi və ya həll etmək istəmədiyi problemləri bir qaydada olaraq televiziyalar yoluna qoya bilər. Və burda çox vaxt sadə bir məntiq dayanır: məmurlar telekanalda adının səslənməsinə görə çəkinəcək, ona kimsə təpinəcək və o da məhz istədiyi üçün yox, qorxduğu, çəkindiyi üçün mənim problemimi yoluna qoyacaq.


**Azad İsazadə:**
"Bu, sovet dövründən qalan təfəkkürdür"


**Dəyanət Rzayev:**
"İnsanlar məhkəmələrə, məmurlara yox, aparıcılara inanır, çünki..."

**Psixoloq Azad İsazadə hesab edir ki, bu, sovet dövründən qalan ənənədir. Onun sözlərinə görə, insanlar o zamandan televizorda öz problemlərinin səsləndirilməsi ilə onun həllini tapacağına inanıb:** "SSRI vaxtı ən axırıncı nöqtə Leninin mavzoleyi idi. İnsanlar ora məktub atmaq ənənəsini həyata keçirirdilər. İndi də bu instansiyanın funksiyasını telekanallar həyata keçirirlər".

**Psixoloq Dəyanət Rzayev də bu yaxınlarda telekanallardan birinin qabağından maşınla keçəndə heyrətamiz mənzərə ilə qarşılaşdığını dedi. Onun sözlərinə görə, insanların - qadınlı-kişili kütləvi şəkildə yerdə oturmasının şahidi olub:** "O an mənim daxilimdə qorxu hissi yarandı. Özümü çox narahat hiss etdim. Xüsusən də qadınları qucaqlarında körpə uşaqları ilə görəndə bu qorxu daha da artdı. Bu bir göstəricidir ki, Azərbaycan insanının nə qədər sosial və psixoloji problemləri var. Məsələn, bir oğlan bir qıza 1000 manat "atıb". Qız gəlib dərdini Zaura danışır. Nəyə görə deputatlara, polisə, sosial xidmətlərə, məhkəmələrə yox, məhz aparıcılara?"

**Müsahibimiz hesab edir ki, insanları bu seçiminə görə qınamaq olmaz. Çünki Azərbaycanda məhkəmələrin qərarları qərəzlidir, rüşvətxor hakimlər həddən artıq çoxdur. Ədalətli hakimlərin olduğunu da istisna etməyən D.Rzayevin fikrincə, hüquq-mühafizə orqanlarında da insanlar ədalətli münasibətlə hər zaman qarşılaşmır:** "Polis orqanlarında qadınların sayı azdır. İnsanlar "polis mənim dostumdur" prinsipi ilə hərəkət etmir. Bir neçə deputat var ki, insan adamdır, zənglərimizə cavab verir. Fazil Mustafa, Qüdrət Həsənquliyev bu qəbildəndir. Nə zaman müraciət etsən, sadə davranışa malikdirlər deyə adamla sadə tərzdə danışırlar. Amma çoxlarına adamın yaxın durması mümkün deyil. Onların qəbuluna 1-2 il yazılsan, düşə bilməzsən. Daha bir məqam da odur ki, insanlar bu gün nə polisə, nə də məhkəməyə etibar edir. Mən bir dəfə məhkəmədə olmuşam. Müşahidə etmişəm ki, bu gün məhkəmələr icra strukturlarından qorxur".

**D.Rzayev bildirdi ki, bu situasiyada aparıcıları, verilişin prodüserlərini və bu verilişləri efirə verən telekanal rəhbərlərini qınamır. Onun fikrincə, indiki situasiyada belə verilişlərin sayının çoxluğu xeyirdir, nəinki ziyan:** "Bir insanın xilas olması bir dünyanın xilas olması deməkdir. Biri bu verilişə gəlib təsəlli tapır, o biri xəstə uşağına görə 5-10 manat əldə edir. Bunun nəyi pisdir ki? Qoy belə verilişlər çox olsun. Nə qədər ki, digər qurumlar öz vəzifələrini yerinə yetirmir, o qədər də həmin verilişlərə ehtiyac qalmaz. Mən xəstə olsam, kim kömək edəcək mənə? Məcbur olacam verilişlərə çıxım, efir vasitəsilə yardım istəyim. 40 milyon verib hansısa maykanın üzərində Azərbaycan yazdırmaqdansa bir klinika aça bilmərik? Bu ölkədə qan xərçəngindən nə qədər adam əziyyət çəkir? Bu, Azərbaycan üçün böyük maliyyə deyil. Daha bir problem isə budur ki, bəzən sən adamlara hüququnun nə olduğunu izah etdiyin halda, o, verilişə çıxan kimi hansısa məmuru tərifləyir. Adam hirslənir ki, bəs səni bu vəziyyətə elə həmin məmur salıb da. Gərək insanlarda bir az qürur olsun".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 75 (6103) 10 aprel 2015

**Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə "A.M.A.Y." rəhbəri Abdulla Abdullayev, daha beş nəfər - Elşən Nəzərov, Heydər Rzayev, Mehman Məmmədxanlı, Vidadi Qurbanov və Hadejda İlyasovanın işi üzrə məhkəmə prosesi davam edir. Müttəhim kürsüsünə çıxarılanlara qarşı dələduzluq, mənimsəmə, vəzifədən sui-istifadə kimi ittihamlar irəli sürülüb. A.Abdullayev istisna olmaqla, digərlərinin barəsində həbslə bağlı olmayan qətimkan tədbiri seçilib.**

# "A.M.A.Y. Abdulla"dan 2 milyon manat istəyirlər

## Zərərçəkən: "Çıxsın gəlsin, binanı təhvil versin"

Aprelin 9-da proses iş üzrə zərərçəkmiş qismində tanınmış şəxslərdən Hilal Həmidovun ifadə verməsi ilə davam etdirildi. O, təqsirləndirilən şəxslərdən yalnız A.Abdullayevi tanıdığını söylədi. Zərərçəkənin sözlərinə görə 2004-cü ilin dekabrında "Xudafərin" MMC-dən mənzil alan zaman Abdulla Abdullayevlə görüşüb: "Sonradan binanın tikintisi dayandı, təxminən 10 nəfər getdik şirkətə, dedilər ki, müəyyən maliyyə problemləri yaranıb və binanın tikintisi davam edəcək".

**"Abdulla müəllimin həbsi bizim ziyanımızadır"**

**Zərərçəkən qeyd etdi ki, sonradan mənzili alsa da, bina tam təhvil verilmədiyi üçün yaşaya bilmir. Suallara cavab olaraq H.Həmidov bildirdi ki, şikayətçi deyil, tələbi isə yalnız binanın təhvil verilməsi ilə bağlıdır:** "Abdulla müəllimin həbsi bizim ziyanımızadır. Çıxsın gəlsin, binanı təhvil versin".

**Abdulla Abdullayev replika ilə cavab verdi:** "Mənim içəridə olmağımdan narahat olma, evinizi isə gedin prokurorluqdan tələb edin, işi saxlayıb təhvil verməyə qoymayan onlardır".

H.Həmidov daha sonra qeyd etdi ki, binanın təhvil verilməməsi ilə bağlı Binəqədi və Nərimanov rayon məhkəmələrində "Xudafərin" MMC-yə qarşı mülki iddia qaldırıb və hər ikisi təmin edilib. Hakim həmin məhkəmə qərarlarını növbəti iclasda məhkəməyə təqdim etməsini istədi. Zərərçəkən dedi ki, bina vaxtında hazır olmadığı üçün Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə də ərizə verib. Lakin şikayəti A.Abdullayevdən deyil, "Xudafərin" MMC-dən olub. Digər zərərçəkmiş X.Qədirova da binadan 3 otaq mənzil aldığını və müqavilədə nəzərdə tutulmuş məbləği ödədiyini bildirdi. Vəkillərin suallarına cavab olaraq, o, sonradan əlavə pul ödədiyini də söylədi. Dedi ki, Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə çağırılan zaman şikayət ərizəsi yazmayıb və hazırda da təqsirləndirilənlərə qarşı tələbi yoxdur.

Zərərçəkmiş kimi ifadə verən Xaliq Bahadır da mənzili aldığı üçün şikayət və tələbinin olmadığını, özünü zərərçəkən hesab etmədiyini bildirdi.

Daha sonra zərərçəkən Orxan Cəfərov məhkəmədə ifadə verib. Qeyd edək ki, O.Cəfərov mülki iddia ilə Bakı Ağır Cinayətlər Məhkəməsinə müraciət edərək, iddianın cinayət işinə əlavə edilməsini tələb edib. İddiada bildirilir ki, "Xudafərin" MMC-dən alınmış obyektlərlə bağlı ona 2 milyon 120 min manat ziyan dəyib. O.Cəfərov ifadəsində bildirdi ki, nənəsi və dayısı 2003-cü ildə obyekt alıntısı ilə bağlı müqavilə bağlayıblar. 2006-cı ildə şirkətdən bildiriblər ki, maliyyə çatışmazlığı yarandığı üçün tikinti davam etmir və buna görə əlavə məbləğlər də ödəyiblər. Müqavilə nənəsinin adına bağlanıb və hazırda o, dünyasını dəyişib. "2 ay əvvəl adam apararaq, həmin obyektləri təmir etdirmək istəyən zaman bir nəfər ortaya çıxaraq dedi ki, həmin obyektlər ona məxsusdur. Hətta bununla bağlı məhkəmə sənədləri də təqdim etdi. Birinci instansiyadan Ali Məhkəməyədək qərarlar vardı və Ali Məhkəmə obyektin Toma adlı xanıma məxsus olduğunu təsdiqləyib. Ona görə də mənə dəymiş ziyanın əvəzinin ödənilməsini tələb edirəm" - O.Cəfərov bildirdi.

**Abdulla Abdullayev isə bildirdi ki, məsələ başqa cür olub. Belə ki, Toma adlı şəxsdən vaxtilə 600 min manat pul götürüb, əvəzində əsas məbləğlə yanaşı 210 min manat da əlavə faiz ödəyib.** "Həmin pulu Tomaya göndərəndə aparan adam pulun üzərindən 25 min manat götürüb. Buna görə də o, mən tutulan zaman vəziyyətdən sui-istifadə edərək, məhkəmə yolu ilə həmin obyektlərlə bağlı qərara sahib olub".



Dövlət ittihamçısı O.Cəfərova bildirdi ki, istintaq onun "Xudafərin"ə 90 min 570 manat ödədiyini müəyyən edib. Prokurorun "Bu məbləğin əvəzində 2 milyondan artıq məbləğ tələb etməniz nə ilə bağlıdır" sualına O.Cəfərov belə cavab verdi:

- Hesab edirəm ki, həmin məbləğin dəyəri hazırda 2 milyondan artıqdır.

Vəkil Əkbər Bağırov isə ondan mülki qaydada məhkəməyə müraciət edib-etmədiyini soruşdu. O bildirdi ki, mülki qaydada rayon məhkəmələrinə müraciət etməyib, yalnız cinayət işinə əlavə edilməsi ilə əlaqədar bu iş üzrə mülki iddia verib.

Əkbər Bağırovla zərərçəkmiş arasında belə bir dialoq oldu:

***- Müqaviləni siz tərəfdən kim bağlayıb?***

- Nənəm Minayə xanım.

***- Kiminlə bağlayıb?***

- "Xudafərin" MMC ilə.

***- Bəs o zaman bu iş üzrə necə mülki iddia verirsiniz? Axı bu cinayət işində "Xudafərin" MMC nə cavabdeh, nə də təqsirləndirilən deyil. Sizin Abdulla Abdullayevə və ya digər təqsirləndirilənlərə qarşı bir tələbiniz var?***

- Xeyr, tələbim yalnız "Xudafərin" MMC-yədir.

- O zaman gedin "Xudafərin" MMC-yə qarşı iddia qaldırın. Bu işdə "Xudafərin" MMC tərəf deyil.

Dövlət ittihamçısı və hakimlər zərərçəkmişə bildirdilər ki, həmin obyektlərin əvəzində başqa yerin verilməsi ilə bağlı məsələni "Xudafərin" MMC-nin səlahiyyətlisi olan Anarla həll etsin. Anarın dindirilməsi təklif olunsa da, hakim bildirdi ki, onun adı şahidlər siyahısında olduğu üçün hazırkı mərhələdə dindirilə bilməz. Bu səbəbdən də O.Cəfərov, Anar və Toma adlı şəxsin məhkəmədən kənar danışaraq, nəticə barədə məhkəməyə məlumat verilməsi istənildi.

Prosesi aprelin 13-də davam etdiriləcək.

Yada salaq ki, A.Abdullayev ötən il aprelin 4-də həbs olunub. Onunla bağlı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş materi-al Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb. A.Abdullayevin həbsi ilə bağlı Baş Prokurorluğun mətbuat xidmətinin zamanında yaydığı məlumata görə, ilkin araşdırma zamanı toplanmış sübutlar əsasında Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

Abdulla Abdullayev, Novruzov Elşən Firudin oğlu, Rzayev Heydər Nizami oğlu, Məmmədxanlı Mehman Əbülfəz oğlu, Qurbanov Vidadi Qəmbər oğlu və İlyasova Nadejda İvanovna təqsirləndirilən şəxs qismində cəlb edilib. Abdulla Abdullayev Cinayət Məcəlləsinin dələduzluq, mənimsəmə və ya israf etmə, yalançı sahibkarlıq və vəzifə səlahiyyətlərindən sui-istifadə əməlləri ilə təqsirləndirilir. Digərləri isə dələduzluq, mənimsəmə və ya israf etmədə təqsirləndirilir.

❑ **E.MƏMMƏDƏLİYEV**

# İntihar edən şəxsin MTN Baş İdarəsinin zabiti olduğu təsdiqləndi

**Milli Təhlükəsizlik Nazirliyinin (MTN) əməkdaşı Nərimanov rayonunda, Həsənoğlu küçəsində yerləşən hündürmərtəbəli binadan özünü ataraq intihar edib. Məlumata görə, intihar edən Azər adlı 35-37 yaşlarında olan bu şəxs MTN-in Baş İdarəsində məsul vəzifədə çalışırmış. Onun intihar etdiyi, yaxud kiminsə tərəfindən öldürülməsi faktı araşdırılır. Nərimanov Rayon Prokurorluğundan intihar faktını təsdiq ediblər. Lakin əlavə məlumat vermək istəməyiblər.**

"Yeni Müsavat"ın əməkdaşı məsələyə aydınlıq gətirmək məqsədilə Baş Prokurorluğun mətbuat xidməti ilə əlaqə saxlayıb. Xidmətdən məsələ haqda şərh verməyiblər. MTN-in İctimai Əlaqə Mərkəzindən isə israrlı zənglərimizə cavab verilməyib.

Nərimanov Rayon Prokurorluğundan virtualaz.org saytına verilən məlumata görə, belə bir intihar hadisəsi doğrudan da baş verib. Prokurorluqdan o da bildirilib ki, faktla bağlı Cinayət Məcəlləsinin 125-ci (intihar həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb. İntihar edən şəxsin MTN-in polkovnik-leytenant rütbəli zabiti Azər Əliyev olduğu da təsdiqlənib. Hazırda araşdırma aparılır və xüsusi xidmət zabitinin ölümünün təfərrüatları aydınlaşdırılır.

❑ **E.HÜSEYNOV**

# Neft Daşlarında ərzaq qadağası fəhlə etirazı doğurdu

## "Oradakı mağazalarda ərzaq baha satılır, yeməkxanalardakı yeməklərin keyfiyyəti aşağıdır..."



**Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı Dövlət Neft Şirkətinin (SOCAR) Neft Daşları Neft Qaz Çıxarma İdarəsində yaşanan ərzaq qadağası haqda məlumat yayıb. Hüquq müdafiəçisi özünün facebook statusunda yazır: "Neft Daşlarından zəng edib burada da "5-ci siyahı"nın olduğunu deyiblər. Qeyd edim ki, adları "5-ci siyahı"da qeyd olunan bir qrup QHT nümayəndəsini ölkəyə girişdə və çıxışda təpədən dırnağa yoxlayırlar.**

Neft Daşlarında gəmi ilə işə gedən işçilər də belə ciddi yoxlamaya məruz qalır. Bu qayda rəhbərliyə aid deyil. Çünki rəhbərlik işə vertolyotla gəlir. Yeni fəhlələrə evdən ərzaq məhsulları gətirmək qadağan olub. Verilən məlumata görə, işçilər ərzaq məhsullarını yalnız Neft Daşlarında yerləşən mağazadan ala bilərlər. Düşünürəm ki, şikayətdə SOCAR-ın bəzi vəzifəli şəxslərinin adı çəkildiyindən, yəqin ki, problem tezliklə öz həllini tapacaq".

**Neft Daşlarındakı durumdan məlumatlı olan və adının çəkilməsini istəməyən mənbəmiz deyib ki, qadağa fəhlələr arasında çox ciddi narazılıq yaradıb:** "Estekada şəhərciyində elə yerlər var ki, sahildən həmin yerə yemək aparmağa icazə verilir. Çünki orada mağaza, yeməkxana yoxdur. Lakin ayrıca özüllər var ki, orada yeməkxana, mağaza var. Dövlət fəhləyə gündəlik 10 manat yemək pulu verir. Söhbət ondan gedir ki, oradakı mağazalarda ərzaq baha satılır, yeməkxanalardakı yeməklərin keyfiyyəti aşağıdır. Məsələn, 1 litrlik "Coca-Cola" sahildə 60 qəpikdirsə, oradakı mağazada 1 manat 10 qəpiyə satılır. Mağazanı işlədənlər SOCAR rəhbərliyində təmsil olunanların yaxınıdır. Belə deyirlər ki, estekadada, satış üçün ərzaq aparılması çətin olan yerlərdə qiyməti 20 faizdən artıq olmamaq şərti ilə baha satmaq icazəsi verilir. Fəhləyə fəhləliyini eləməyə imkan vermirlər. Bir fəhlə ki, sahildən özünə ucuz mal alıb gətirə bilirsə, niyə estekadada həmin malı 50-60 faiz baha almalıdır?

Rəhbərliyə gəlincə isə onlar estekadadakı 9 mərtəbəli binadakı yeməkxanada çörək yeyirlər. Fəhlə yeməkxanasında bişən yeməklə onlara verilən yemək eyni deyil. Keyfiyyət baxımından fərqlənir. 200 qram əvəzinə fəhləyə 120 qram çörək verə bilərlər, rəislərə isə bunu edə bilməzlər. Fəhlələrin də əsas narazılığı yeməklərin keyfiyyətsizliyi, normadan aşağı olmasıdır. Yəni fəhlə yeməkxanada bir qarın yemək yeyib doya bilmir. Evdən ərzaq gətirəndə isə özü bişirir, yeyir. Narazılığı da olmur. Yeməkxanada isə həmin keyfiyyət yoxdur. Əgər keyfiyyətli və uyğun qiymətə yemək verilsə, fəhlə oradakı yeməkxanada çörəyini yeyər, hələ istirahət etməyə də vaxtı qalar".

**Məsələ ilə bağlı SOCAR-ın mətbuat xidməti ilə əlaqə saxladıq. Lakin zənglərimiz cavabsız qaldı.**

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 75 (6105) 10 aprel 2015




# Həzrət Fatimeyi-Zəhra (s.ə.) mövludu - yeni eranın rəmzi

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**"... Doğrudanmı o yenə öz əllərilə öz qızını qətlə yetirəcəkdir? Doğrudanmı onun bu günahsız körpəyə əli qalxacaqdır?..." Artıq bir neçə il idi ki, yaxınları bu bədəvi ərəbdən qızının mövcudluğunu gizlədirdilər. O zaman uşaq dünyaya gələndə, bədəvini inandırmışdılar ki, körpə ölü doğulmuşdur. Üstündən 6 il keçmiş o, təsadüfən həqiqəti bilmişdir. Və rəzil cahiliyyət ənənələrinə sadiq olaraq, o canı canından, qanı qanından olan balasını, fəqət qız uşağı olması səbəbindən diri-diri torpağa basdırmaq qərarına gəlmişdir. O, bir anlıq da olsun, tərəddüd etmədi. Artıq dördüncü dəfə idi ki, bu bədəvi öz əli ilə balasını torpağa gömürdü. Öncəki üç qızı kimi. "Düzdür, - deyə o, fikirləşirdi, - o birilərini basdırmaq daha asan idi - dilsiz-ağızsız idilər, ağılları heç şey kəsmirdi, bununsa 6 yaşı var, ah-naləsi göyə qalxıb. Amma nə etməli, dədə-babadan belə görmüşük, bir də ki, zəiflik etsəm, camaat mənə nə deyər?...".**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Üstündən çox illər keçəndən sonra bu bədəvi ərəb Həzrət Peyğəmbərin (s) səhabəlrindən birinə rast gəldi. Və həqiqət nuru onun qubar bağlamış qəlbini işıqlandıra bildi. Amma ömrünün axırınadək günahsız balasının: **"Ata, etmə bunu! Məni niyə öldürürsən?! Günahım nədir? Mənə rəhmin gəlsin!"** nalələri Qiyamət təbili kimi onun qulaqlarında hayqıracaq və bir cüt məsum gözdə donub qalmış lal-dinməz irad, cəhənnəm odundan betər onun bütün vücudunu əbədi olaraq yandıracaqdı.

Bu - İslamdan öncəki Ərəbistan üçün sıradan bir tipik hadisə idi. Günahsız balalar İslamdan öncəki cahiliyyə zülmətinə xas vəhşi ənənənin qurbanı olurdular. Bu ənənəyə əsasən, ailədə qız uşağı - bədbəxtliyin mənbəyi idi, kişini düşmən qarşısında zəiflədən amil idi. Və bu iblisvari dəyərlər sistemində öz körpəsini öldürmək, onu diri-diri yerə basdırmaq - şücaət və mətinlik əlaməti (!) hesab olunurdu.

## Pas əridən şölələr

Elə təəssürat yaranırdı ki, bu dəhşətli reallığı sındırmağa qadir olan bir qüvvə mövcud deyildir. Amma, sanki, möcüzə baş verdi - pas bağlamış qəlblər, daşa dönmüş ürəklər insanlara məhəbbət və gözəllik bəxş edən bir məlhəmin - müqəddəs İslam dininin şölələri altında əriməyə, yumşalmağa, pasdan təmizlənməyə başladı.

14 əsr bundan öncə bəşəriyyət yeni bir eraya daxil oldu. Bəndələrini sonsuz məhəbbət və rəhmətindən xəlq etmiş Mütəal Allah, onlara İlahi peyğəmbərlərdən sonuncusunu - Həzrət Muhəmmədi (s) Elçi olaraq göndərdi və onun vasitəsilə sonuncu və Qiyamətədək dəyişməz olan, insanlar üçün hidayət və həqiqət çırağı olan Müqəddəs Kitabını - Qurani-Kərimi nazil etdi.

Bəşəriyyətə həqiqi nicatın mübarək yolu təqdim edildi.

Allahın Rəsulu (s) öz mübarək vəzifəsi ilə bəşəriyyətə göndərildiyi bir zaman idi ki, insanlar öz təkəbbür və cəhalətləri, insaniyyətə zidd durumları ilə özlərini vücudi uçurumun lap kənarına sürükləmişdilər.

Bəşəriyyət sanki rəhmət və məhəbbət təşnəsi idi və onu bu ülvi hisslərlə sirab edən məhz xaliqatın səbəbi, xatirinə dünyaların yaradıldığı mübarək insan - Həzrət Rəsulullah (s) oldu. Öz ixlaslı, İlahi xidmətə həsr edilmiş, bütün məşəqqətlərə baxmayaraq, bir an da olsun İlahi vəzifəsini səngitməyən mübarək həyatı ilə, Həzrət Rəsulullah (s) bəşəriyyətə gerçək bir məhəbbət və rəhmət təlimini bəxş etdi.

## Yeni eranın rəmzi

Mübarək İslam dininin insanlara verdiyi töhfələrin içərisində bəlkə də ən mübarəki - qadına olan ədalətsiz və vəhşi münasibətin aradan aparılması oldu. Yəqin ki, qadının müqəddəratında heç zaman 14 əsr bundan öncəki qədər inqilabi dəyişikliklər olmamışdı. İslam dini dilsiz və müti alət, ev əşyası kimi münasibət göstərilən qadını yaranışın əşrəfinə çevirdi.

Yaşanma məkanından asılı olmayaraq, qadın o zaman hər yerdə ikinci, üçüncü dərəcəli adam hesab edilirdi. Və İslam dini buna son qoydu - yeni era, qadına Allahın əmanəti kimi münasibət bəsləmə erasına başlanğıc verildi. Mübarək İslamın qədəmləri haraya dəyirdisə, orada qadının istismar və həqarət obyektindən qayğı və mehribanlıq hədəfinə çevrilməsi baş verirdi. Mübarək dinimizin sayəsində, qadın ilk dəfə olaraq təsəvvüredilməz bir yüksəkliyə - kamillik misdaqına, nümunəsinə çevrilirdi.

Bu yeni eranın ən parlaq rəmzi - Peyğəmbərimizin (s) gözünün işığı, cisminin parçası, qəlbinin meyvəsi, Xanımlar Xanımı Həzrət Fatimeyi-Zəhra (s.ə.) olmuşdur. Həzrət Fatimə (s.ə.) - həqiqi kamilliyin ən mübarək təcəssümüdür. Xanım Zəhra (s.ə.) kamilliyin elə bir mərhələsinə yetişmişdir ki, Həzrət Rəsulullah (s) onun barəsində buyurmuşdur: **"Fatimə - mənim bədənimin bir parçasıdır, gözümün işığıdır, qəlbimin meyvəsidir. O şey ki, onu qəzəbləndirir - məni qəzəbləndirmişdir; o şey ki, onu sevindirir - məni sevindirmişdir. O, Əhli-beytdən mənə qovuşacaq ilk şəxsdir".**

İslam qadına olan münasibəti köklü surətdə dəyişir. Günahın, zəlalətin, küfrün mənbəyi hesab edilən bir qadın, İslamın gəlişi ilə ani olaraq, xeyir və nemət mənbəyinə, İlahi mərhəmət səbəbinə çevrilir. Ailədə qız uşağının dünyaya gəlməsinə mənfi baxılan bir mühitdə, İslamın gəlişindən sonra, qız uşağına görə Allaha şükürlər etməyə başlamışlar. Çünki, dinimiz qız uşağını İlahi mərhəmət və nemətin vasitəsi qərar vermişdir.

## Kamil qadın obrazı

Allah Təbarəkə və Təalanın bəşəriyyət üçün nazil etdiyi sonuncu təlimdə müəyyən edilən dəyərlər sisteminə əsasən, insanların kamilliyi onların cinsinə, irqinə, millətinə görə deyil, fəqət ləyaqət və təqvasına görədir. Mübarək dinimiz insanın kamilliyini, onun fərd olaraq xeyir əməl müstəvisində həyata keçirdiyi vücudi inkişafına əsasən qiymətləndirir.

İctimai fəallıq, vətəndaş mövqeyinin nümayiş etdirilməsi kimi anlamlar hələ insanların əksəriyyətinə yad bir məfhum olduğu bir dövranda, əziz dinimiz qısa bir zaman kəsimində, əvvəl Həzrət Fatimənin (s.ə.), sonra da qızı Xanım Zeynəbin (s.ə.) mübarək timsallarında kamil insan, kamil qadın təcəssümünü təqdim etmişdir. Elə bir kamil xanımların ki, zalımlara və zülmə qarşı barışmaz mübarizələri, istibdad saraylarını lərzəyə gətirən, qəsbkarların dincliyini ərşə çəkən qətiyyətli mövqeləri ilə hətta müasir dünyanın bu gün də gəlib çatdığı vətəndaş mövqeyi anlamını üstələmişlər.

Bugünkü dünyada hüquqların pozulması, qadın ləyaqətinin "diri-diri basdırılması", qadının şəxsiyyət kimi deyil, istismar və varlanmaq vasitəsi kimi qəbul edilməsi hallarının hələ də mövcud olması isə xüsusilə acı təəssüf hissi oyadır.

Ən böyük ədalətsizlik isə ondadır ki, qadın hüquqlarının istər məişət, istər də ictimai müstəvidə pozulması, çox vaxt dinlə pərdələnərək həyata keçirilir. Guya ki, məhz din, qadınla belə vicdansız münasibətə rəvac verir.

Dinin bu formada qəbulu - ikimüstəvili bir məhsuldur: bir tərəfdən İslama qarşı aparılan məqsədyönlü əks-təbliğatın, digər tərəfdən cahil və qaragüruhçuların dəryalarca dərinliyi olan dini, öz primitiv anlamlarına uyğun "təqdim etmələrinin» sintezidir. Əfsus olsun ki, bir çoxlarında İslamın belə formada qəbulu, dinimiz barədə belə düşünməsi hələ də üstünlük təşkil edir.

Hələ də bir çox yerlərdə qadını əzmək, ona realizə olunmaq imkanı verməmək, Allah tərəfindən qadına əta edilmiş hüquq və azadlıqları pozmaq meyli çox güclüdür. Bu günün özündə də, İslamda qadının həqiqi rolu və yeri barədə cəmiyyətə dürüst məlumat verilmir, qadının bəzi hallarda kişidən də üstün olan hüquqları dəyərsizləşdirilir. Xanım Fatimeyi-Zəhradan (s.ə.) nəql edilən mübarək hədisdə qadının məqamına işarə olaraq, bildirilir: **"Ananın xidmətində durunuz, çünki behişt anaların ayaqlarının altındadır".**

İslamda qadın öz fəal vətəndaş mövqeyi ilə nəinki kişilərdən geri qalmır, hətta bəzi hallarda, Xanım Zəhra (s.ə) və Xanım Zeynəb (s.ə) təki, nümunə və örnək kimi çıxış edir. Məhz Həzrət Zəhra (s.ə.) ilk dəfə olaraq pozulmuş hüquqların müdafiəsinə qalxdı və məhz Xanım Zeynəb (s.ə.) yezid istibdadını ifşa etdi, Kərbəla həqiqətlərini dünyaya çatdırdı.

## Qadına münasibətlə tanınar kişi...

Cəmiyyətdə müsbət dəyişikliklər üçün ictimai həyatda çalışan qadın, eyni zamanda digər məsuliyyəti də daşıyır - cəmiyyətin harmonik inkişafının, ilkin hüceyrəsinin - ailənin əsası olmaq kimi bir vəzifəni. Əri üçün - həyat yoldaşı, uşaqlar üçün - sevən ana, bütövlükdə ailə üçün - harmoniyanın daşıyıcısı olmaq kimi mübarək bir missiyanı daşıyır qadın!

Və Həzrət Fatimeyi-Zəhranın (s.ə.) bəşəriyyətə xitabən söylədiyi mübarək tövsiyə bu gün necə də aktual səslənir: lSizlərdən ən fəzilətlisi o kəsdir ki, insanlarla ünsiyyətdə daha yumşaq və daha mehribandır. Və ən qiymətliniz o kəsdir ki, xanımına qarşı mehriban və güzəştlidir».

Əziz İslam Peyğəmbəri (s) buyurub: "Bəndənin imanı artdıqca, onun qadina olan sevgisi də artar".

İmanlılıq iddaisında olan kəsin rəftarının islahı üçün daha nə isə söylənilməlidirmi?!

**İmam Sadiq (ə) buyurur: "Qadına sevgi - peyğəmbərlərin əxlaqındandır".**

Peyğəmbər (s) əxlaqı ilə ziynətlənmə üçün bundan daha nə əlverişli fürsət?!

**İmam Əli (s) buyurub: "İmanın ən üstünü əmanətdarlıqdır, ən pis xislət isə xəyanətkarlıqdır".**

Bizə İlahi tərəfindən verilmiş əmanətlərlə əmanətdar davranmağın zamanı yetişmədimi?!

İslam Peyğəmbəri (s) buyurub: **"Əmanətdar olmayanın imanı yoxdur".**

Əmanətə xəyanət edərək imansızlığa doğru suruklənmərikmi?!

İslam Peyğəmbəri (s) buyurub: **"İffət, qadının zinətidir".**

İmam Əli (ə) buyurub: "Gözəlliyin zəkatı - iffətdir".

Bu bayram üçün dəyərli xanımların özlərinə sovqat olaraq, bu mübarək kəlamların nurani mahiyyətinə daima sahib çıxmaqdan daha nə dəyərli ola bilər?

İslam Peygəmbəri (s) buyurub: **"Sizin ən yaxşı övladlarınız - qızlarınızdır".**

İslam Peyğəmbəri (s) buyurub: **"Hər kim üç qız, ya üç bacı böyüdə, başa çatdıra - behişt ona vacib olar".**

Qız övladının intizarında olmaq və qız övladlarımızın nə böyük nemət olmasının fərqinə varılması üçün nə gözəl bilgi...

İslam Peygəmbəri (s) buyurub: **"Sizlərin ən yaxşısı o kəslərdir ki, həyat yoldaşları və qızlarına qarşı gözəl rəftara malik olalar".**

İmam Sadiq (ə) buyurub: **"Əgər kişi xanımına əziyyət versə, Allah Təala onun namazını qəbul etməz və əməllərin savabını nəsibi etməz və o, xanımına verdiyi əziyyətə görə cəhənnəmə ilk daxil olan kəs olar".**

İslami kimliyimizin ziddinə rəftarlardan qurtulmaq üçün yetərli deyilmi?!... Cəhənnəmə aparan əməllərdən qurtulmaq zatən, özümüzə lazım...

İslam Peyğəmbəri (s) buyurub: **"Sizlərin ən yaxşısı o kəslərdir ki, ailəsi ilə gözəl əxlaqa malik olsun. Mən sizlərdən öz ailəmlə rəftarda ən yaxşısıyam. Yalnız o insanlar alicənabdırlar ki, qadınlarla alicənab rəftar edə. Və yalnız alcaq xislətlı insanlar qadınlara əziyyət verər və incidərlər".**

Alicənablıq və alcaqlıq arasında seçim hər kişinin üzərindədir... Xanımları rəftarımızla ucaldaraq ucalarıq, alçaltdıqca ilk öncə özü alçalar kişi...

Həzrət Əmirəl-möminin Əli (ə) İmam Həsən Müctəbaya (ə) xitabən qadını belə vəsf edir: **"Qadın qəhrəman yox, xoş ətirli bir güldür".**

Belə isə Allahın əmanəti olan bu xoşətirli güllə, onun layiq olduğu tərzdə rəftar edilməlidir, deyilmi?!

**Allahım! Bizləri cəhalət və qaragüruh bataqlığına qərq olunmaqdan Özün hifz et!**

**Allahım! Bizləri Həzrət Fatimənin (s.ə.) mübarək yolunu yaşadanlardan qərar ver! Amin!**

# Məktəb direktorunun oğluna zorlama ittihamı



## Elşən Məmmədov qızına təcavüz edən şəxsin həbsini tələb edir; müstəntiq "Yeni Müsavat"a açıqlama verdi

**Bakı sakini Elşən Məmmədov "Yeni Müsavat"a müraciət edib. Bibiheybət qəsəbəsində yaşayan müraciət müəllifi qızının başına gətirilən müsibətdən sonra istintaqın ləngiməsindən şikayətlənib. Onun sözlərinə görə, 1998-ci il təvəllüdlü qızı Xəyaləyə (ad şərtidir) təcavüz olunub.**

E.Məmmədov hadisə barəsində bunları qeyd edib: "2014-cü il avqustun 20-də ailəvi İsmayıllı rayonunun Gideyli kəndinə toya getmişik. Həmi gün gecə kəndin məktəb direktoru Həsən Məmmədovun oğlu Aqşin qızımı qaçırıb. Bu ailə ilə uzadan qohumluğumuz var. Aqşin arabir Bakıda evimizə gedib-gəlib. Ancaq ağlımıza gəlməyib ki, belə bir iş tuta bilər. Çünki evlidir, 2 uşağı var, 30 yaşını haqlayıb. Mənim qızım isə məktəblidir. Taksi sürücüsü işləyirdi, bizi də İsmayıllıya gedəndə aparırdı.

Həmin tarixdə gecə qızı evdən qaçırıb. Biz ayrı-ayrı otaqlarda olmuşuq. Üç gün balamdan xəbər olmayıb. Hətta məktəbin direktoru olan atası məsələdən agah olsa da, qızımın harada olmağını məndən soruşub. Demə, Aqşin qızı bibisi evində gizlədib. Həsən Məmmədov da zorlama faktını ört-basdır etmək istəyib".

**Şikayətçi 102 xidmətinə zəng edib:** "İsmayıllı Rayon Prokurorluğunda cinayət işi açıldı. Qızımdan 5 saat izahat alınıb. Uşaq izahat verəndə stressdən ürəyi gedib, 103 xidmətindən verilmiş həkimlərin arayışı da bunu təsdiq edir. Ancaq istintaqın Həsən Məmmədovun istədiyi istiqamətdə getdiyini görüb Baş Prokurorluğa müraciət etmişik. İş Qəbələ Rayon Prokurorluğuna verilib. Müstəntiq Elçin Sadıqovun iştirakı ilə Aqşinin qızımı gizlətdiyi yerlərdə çəkiliş aparılıb. Heydər parkı, həmin parkın istirahət mərkəzi, Qəbələnin Şəhidlər Xiyabanına yaxın çay istiqamətində, meşəlikdə gizlətməsi ilə bağlı qeydlər götürülüb. Bundan sonra Qəbələ Rayon Prokurorluğunda 149.1 maddəsi ilə cinayət işi başlanıb".

**Qızın atası deyir ki, bir neçə ay sonra müstəntiq yenidən övladını izahat verməyə çağırıb:** "Mənə günlərlə zəng etdi. Ancaq qızımın təzədən ağrı-acını yaşamasını istəmədiyim üçün izahat verməyə qoymadım. Müstəntiq 149.1 maddəsini 152-ci maddə ilə əvəzləmək istədiyini, əvvəlki izahatların dəyişdirilməli olduğunu söylədi".

**E.Məmmədov deyir ki, hadisənin üstündən təxminən bir ilə yaxın vaxt keçir:** "Mənə çatan xəbərlərə görə, Aqşinin atası məktəb direktoru kimi öz imkanlarından istifadə edərək istintaqın gedişinə təsir göstərir. Qızım zorlanıb, ortada fakt var, cinayət işi açılıb. Amma müstəntiq maddəni dəyişməklə cinayəti bağlamaq istəyir. Mən valideyn və vətəndaş olaraq Aqşin Məmmədovun cəzalandırılmasını tələb edirəm. Hər şeyə göz yummaq olar, namus məsələsinə yox. Öz oğlunu düzgün tərbiyə edə bilməyən bir ata məktəbdə təhsil alan uşaqlara necə tərbiyə verə bilər? Onu kimi adamların təhsilə rəhbərlik etməsi böyük ləkədir. Aqşin isə azadlıqda gəzir. Qanunun aliliyi qorunmalıdır.

Prokurorluqda izahat alınan zaman üstümüzə hücum çəkən Həsən Məmmədov "pulum var" deməklə məsuliyyət daşıyır. Bizim yeganə tələbimiz istintaqın yekunlaşıb, məhkəməyə göndərilməsi və cinayəti törədən adamın həbs olunmasıdır".

**Müstəntiq Elçin Sadıqov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hadisə avqustda olsa da, oktyabrın 20-də cinayət işi açılıb. Müstəntiqin sözlərinə görə, hazırda iş araşdırılır:** "Şübhəli şəxs kimi saxlanan olmayıb. Zorlama işi olanda ertəsi gün şikayət edilir və dərhal həbs olur. Bu işdə zorlama faktı ilə bağlı qeyri-müəyyənliklər var. Ona görə araşdırma aparılır, hərtərəfli öyrənilir. Tibbi ekspertizanın nəticəsi var, biz onu indi açıqlaya bilmərik. Onların əvvəlcədən tanışlığı olub, 4 gün Qəbələdə qalıblar.

Sonra qız İsmayıllıya anasının yanına gedib, təzədən oğlanın yanına qayıdıb. Hər halda, 4 gün zorlama olmur və ona görə də bütün tərəflər araşdırılır. İstintaq gedir və biz o ailəyə kömək etməyə çalışırıq".

❑ E.SALAMOĞLU

**Elan**

**Hüseynova Zəkiyyə Vaqif qızına məxsus evin çıxarışının (Bakı şəhəri Xətai rayonu, 5-ci Daiqəvi küçəsi ev 106, mən.1) itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Tanınmış həkimin evindən külli miqdarda pul və qızıl oğurlandı

**Bakıda mənzildən külli miqdarda pul və qızıl oğurlayan şəxs tutulub. Lent.az-ın Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən məlumatına görə, Xətai RPİ 37-ci PB, Lənkəran ŞRPŞ və Astara RPŞ əməkdaşları tərəfindən yanvarın 31-də Xətai rayonu ərazisində yaşayan Mircəlal Kazıminin mənzilindən 3000 manat və 7500 ABŞ dolları oğurlamış Astara rayon sakini Elvin Əliyev tutulub.**

Cinayət əməlinin iştirakçısı olan Anar Əliyev isə müəyyən edilib. Araşdırmalar zamanı evdən oğurlanmış qızıl əşyaların Lənkəran şəhər sakini Füzuli Zeynalova satılması müəyyən edilib. Həyata keçirilən əməliyyat-axtarış tədbirləri ilə F.Zeynalov da tutulub.

Qeyd edək ki, evindən oğurluq edilən 1977-ci il təvəllüdlü Kazımi Mircəlal Mirkazım oğlu tanınmış cərrah transplantoloqdur. O, hazırda Səhiyyə Nazirliyinin Mərkəzi Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantasiyası şöbəsinin müdiridir.

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda**

• *Arı südü*
• *Mumiya*
• *Möhtəşəm ağ bal*
• *İssık-Kul balı*
• *Esparset balı*
• Çayek balı
• *Karkıra balı və s.*

**Xalisi yalnız bu ünvanda:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119
**Tel:** (012) 491-23-82; (051) 922-15-71

Azercell

## «Azercell» ölkədə ilk dəfə olaraq SMS filtrasiyası tətbiq edir

**Mobil rabitə xidmətlərindən istifadə zamanı abunəçiləri çox vaxt narahat edən hallardan biri nömrələrinə çoxlu sayda reklam xarakterli SMS-lərin gəlməsidir. Daim öz abunəçilərinin qayğısına qalan Azərbaycanın lider mobil operatoru «Azercell Telekom» ölkədə ilk dəfə olaraq müştəriləri üçün xüsusi SMS filtrasiyası imkanını tətbiq edir. SMS filterini tətbiq etməklə abunəçilərin nömrələrinə gələn reklam SMS-lərin qarşısını almaq mümkündür. Abunəçi SMS filtrasiya xidmətindən çox asanlıqla yararlana bilər. Belə ki, abunəçi 9005 qısa nömrəsinə STOP mətnli və yaxud boş SMS göndərməklə, arzuolunmaz reklam mətnlərinin öz nömrəsinə gəlməsini dayandıra bilər. Qeyd edək ki, belə SMS göndərişi zamanı nömrənin balansından heç bir məbləğ çıxılmır.**

**Hər zaman öz abunəçilərinin məmnunluğunu düşünən «Azercell» şirkəti bundan sonra da müştərilərinin mobil rabitə xidmətlərindən daha rahat və sərbəst istifadəsi üçün şərait yaratmaqda davam edəcəkdir.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz**

**Elan**

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**

**Əlaqə nömrəsi: +79283706928**

YENİ MÜSAVAT

Son səhifə

N 75 (6103) 10 aprel 2015



## Həkim qadına güldüyü üçün cərimələndi...

İsveçdə müsəlman bir qadının dini inancları səbəbindən xəstəxanada həkimə salam verməməsindən sonra baş verən hadisələr ölkə mediasının gündəmindən düşmür. İsveçin rəsmi xəbər agentliyi "TT"nin xəbərinə görə, həyat yoldaşı ilə birlikdə xəstəxanaya gedən qadını kişi həkim qarşılayıb. Ona salam vermək məqsədilə əl uzadan kişiyə dini inancına görə sadəcə başı ilə salam verən qadın gülüş hədəfinə çevrilib. Həkimin həyat yoldaşına gülməsinə əsəbiləşən kişi onu məhkəməyə verib. Hakimin qərarından sonra həkim 7 min 500 avro maddi təzminat ödəməyə məcbur olub.



## Təyyarənin təkərində səyahət etdi

Hava yolları tarixində bir neçə dəfə təkrarlanan və ölümlə qurtaran təkərdə uçuş təcrübəsi bu dəfə möcüzə ilə nəticələnib. İndoneziya prezidenti Vidodo ilə görüşə bilmək üçün Sumatra adasından 950 kilometr uzaqlıqdakı paytaxt Cakartaya getmək istəyən 21 yaşlı Ambarita təyyarənin təkərlərində gizlənib. Gənc oğlan mənfi 15 dərəcə soyuqda 105 dəqiqə uçmasına baxmayaraq sağ qalmağı bacarıb. Təyyarə endiyi zaman prezidenti çox sevdiyi üçün bu addımı atan Mario Steve Ambarita onunla görüşmək üçün əlindən gələni edə biləcəyini deyib. Ambarita evdən çıxarkən anasına işə getdiyini deyib.

# Suya qarşı allergiyası var

Amerikada yaşayan Aleksandra Allen adlı qızın suya qarşı allergiyası olduğu məlum olub. "Good Morning Amerika" adlı proqrama qonaq olan qız qeyri-adi xəstəliyinin ilk dəfə 12 yaşında ortaya çıxdığını açıqlayıb. Zaman keçdikcə 17 yaşlı qızın allergiyası şiddətlənməyə başlayıb. Artıq nəmli heyvanların, tərin, hətta göz yaşının belə bədənində qaşınma, qızarma və ağrı yaratdığını deyir. Həftədə iki ya da üç dəfə soyuq su ilə duş ala bilən Allen xəstəliyinin illər keçdikcə daha da qorxulu hala çevrilməsindən narahatdır.



Bu günə qədər yalnız 50 nəfər suya allergiyası olduğu üçün tibb tarixinə düşüb. "Aquagenic urticarial" adı verilən bu xəstəliyin səbəbi tam olaraq bəlli deyil. Lakin bu xəstəliyin daşıyıcıları bədənlərinə su dəydiyi anda qaşınmağa başlayırlar. Bu növ allergik xəstəliklər qadınlarda yeniyetməlik dövründə ortaya çıxır və hər il bir az daha şiddətlənir.

# İnsanlar başını da dəyişə biləcək...

Çılğın italyan cərrah Sergionun baş nəqli etməsinə razılıq verən könüllü tapılıb. 30 yaşlı rus gələn il 36 saat davam edəcək əməliyyatdan sonra başının sağlam bir başla dəyişdirilməsinə hazırdır. Əməliyyatın qiyməti 12 milyon dollardır. Rus kompüter mühəndisi Valeri Spiridonov dünyanın ilk bədən nəqli əməliyyatı üçün könüllü olub. Anadangəlmə əzələ xəstəliyi olan 30 yaşlı rus başını sağlam bir bədənə nəql edəcək italyan cərrah Sergio Canaveroya güvəndiyini deyib. Bu günə qədər yalnız internet vasitəsilə əlaqə saxlayan xəstə və həkim yaxın zamanlarda görüşəcəklər. V.Spiridonova beyin ölümü gerçəkləşmiş, bədəni sağlam olan bir insanın bədəni lazımdır. Rus mühəndisin 4 həftə reanimasiya şöbəsində yatdıqdan sonra sağalması gözlənilir. Əməliyyatda 150 həkimin iştirakı gözlənilir. Bir çox həkim isə baş nəqlinin hələ ki mümkün olmadığını deyir.






## 10 il sonra yadplanetlilərlə tanış olacağıq...

NASA Agentliyində çalışan alimlər gələcək 10-20 il ərzində yadplanetlilərlə tanış ola biləcəyimizi açıqlayıblar. NASA-nın tanınmış alimlərindən Ellen Stofan Vaşinqtondan verdiyi açıqlamada gələcək 10-20 il ərzində Yer kürəsindən kənarda həyat olduğu haqda dəqiq məlumatlara əldə edəcəklərini açıqlayıb: "Artıq hara, necə baxacağımızı bilirik. Yadplanetliləri tapa biləcəyimiz texnologiyalara da sahibik".

NASA-nın Heliofizik bölməsi müdiri Jeffrey Nevmark da artıq yadplanetlilərin olub-olmadığını deyil, harda olduqlarını araşdırdıqlarını deyiblər.




QOÇ - Günün əsas hissəsini maraqlı tərzdə başa vuracaqsınız. Amma yaxşı olar ki, nahardan sonra işə ara verib bir qədər istirahətə aludə olasınız. Spirtli içkidən, duzlu qidadan uzaq olun.

BUĞA - Göy qübbəsi şəxsi işlərinizdə böyük dönüş yaranacağından xəbər verir. Perspektivlərinizi reallaşdırmağa can atın. Yalançı həmkarlarınızdan uzaqlaşmağa çalışın.

ƏKİZLƏR - Fəaliyyət sahəsində müəyyən irəliləyişlərə nail olmaq üçün ulduzlar sizə şans yaradacaq. İkitərəfli sövdələşmələrin uğurlu olacağını nəzərə alıb aktivliyinizi artırın.

XƏRÇƏNG - Saat 13-ə qədər vaxtınızı qalmaqalsız başa vura bilsəniz, sonrakı müddətdə hər hansı probleminiz olmayacaq. Şəxsi büdcənizi artırmaq üçün münbit şəraitdən bəhrələnin.

ŞİR - Təəssüf ki, bu təqvim bürcünüz üçün hansısa uğur vəd etmir. Bu səbəbdən də əsas diqqətinizi səhhət və mənzillə bağlı problemlərin həllinə yönəltməlisiniz. Qeybət və yalandan uzaq olun.

QIZ - Maliyyə məsələlərində çətinliyiniz olsa da, qarşılıqlı münasibətlər zəminində işləriniz qaydasında gedəcək. Ailə-sevgi münasibətləri isə daha romantik müstəviyə keçəcək. Yalan vədlər verməyin.

TƏRƏZİ - Sizə qarşı qərəzli çıxışlar gözlənilir. Əgər bədxah adamlarla baş-başa gəlmək arzusunda deyilsinizsə, onda belələrindən vaxtında uzaqlaşın. İmkan olsa, nahardan sonra uzaq səfərə çıxın.

ƏQRƏB - Maraqlı hadisələrin iştirakçısı olacaqsınız. Bu enerjini xeyirxah işlərə yönəltməyə çalışın. Çünki indi savab qazanmaq qarşınızda bağlı qalan qapıların açılmasına zəmin yaradacaq.

OXATAN - Neçə müddətdən bəri ləng inkişaf edən maliyyə işləriniz bu gündən başlayaraq qaydasına düşəcək. Bu istiqamətdə sizə kənardan da dəstək olacaq. Axşam qonaq getməyə dəyər.

OĞLAQ - Yalnız saat 12-14 arası gərgin keçə bilər. Qalan saatlarda iştirakçısı olduğunuz bütün proseslər zövqünüzlə vəhdət təşkil edəcək. Axşama yaxın sevindirici xəbərlər eşidəcəksiniz.

SUTÖKƏN - Bir neçə amillə rastlaşacaqsınız ki, bu da saat 15-ə qədər ovqatınızda mənfi çalarlar yaradacaq. Odur ki, maksimal səbr nümayiş etdirməlisiniz. Bu gün çox pul xərcləməyin.

BALIQLAR - Ulduzlar yeni və sevindirici hadisələrin iştirakçısına çevriləcəyinizdən xəbər verir. Bu siyahıya işgüzar əlaqələr və tanışlıqlar da aiddir. Amma riskdən uzaq olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Nağıl bilmədiyi üçün döyüldü



Çində bir uşağın məşhur nağılı bilməməsinə görə ögey anası tərəfindən döyülməsi ölkədə narazılıqların yaranmasına səbəb olub. Uşağı dünyaya gətirən qadın ona daha yaxşı baxılacağını düşündüyü üçün əmisi oğluna övladlığa verib. Anasının bu addımı uşağın həyatını cəhənnəmə çevirib. Uşağa pis davranan ögey ana onu nağıl bilmədiyi üçün dəmir çubuqla döyüb. 9 yaşlı uşağın bədənindəki dəmir çubuq izləri görənləri şoka salıb. Polislərin araşdırmasından sonra uşaq doğma ata-anasına qaytarılıb, ögey ana isə həbs edilib.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.